بسم الله الرحمن الرحيم

TBİLİSİ 2018

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს
მუსლიმთა სამმართველოს სამეცნიერო საბჭოს
ინიციატივით და რეკომენდაციით

Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi
Gürcüstan müftiliyinin elmi şurasının təşəbbüsü və məsləhəti
ilə nəşr olunub.

---

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო
მადლობას უხდის საქართველოს ახალგაზრდობის
დახმარების და საგანმანათლებლო საზოგადოებას წიგნის
გამოცემის ნებართვისათვის

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan
Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və
Maarifləndirmə Təşkilatına təşəkkür edir.

| | |
|---|---|
| Kitabın orijinal adı: | *Kainat, İnsan ve Kuranda* TEFEKKÜR |
| Müəllif: | Osman Nuri TOPBAŞ |
| Nəşrə Hazırlayan: | Hacı BƏKİROĞLU |
| Dizayn: | Elsevər ƏHMƏDOV |

---

Esma Oniani st, Tbilisi, Georgia ,#23
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0159
E_mail: info.amag77@gmail.com

# აზროვნება

KAİNAT, İNSAN VƏ QURANDA

# Təfəkkür


ოსმან ნური თოფბაში

Osman Nuri TOPBAŞ



TBİLİSİ 2018

## ÖN SÖZ

*"Təfəkkür kimi ibadət yoxdur."*

(Beyhəqi, Şuab, IV, 157)

Bizə "təfəkkür" və "təhəssüs"[1] qabiliyyətlərini lütf edərək **"mərifətullah"** yolunu açan, sonsuz kərəm və ehsan sahibi Rəbbimizə həmd-səna olsun!..

**Kainat, insan və Qurani-Kərimi** ən gözəl, ən duyğulu və ən dərin şəkildə oxuyub ümmətinə də bunları könül gözü ilə oxumağı öyrədən Rəsulullaha ﷺ, onun əhli-beytinə və əshabına sonsuz salat və salam olsun!..

Allah-Təala ilahi isim və sifətlərinin üç böyük təcəlli məkanı olan **"Quran"**, **"insan"** və **"kainat"**ın dərinliklərindən nəsib alaraq oradan həyatını aydınladacaq həqiqət incilərini çıxara bilmə qabiliyyətini məxluqat içində kamil bir surətdə yalnız insanlara, qismən də cinlərə bəxş etmişdir. Bunun yeganə vasitəsi isə **"təfəkkür"** və **"təhəssüs"**dür.

1. Təhəssüs: Duyğulanma, hisslənmə, qəlbin idrak etməsi.

Doğrudan da təfəkkür və təhəssüs həqiqətə çatmağın və qəlbi həyata səviyyə qazandırmağın vaz keçilməz bir şərtidir. Misilsiz hidayət və səadət rəhbəri olan Qurani-Kərim də ilk ayəsindən son ayəsinə qədər hər vasitə ilə bizi təfəkkürə dəvət edir. İnsanın yaradılışındakı hikmətləri, kainatdakı xariqüladə nizamı və Allahın ayələrini, yəni ilahi qüdrət naxışlarını, əzəmət təcəllilərini və Allahın kainatda mütləq olan hökmranlığını təfəkkür etməyimizi əmr edir.

Haqq-Təala Qurani-Kərimdə hər vasitə ilə:

**"Məgər düşünmürsünüz? Fikirləşməzlərmi? Düşünməzlərmi? Dərk etməzlərmi?"** buyuraraq mömінləri tənbeh edir.[2]

Belə ki, bu mənada:

- **"Məgər dəvəyə baxmırlar?"**[3] buyuraraq məxluqata diqqət çəkərkən;

2. Bax: əl-Ənam, 50; əl-Bəqərə, 219, 266; Muhəmməd, 24; ən-Nisa, 82; Yasin, 68.
3. Allah-Təalanın **əl-Baqi** və **əl-Musavvir** sifətləri Onun məxluqatı bir-birindən fərqli şəkil və surətlərdə yaradıb hər varlığı içində yaşadığı şərtlərə və görəcəyi vəzifəyə uyğun qabiliyyətlərlə təchiz etməsini ifadə edir. Heyvanlar içində dəvəyə verilən xüsusiyyətlər bunun bariz bir nümunəsidir. O, su və bitkinin çox az olduğu səhra iqlimində yaşadığı üçün hörgücündə həftələrlə ona kifayət edəcək şəkildə su saxlaya bilir, tikanla belə qidalanıb yediyi bitkiləri uzun müddətdə təza saxlaya bilir. Bundan başqa qum fırtınalarına və səhra iqliminin hədsiz istilərinə dözümlü bir şəkildə yaradılmışdır. Şübhəsiz ki, bu, ilahi elm, qüdrət və sənətin heyranlıq verən sonsuz təzahürlərindən təkcə biridir.

- **“Buluda, yağışa, dağlara, yamyaşıl bitkilərin qışda ölüb yazda dirilməsinə baxmazlarmı?..”**[4] buyuraraq coğrafi hadisələrə;

- **“Məgər onlar yer üzünü dolaşıb özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmürlərmi?!”**[5] buyuraraq da tarixə diqqət çəkər.

Beləliklə biz bəndələrini hər vasitə ilə təfəkkürə dəvət edib kainata hakim olan ilahi qanunları və bu qanunların təcəlli şərtləri mahiyyətində olan “adətullah”ı dərk etməyimizi istəyir.

Həmçinin Rəbbimiz insanın kainatı boş və dərrakəsiz bir nəzərlə deyil, hikməti dərk edəcək qabiliyyət və bəsirətlə müşahidə etməsinin vacibliyini ifadə edir. Qurani-Kərimdə ilahi nemətləri zikr etdikdən sonra, dəfələrlə: **“Ey bəsirət sahibləri** (gözüaçıq, ayıq adamlar)**!..”**[6] deyə xitab edir.

Uca Rəbbimiz bizdən israrla həm özümüzü, həm də təbiəti təfəkkür etməyimizi istəyir. Qurani-Kərimin təxminən 150 yerində ilahi əzəmət və qüdrət naxışlarını düşünməyimizi əmr edir. Elə buna görə də **“təaqqul”** (أَلتَّعَقُّل), **“tədəbbür”** (اَلتَّدَبُّر), **“təzəkkür”** (اَلتَّذَكُّر), **“təfəkkür”**(اَلتَّفَكُّر) kimi ifadələr işlədir.

Bu ifadələrin zirvə səviyyədə həyata tətbiq edilib mənəvi tərbiyə metodu halına gəldiyi sahə isə

4. Bax: Qaf, 6; Yunus, 101; əl-Ğaşiyə, 17-20; ən-Nur, 43; əl-Həcc, 63; ər-Rad, 3; əl-Ənbiya, 31; ən-Nəhl, 65; ər-Rum, 50.
5. Muhəmməd, 10...
6. Bax: Ali-İmran, 13;ən-Nur, 44; əl-Həşr, 2...

"Təsəvvüf"dür. **Təsəvvüf** fərdin mənəvi istedadı və buna əlavə olaraq Allahın lütfü ölçüsündə həqiqət zirvələrinə çatmağı hədəf alan bir təkamül, kamillik yolunun adıdır. Elə buna görə də **"Özünü tanıyan Rəbbini tanıyar."** sözü ilə ifadə edilən hikmət təsəvvüf əhlinin mənəvi təkamül yolunda ən əsas düsturlardan birini təşkil edir.

Kainatda diri bir qəlbə sahib olan insana Xaliqini və Onun sənətkarcasına qüdrətini tanıtmayan heç bir zərrə yoxdur. Mikro aləmdən makro aləmə qədər kainatdakı hər şey ilahi əzəmətin şahididir.

Bütün məxluqatın **"hal dili"** deyilən bir ifadə şəkli var ki, hər şey onunla aşkar və qəti bir bəyan halındadır. Bu bəyanları layiq olduğu şəkildə dərk edə bilən möminlər üçün necə ki, bədənin qibləsi Kəbədirsə, könlün qibləsi də Allah-Təala olur.

Ayeyi-kərimədə buyurulur:

**"O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər** (və deyərlər)**: Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından qoru!"** (Ali-İmran, 191)

Kainatdakı ilahi qüdrət və əzəmət təcəllilərini layiq olduğu şəkildə təfəkkür edə bilən insan ilk növbədə öz acizliyini dərk edər, sonra isə tam bir təslimiyyət və itaət ilə hər nəfəsdə Rəbbini zikr halında olar. Beləliklə qəlbi təqva nuru ilə dolar. Təfəkkür də təqva ilə ən məqbul səviyyəyə çatır.

Haqq dərgahında insan cismən quruluşu, xarici görünüşü və dünyəvi imkanları ilə deyil, qəlbi kamilliyi, məna dərinliyi, ruhani vəsf və qabiliyyətləri ilə dəyər ifadə edir. Elə buna görə də Qurani-Kərim möminin təfəkkürünü imani bir hiss dərinliyi ilə qüvvətləndirərək onu maddə və nəfsaniyyətin dar hüdudlarına həbs olmaqdan xilas edir, ruhaniyyət iqliminin əbədi və sərhədsiz üfüqlərinə qovuşdurur. Kainatdakı ilahi gözəllikləri ibrət nəzəri ilə seyr edə bilən möminin təfəkkürü, ruhani bir vəsf qazanır. Qəlbi təhəssüslə zirvələşən belə dərin və əhatəli bir təfəkkür isə ən gözəl iman açarıdır.

Ruhani aləmini təkamül etdirməyən bir insan isə nəfsani bir həyatın bayağı təzahürlərinə ilişib qalaraq təfəkkür istedadını fani sevdaların girdabında həlak edər. Belə qatı bir qəlb və idrak artıq haqqa və xeyrə yönəlmək əvəzinə daim fani gözəlliklərə hücüm edər; nəfsin arzu və istəklərinin əsiri olar. Heç təfəkkür etməz ki, fani həyat bazarının ən son paltarı olan **KƏFƏN** bir gün mütləq onu da saracaq və ölüm vaqiəsi bütün fani zövqlərə, cazibələrə, aldadıcı zərlərə ləğv möhrünü vuracaqdır!..

İmani bir duyğu dərinliyi ilə qüvvətlənmiş təfəkkür insana daim sevinc verərkən, sırf əqlin hüdudları içərisində qalmaq, ehtirası və xudbinliyi artırır, qəlbi də zəiflədib qəflətə düçar edir.

Necə ki, barmaq izi bir növ şəxsiyyəti təsdiq edən sənəddirsə, bir möminin təfəkkür və təhəssüsündəki vəsf də onun mənəvi şəxsiyyətini təsdiq

edən sənəd kimidir. Bu mənada, bəşəri heysiyyətə layiq bir səviyyədə və yaradılış məqsədinə uyğun şəkildə yaşayıb ruhən dərinlik qazanmaq istəyən hər bir mömin Qurani-Kərimin göstərdiyi təfəkkür iqliminə girməlidir. Çünki ibadətlərdə xüşu, qəlbdə həssaslıq, bəşəri münasibətlərdə nəzakət ancaq belə bir təfəkkür ilə əldə edilir.

Dinimizin təfəkkür və təhəssüsə verdiyi əhəmiyyətə rəğmən dünyəvi məşğuliyyətlərə üstünlük verməkdən irəli gələn qəfləti səbəb ilə insan ümumiyyətlə səviyəli və ciddi bir təfəkkür və təhəssüsdən uzaq yaşayar. Bunun nəticəsi olaraq ölümü və bu cahanın imtahan diyarı olduğu həqiqətini unudur.

Təqva üzrə yaşayıb vəsfli bir təfəkkür və təhəssüsə qadir ola bilən möminlər isə (ancaq bunlar daim azlıq təşkil edir) nəfslərini aşar və öz insani gerçəklərini zəiflik və qabiliyyətləri ilə birlikdə dərk edə biləcək kamilliyə çatırlar.

Belə möminlər içində yaşadıqları zahiri həyata rəğmən eyni zamanda özlərinə mənəvi iqlim qazandırmağın əbədi canlılığına qovuşurlar. Könüllərinin genişləməyi nəticəsində görünə bilən maddi aləmin üfüqlərini aşan yüksək bir qavrama qabiliyyətinə nail olarlar. Belə ki, kamil imana da ancaq bu surətlə nail oluna bilən ilahi bir nemətdir.

Məhz bu vəsfə nail ola bilən həqiqi bir mömin üçün fani həyat artıq bel bağlanacaq bir nemət olaraq görülməz. Belə bir möminin gözündə dün-

ya günləri üzərində metrəsi bildirilən yazı olmayan bir yumaqdan hər an sona çatacaq bir yumağın açılmasına oxşayır.

Bununla yanaşı, ömür sərmayəsinin böyük bir əhəmiyyəti vardır. Çünki o, əbədi həyatı qazanmağın yeganə sərmayəsidir. Bu düşüncəyə sahib olan hər bir mömin ayeyi-kərimədə buyurulan: **"əmr edildiyi kimi, düz"**[7] olmadığı təqdirdə aqibətinin çox həzin bir peşmanlıq olacağını bilir. Bu peşmanlığa düçar olmamaq üçün Allah-Təalanın xüsusilə bu xəbərdarlığını hər an nəzərə almaqdan qafil qalmaz:

**"Birinizin ölümü çatıb: "Ey Rəbbim! Mənə bir az möhlət versəydin, sədəqə verib salehlərdən olardım! - deməmişdən əvvəl sizə verdiyim ruzidən** (Allah yolunda) **xərcləyin. Və** (bilin ki) **Allah əcəli çatan heç kəsə möhlət verməz. Allah sizin nə etdiklərinizdən xəbərdardır!"** (əl-Munafiqun, 10-11)

Xülasə, Allah-Təala bir möminin ilahi əzəməti, bu böyük nizamın sirr və hikmətlərini həqiqi mahiyyəti ilə dərk etməsini istəyir. Bunun nəticəsində də sahib olduğu heç bir fani nemətə güvənməyib təqva üzrə yaşamağını və cənnətə layiq olan gözəl bir bəndə olmağını arzu edir.

Məhz biz də bu kiçik əsərimizdə Peyğəmbərimizin əsas sünneyi-səniyyələrindən biri olan **"təfəkkür və təhəssüs"**ün əhəmiyyəti, faydaları və

7. Bax: Hud, 112

necə həyata keçirilməsi xüsusu üzərində dayanmağa çalışmışıq.

Bu vəsilə ilə bu kitabçanın hazırlanmasında zəhmət çəkən hər bir insana təşəkkür edir, əməklərinin onlar üçün sədəqeyi-cariyə olmasını Rəbbimizdən niyaz edirəm.

**Rəbbimiz bütün hiss və fikirlərimizi rizası ilə təlif etsin! Bizi mərifətullah və məhəbbətullah zirvələrinə qovuşduraraq fani ömrümüzü bu vəsflə başa vura bilməyə hər birimizi müvəffəq buyursun!**

**Amin!**

Osman Nuri TOPBAŞ

## Əqlin Hüdudu

İslam **əqlə** böyük bir dəyər verir. Elə ki, onu məsuliyyətin iki təməl şərtindən biri sayır.[8] Hər vəsilə ilə əqli layiqincə istifadə etməyi təlqin edir. Bununla birlikdə, onun həqiqətləri qavrama qabiliyyətinin sərhədsiz olmadığını da bəyan edir. Belə ki, Allah-Təala yaratdığı heç bir məxluqata hüdudsuz bir qüdrət lütf etməmişdir.

Gözün görmə qabiliyyəti, qulağın eşitmə gücü məhdud olduğu kimi əqlin dərk etmə taqəti də məhduddur. Necə ki, gözün görmə sərhəddinin arxasında olduğu görünməyən saysız varlıq mövcuddursa, qulağın eşitmə səviyyəsinin xaricində qaldığı saysız səs varsa, əqlində idrak səviyyəsinin xaricində olduğu üçün dərk edilə bil-

8. Allah dərgahında məsul sayılmağın şərtlərindən biri həddi-büluğ çağına çatmaqdır, Digəri isə aqil olmaq, yəni xətanı, savabı ayırd edə biləcək səviyyədə əqli vərdişlərin inkişaf etməsidir. Bu prinsipə görə uşaqlar və məcnunlar İslam nəzərində əməllərdən məsul deyildir.

məyən hələ neçə-neçə həqiqətlər var. Yəni ağıl həqiqəti bütünlükdə qavramaqda yalnız başına kifayət etmir.

Belə ki, həqiqətə çatma xüsusunda əqli hüdudsuz bir qüdrətə sahib olaraq qəbul edən rasionalist filosoflar təsir edə biləcəkləri insanları səadət yerinə, ancaq səfalətə sürükləmişdirlər.[9]

---

9. Qədim Yunanıstanda əqlin zəifliyini göstərən bariz bir hadisə yaşanmışdır. Bir nəfər gənc, hüquq təhsili almaq üçün bir filosofa müraciət edir. Bunun üçün qərarlaşdırılan pulun yarısı nəğd olaraq ödənəcək, digər yarısı isə tələbə ilk aldığı prosesi udduğu təqdirdə ödənəcəkdir. Bunun mənası budur ki, tələbə ilk iddianı udduğu təqdirdə hüququ mükəmməl öyrənmiş və müəllim pulun yerdə qalanını almağa layiq olmuşdur. Lakin təhsil bitdikdən sonra tələbə müəlliminə verdiyi pulun bir hissəsini yetərli sayıb pulun yerdə qalan hissəsindən vaz keçməsini tələb edər. Bu tələb nəticəsində ilk iddia müəllim ilə tələbə arasında olur.
Məhkəmədə tələbə, hakimlər heyətinə qarşı:
- Mən bu iddianı udsam da, uduzsam da bu pulu verməyəcəyəm, - deyir. Hakimin:
- Nə üçün? - sualı qarşısında tələbə bu izahatı verir:
- İddianı udsam sizin qərarınıza görə; yox, əgər uduzsam ilk iddianı uduzduğum üçün iddiaçıyla aramızdakı müqaviləyə görə bu pulu verməməliyəm.
Bunun müqabilində müəllim olan filosof da eyni şəkildə:
- Mən bu iddianı uduzsam da, udsam da bu pulu alacağam, - deyir. Hakimin:
- Nə üçün? - sualına bu cavabı verir:
- Udsam sizin qərarınıza görə; uduzsam iddiaçıyla aramızdakı müqaviləyə görə pulu almalıyam. Çünki mən uduzduğum təqdirdə həmin iddianı qazanmış olacaq və pulun qalan hissəsi üçün lazım olan şərt reallaşmayacaq və borc yaranmış olacaqdır.
Göründüyü kimi hər ikisinin də iddiası son dərəcə ağıllı və məntiqlidir. Deməli, ağıl və məntiq bu misalda olduğu kimi çox zaman öz hördüyü divarların içində özünü həbs edib çıxılmaz vəziyyətə düşə bilər. Bunun kimi neçə-neçə bəşəri ixtilafı belə

Yaratdığı bəndələrinin xüsusiyyətlərini heç şübhəsiz ki, onlardan daha yaxşı bilən Allah-Təala ağlın həqiqətə çatmaqdakı bu zəiflik və kifayətsizliyinin qarşısını almaq üçün bəşər tarixi boyunca - rəvayətə görə - 124 mindən artıq peyğəmbər göndərmiş, vəhy etdiyi səhifələr və kitablarla da bəşəriyyəti həqiqətə çatırmaq üçün ən gözəl şəkildə yardım etmişdir.

Bu mənada, əqlin vəhy ilə tərbiyə edilməsi şərtdir. Çünki o, ilahi bəyanların rəhbərliyi altında tərbiyə edilmədiyi təqdirdə sanki azğın bir at kimidir ki, onunla hədəfə çatmaq mümkün olmadığı kimi, uçurumdan yuvarlanıb həlaka düçar olmaq da qaçınılmazdır. Ona görə də necə ki, vəhşi bir atın enerjisindən ən gözəl şəkildə istifadə etmək üçün ona noxta vurub tərbiyə etmək zəruridir, əqlin də **vəhy**in və onun şərh və izahı mahiyyətində olan **sünnə**nin mənəvi tərbiyəsi altına alınararaq "əqli-səlim / sağlam ağıl" halına gətirmək zəruridir. Belə olmadığı təqdirdə o, bir silah kimi istifadə edilər, yəni xeyirə də vasitə ola bilər, şərə də...

## Qəlbin Vəzifəsi

İslama görə **iman** qəlb ilə təsdiq, dil ilə söyləməklə olur. Yəni imanın əsl təcəlli məkanı ağıl

---

həll etməkdə acizliyə düşüb kilidlənən əqlin sonsuz ilahi həqiqətləri bütün yönləri ilə qavraya bilməsi də qeyri-mümkündür. Bu səbəblə əqlin çıxılmazlıqlardan xials olması, onun vəhylə tərbiyə edilməsinə və hüdudunu aşan həqiqətlərə qarşı qəlbən təslim olmağın əhəmiyyətini qavramağına bağlıdır.

deyil, hissin mərkəzi olan qəlbdir. Bu xüsus çox mühümdür. Çünki iman ülvi bir hissdir, uca bir duyğudur. Əql isə iman hissinə çatmaqda başlanğıcdakı müəyyən mərhələləri aşmaq üçün lazım olan vasitələrdən ibarətdir.

Ağılla qəbul, zehnlə təsdiq edilən ilahi həqiqətlər qəlbən də təsdiq edilməzsə, həqiqi bir iman meydana gəlməz. İman qəlbə yerləşmədikcə də əmələ çevrilməz, davranışlara istiqamət verə bilməz. Bunun isə Haqq dərgahında heç bir qiyməti olmaz. Belə ki, Allah-Təala ilahi həqiqətləri oxuyub bildikləri halda qəlbən həzm etmədikləri üçün onunla əməl etməyən Bəni İsrail alimlərinin halını, belində cildlərlə kitab daşıyan ulağa bənzədir.[10]

Ona görə də ilahi həqiqətləri bilmək, onları sırf zehnə yığmaq deyil. Bilmək, təfəkkür və təhəssüs nəticəsində həyat və kainatdakı böyük nizamın müəmmasını çözərək bundan irəli gələnlərlə əməl etməkdir. Bunu yerinə yetirən isə, iman nuru ilə aydınlanmış bir qəlbdir.

Əqlin **insan**, **kainat** və bunlardakı həqiqətlərə bir güzgü yerində olan **Qurani-Kərim** üzərində təfəkkür edərkən əldə edəcəyi nəticə, eynilə torpaqdan çıxarılan xam mədənlər kimidir. Bu mədənləri emal edən isə qəlbdir.

**Qəlb** təhəssüsün, yəni hissiyyatın, duyğuların mərkəzidir. Qəlbin "həds/ilham" kəlmələri ilə də ifadə edilən funksiyası əqlin təqdim etdiyi dəlilləri bir-

10. Bax: əl-Cümə 5.

ləşdirərək, eynilə sınmış bir vazın hissələrini bir-bir quraşdıraraq əvvəlki şəklini ortaya çıxarmaq kimi həqiqətin kamil mənada idrakını təmin edər.

Deməli, haqqa və xeyriə çatmağın mükəmməl bir şəkildə icrası əqlin vəhy ilə tərbiyə edilməsini və ağlın bitdiyi nöqtədə iman kamilliyinə sahib bir qəlbin hərəkətə keçərək onun əskikliyini təslimiyyətlə tamamlamasını labüd edir.

Təfəkkürün qiyməti də onun təhəssüslə dəstəklənməyinə, yəni beyin və qəlb funksiyalarının ahəngli bir tarazlıq içində işləyə bilməyinə bağlıdır. Təkcə beyinə və əqlə güc verilərsə, insan bəlkə yaxşı bir dünya adamı, yəni mənfəət insanı ola bilər. Lakin kamil bir mömin ola bilmək üçün duyğuların mərkəzi olan qəlbin də mənəvi tərbiyə ilə tərbiyə edilib əqlə rəhbərlik etməsi lazımdır. Çünki hissiyyat mərkəzi olan qəlb əqlin təfəkkürünə, təfəkkür isə iradəyə istiqamət verir. O isə bu deməkdir ki, iradi fellərin əsas səbəbi qəlbdir, orada yerləşib kök atan hisslərdir. Bu baxımdan qəlbin də ilahi əmrlər çərçivəsinə oturdulması digər üzvlərdən daha əhəmiyyətlidir.

Çünki nəfsani arzular zəminində qürur, təkəbbür kimi qəlbi xəstəliklərin narahatlığı altında və pak bir qəlbin irşadlarından məhrum haldakı əqlin təfəkkürü əsl məcrasından çıxar, insanı şeytan kimi azğınlığa sövq edər.

**Mövlana həzrətləri** buyurur ki:

"Şeytanın əqli qədər eşqi də olsaydı, bugünkü İblis vəziyyətinə düşməzdi."

Deməli, əql tək başına bir dəyər ifadə etməz. Əqlin sükanını ələ götürüb ona ən doğru istiqaməti verə bilmək üçün qəlbdəki hissləri mənən kamilləşdirmək lazımdır.

Xülasə, həqiqi bir təfəkkür vəhylə feyzlənmiş bir əql və mənən kamilləşmiş bir könlün birləşdiyi nöqtədə başlayar. Biz də bu kitabda **"təfəkkür"** kəlməsini işlədərkən onun ilahi həqiqətlərlə tərbiyə, qəlbi hisslərlə dəstəklənmiş olan məqbul şəklini nəzrdə tuturuq.

**Təfəkkür** (اَلتَّفَكُّر), kəlmə mənası baxımından "ibrət alaraq bir şey üzərində fikri cəmləmək və dərinləşmək" deməkdir.

**Təəmmül** (اَلتَّأَمُّل), (xəyal qurma) -dayanıb düşünmək, təfəkkürü davam etdirmək və yaxşı-yaxşı araşdırmaq mənasına gəlir. Öyüd və ibrət almaq və həqiqətə çatmaq üçün kainat və hadisələr üzərində həssaslıqla düşünməyi ifadə edir.

**Tədəbbür** (اَلتَّدَبُّر), bir işin nəticələrini və aqibətini düşünməkdir.

Biz bu gün bütün bu mənaları yalnız "təfəkkür etmək" və ya "düşünmək" kəlmələri ilə ifadə edirik. Şübhəsiz ki, bu hal əziz millətimizi İslam mədəniyyətindən təcrid etmək üçün dilimizdə yaşanan

dəhşətli təhrif xəyanətinin acı bir nəticəsidir. Çünki insan kəlmələrlə düşünür. Məfhumları və onların ifadə vasitələri olan kəlmələri azaldıb yarım-yamalaq bir dil ilə dərin İslami təfəkkürün üfüqlərinə açılmaq mümkün deyil. Bu baxımdan Quran mədəniyyətindən gələn kəlmələrimizə sahib çıxıb onları işlədərək yaşatmaq və onların yerinə yerləşdirilmək istənilən uydurma dilə əsla etibar etməmək lazımdır.

## Təfəkkürün Əhəmiyyəti

Allahın kitabında və Peyğəmbərimizin hədisi-şəriflərində incələmə, araşdırma, təfəkkür etmə və ibrət alma xüsusunda bir çox əmr, təlqin və təşviq var. Bu xüsusla əlaqəli olaraq Qurani-Kərimdə olan yüzlərlə ayeyi-kərimədən ikisində belə buyurulur:

**"Məgər onlar öz-özlüklərində Allahın göyləri, yeri və onların arasındakıları ancaq haqq-ədalətlə və müəyyən bir müddət üçün yaratdığını düşünmürlərmi? Həqiqətən, insanların çoxu Rəbbi ilə qarşılaşacağını** (qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracağını) **inkar edir."** (ər-Rum, 8)

**"**(Ya Peyğəmbər!) **de: Mən sizə ancaq bir öyüd verəcəyəm. Allah xatirinə** (məni dinlədikdən sonra məclisimdən) **iki-iki, bir-bir durun** (durub gedin)**, sonra da bir dərindən düşünün..."** (Səbə, 46)

Burada insanların Allaha cəm halda və ya tək-tək qulluq etmələri və həqiqət üzərində yaxşı-yaxşı düşünmələri tövsiyə edilir.[11] Təkcə bu bir tək öyüdə qulaq asaraq əməl etmələri halında nicat tapacaqları vəd edilir.

## Rəsulullah ﷺ Daim Təfəkkür Halında İdi

Rəsulullah ﷺ sükutu və təfəkkürü çox sevirdi. Nübüvvətinə (peyğəmbərlik vəzifəsi verilənə) yaxın zamanlarda xəlvət və tənhalığa çəkilməyi daha çox arzu etmişdi. Məkkeyi-Mükərrəməyə təxminən 5 km uzaqlıqdakı Hira mağarasına gedərək orada günlərlə qalırdı. Onun bu tənha vaxtlardakı ibadəti təfəkkür etmək, atası İbrahim عليه السلام kimi göylərin və yerin səltənətindən ibrət almaq və Kəbəni seyr etmək idi.[12] Allah-Təala bu şəkildə Peyğəmbərimizi müqəddəs vəzifəyə hazırlayırdı.

Həmin günlərdə kainat və onun Xaliqi haqqında təfəkkür edən Rəsulullah ﷺ sonrakı həyatında da daim təfəkkür halında idi.

**Hind bin Əbi Halə** (r.anhə) belə deyir:

---

11. Cəmiyyətin və ya əksəriyyətin düşüncəsi, ümumiyyətlə fərdlərin fikri üzərində təsirli olur. Bu təsirdən xilas olub həqiqəti tapmağın yolu isə əhlinin irşadına müraciət etmək və qəlbi ilə baş-başa qalaraq təfəkkür iqliminə girə bilməkdir. Bu ayeyi-kəriməyə görə ortaq zəkanın ortaya qoyduğu hökmlər hər zaman doğru və ya doğruya yaxın olmaya bilər. Dolayısı ilə, hər fərd öz azad fikrini dilə gətirməli, bu ümumi qərarları doğru-dürüst tənqid edərək müstəqil düşüncəyə sahib olmalıdır.
12. Ayni, Umdətul-Qari, Beyrut, I, 61; XXIV, 128.

“Peyğəmbərimiz daim hüznlü və düşüncəli idi. Onun üçün rahatlıq yox idi. Heç zaman lüzumsuz yerə danışmazdı. Sükutu, danışığından daha uzun sürərdi. Sözə başlayarkən də, sözü bitirərkən də hər zaman Allahın adını zikr edərdi...” (İbn Sad, I, 422-423)

Belə ki, **Allah Rəsulu** ﷺ ümmətini təfəkkürə sövq etmək üçün belə buyurmuşdur:

*“Rəbbim mənə sükutumun təfəkkür olmasını əmr etdi.”* (İbrahim Canan, Hədis Ensiklopediyası, XVI, 252/5838)

*“Təfəkkür kimi ibadət yoxdur.”* (Beyhəqi, Şuab, IV, 157; Ali əl-Müttəqi, XVI, 121)

*“Dünyada qonaq kimi olun! Məscidləri ev qəbul edin! Qəlblərinizi riqqətə alışdırın! Çox təfəkkür edin və çox ağlayın! Nəfsani arzularınız sizi dəyişdirməsin!..”* (Əbu Nuaym, I, 358)

Həmçinin Allah Rəsulu ﷺ **Həzrət İbrahim**ə endirilən on səhifədən bunları nəql edirdi:

*“Ağıl sahibinin müəyyən saatları olmalıdır: Vaxtının bir qismini Rəbbinə dua və niyaza, bir qismini Uca Allahın sənət və qüdrətini təfəkkürə, bir qismini keçmişdə etdiklərini düşünməyə və gələcəkdə edəcəklərini planlaşdırmağa, bir qismini də halal yoldan məişət ehtiyaclarını təmin etməyə ayırmalıdır.”* (Əbu Nuaym, Xilyə, I, 167; İbn Əsir, əl-Kamil, I, 124)

**Loğman** ﷺ təkbaşına tənha bir yerdə oturub təfəkkür etməyi çox sevər və bunu tez-tez təkrar edərdi. Ondan soruşduqda ki:

"- Sən ümumiyyətlə yalnız oturursan. İnsanlarla oturub söhbət etsən daha yaxşı olmazmı?" o, bu cavabı vermişdi:

"- Uzun müddət yalnız qalmaq təfəkkürə daha uyğundur. Uzun müddət təfəkkür etmək isə insanı cənnətin yoluna sövq edən bir bələdçidir."[13]

**Əbud-Dərda** رضي الله عنه:

"Bir saat təfəkkür qırx gecə nafilə ibadətdən ustündür." -buyururdu. (Deyləmi, II, 70-71, N: 2397, 2400)

Təbiin alimlərindən **Said bin Müseyyib** həzrətlərindən soşuşmuşlar:

"- Hansı ibadət daha fəzilətlidir?" Belə cavab vermiş:

"- Allahın məxluqatı haqqında təfəkkür və dini xüsusunda təfəkkür/incə anlayış sahibi olmaq."

**Bişri Hafi** həzrətləri də təfəkkürün əhəmiyyətini belə ifadə edirdi:

"İnsanlar Allah-Təalanın əzəməti haqqında layiqi ilə təfəkkür etsələr Ona qarşı üsyan edə

13. İmam Qəzali, *Ehyau Ulumi-d-Din*, Beyrut 1990, Darul-Xeyir, VI, 45. Tarsusda tarixi bir camedə Həzrət Loğmanın (ə.s) etikafa çəkilib təfəkkür etdiyi yer bu gün hələ də məkan olaraq ziyarət edilir.

bilməz, günah edə bilməzdilər.” (İbn Kəsir, I, 448, Ali-İmran, 190)

Daha əvvəl də ifadə etdiyimiz kimi insanı Allahın əzəmətini idrak etməyə aparan təfəkkür ağıl ilə olan bir fəaliyyətdir. Bu fəaliyyəti kamil bir nəticəyə çatdıran isə qəlbdir. Qəlbimiz ən şərəfli üzvümüz olduğuna görə təbii ki, onun əməli də digər üzvlərin əməllərindən fəzilətli olacaqdır. Çünki qəlb ilahi nəzərgahdır.

Bu çox aşkar bir həqiqətdir ki, vəhylə tərbiyə edilmiş əqlin təfəkkürü qəlbi aydınladan nurların ilk sərmayəsi, bəsirət və irfana çatdıran yolun yeganə vasitəsidir. Həmçinin belə bir təfəkkür elmə, zöhdə, masivanı (Allahdan başqa hər şey) tərk etməyə və ilahi məhəbbətə vəsilədir.

Ən faydalı təfəkkür, ilahi qüdrət, əzəmət və hökmranlığı təfəkkür etməkdir. Bu sayədə insan dünya həyatını islah etməyi, axirətinə zərər verəcək şeyləri tərk etməyi və bunların həlli yollarını düşünür.

İnsan Allahın nemətlərini, ehsanlarını, əmr və qadağanlarını, adlarını və sifətlərini təfəkkür etdikdə qəlbində məhəbbət və mərifət fidanları cücərir və mənən səviyyə qazanmağa başlayır. Axirəti, onun şərəfini, əbədi oluşunu, dünyanın bir imtahan aləmi olduğunu və faniliyini düşündükdə axirətə rəğbəti artar və dünyaya lazımi qədər dəyər verməyə başlayar. Dünya həyatının ana rəhmi ilə qəbir arasında bir kros qaçışı olduğunu dərk

edər. Ömrün, axirət səadətini qazanmağa səbəb olacaq qiymətli bir sərmayə olduğunu qavrayaraq onu daha bərəkətli ətmək xüsusundakı ciddiyyət və səylərini artırar. Vaxtlarını qənimət bilər, onları xeyirli və saleh əməllərlə ən gözəl şəkildə dəyərləndirməyə çalışar.

**Əbul-Həsən Hərəqani** həzrətləri necə də gözəl deyir:

"Möminin üzvlərindən (ən az) birinin daim Uca Allah ilə məşğul olması lazımdır. Bir mömin Allah-Təalanı ya qəlbi ilə xatırlamalı, ya dili ilə zikr etməli, ya gözü ilə Onun görmək istədiyi bir şeyi görməli, ya əliylə comərdlik etməli, ya ayağı ilə insanları ziyarət etməli, ya başı ilə (ağlı ilə) möminlərə xidmət etməli, ya qəti bir inancla dua etməli, **ya əqlin ilə təfəkkür edərək mərifətə çatmağa çalışmalı,** ya ixlaslı bir iş görməli, ya da qiyamətin çətinliyindən insanları xəbərdar etməlidir.

Belə bir insanın qəbirdən başını qaldıran kimi kəfənini sürüyə-sürüyə cənnətə gedəcəyinə mən zəmanət verirəm!"[14]

14. Əbul-Həsən Hərəqani, *Seyr ü Sülük Risaləsi*, hazırlayan: Sadık Yalsızuçanlar, s. 107, Sufi Kitab, İstanbul, 2006.



## KAİNATDA TƏFƏKKÜR

Necə qəribədir ki, insan son dərəcə təmtəraqlı və dəbdəbəli bir saray görsə, ona heyran qalır. Onu unuda bilmir, həyatı boyunca onun gözəlliyindən bəhs edir. Ancaq ilahi bir sənət xariqəsi olan bu möhtəşəm kainatı daim gördüyü halda onun incəliklərini layiq olduğu şəkildə düşünməz və ondan kifayət qədər bəhs etməz. Normal bir şey imiş kimi üzərində dayanmayıb keçib gedər. Eynilə üzərindən axıb gedən yaz yağışlarından heç bir nəsibi olmayan qayalıqlar kimi... Halbuki, heyran olduğu o fani saray bu əzəmətli kainatın ən kiçik cisimlərindən biri olan Dünyanın çox kiçik bir zərrəsidir...

## KAİNATDA TƏFƏKKÜR

Bu aləmdə zərrədən kürəyə qədər nə varsa hər biri ilahi sənət xariqəsidir. Hər tərəfdə insan idrakına təqdim edilən saysız hikmət təcəlliləri ilə kainat, sanki ilahi qüdrət naxışlarının bir sərgi salonu kimidir.

Kainat - yaradılışı, nizamı və ahəngi ilə düşünən insanlar üçün mühüm bir ibrət vəsiləsidir. Bunu ifadə edən bir çox ayeyi-kərimə var. Allah-Təala belə buyurur:

**"Məgər onlar başlarının üstündəki göyə baxıb onu necə yaratdığımızı, necə bəzədiyimizi və orada heç bir yarıq olmadığını görmürlərmi?! Eləcə də yeri necə döşədiyimizi** (hamarlayıb düzəltdiyimizi)**, orada möhkəm duran dağlar yaratdığımızı, hər cür gözəl növdən** (meyvə) **yetişdirdiyimizi görmürlərmi?!** (Bütün bunlar Rəbbinə tərəf) **dönən hər bir bəndə üçün ibrət dərsi və öyüd-nəsihət olsun deyə etdik."** (Qaf, 6-8)

**"**(Ya Peyğəmbər!) **Məgər Allahın göydən yağış yağdırdığını, onu yer üzündəki bulaqlara axıtdığını, sonra onunla növbənöv əkin yetiş-**

**dirdiyini görmürsənmi?! Sonra o** (əkin) **quruyar, sən onu saralmış görərsən. Sonra da** (Allah) **onu çör-çöpə döndərər. Həqiqətən, bunda ağıl sahibləri üçün ibrətlər vardır!”** (əz-Zumər, 21)

Torpağın üstündə qalan su insanlara xidmət edər. Onların qidalanmağında, təmizliyində və müxtəlif ehtiyaclarının təmin edilməsində istifadə edilər. Ona görə də bir müddət sonra kirlənər. Lakin Allah-Təala onu möhtəşəm bir nizam ilə təmizləyib təkrar bəndələrinə ikram edər.

**Mövlana** həzrətləri suyun dəyişmə macərasını təfəkkür etməyimizi istəyərək belə buyurur:

“Saflığı-paklığı qalmadıqda, yəni bulandıqda su da bizim kimi yer üzündə kirləndiyi üçün narahat olur, çaşıb qalır... Öz-özünə fəryad etməyə və Haqqa yalmarmağa başlayır. Bu fəryadlar və yalvarışlar qarşısında Allah-Təala onu buxarlaşdırıb göylərə qaldırır. Orada cürbəcür yollardan keçirərək tərtəmiz edir. Sonra da bəzən yağış, bəzən qar, bəzən də dolu halında yer üzünə yağdırır. Nəhayət onu əngin bir dənizə qovuşdurur.”

Hər mövsüm şahid olduğumuz bu təbii hadisəni nəql edən Həzrət Mövlana insana eyham yolu ilə:

“Suların göydə təmizləndiyi kimi sən də Allah-Təalaya yaxınlaşaraq qəlbini bütün kirlərdən təmizlə! Beləliklə, sən də yağış kimi ol, bərəkət və rəhmət saç!” - deyə təlqin edir.

Digər tərəfdən, kainatın yaradıldığı andan etibarən davam edib gedən ahəngli seyri, heç axsamayan nizamı və iç-içə sonsuz hikmət və sirri hər şeyin tək və sonsuz bir qüdrətin əsəri olduğunu dərk etməyə kifayətdir.

## GÖYLƏRİ TƏFƏKKÜR

Allah-Təalanın qüdrət və əzəmətinin dəlillərindən biri göylərdə, yerdə və ulduzlarda nümayiş etdirilən ilahi sənətdir. Göylərdəki xariqüladəlikləri təfəkkür etməmək insan idrakının əzəmətli bir hikmət sərgisindən məhrum qalmağına səbəb olar.

Yer üzü göylərə nisbətlə dənizdə bir damla kimi, hətta bundan daha kiçikdir. Quranın demək olar ki, elə bir surəsi yoxdur ki, müxtəlif ayələrində göylərin əzəmətindən bəhs edilməsin! Göylər üzərinə içilən neçə-neçə andlar var. Allah-Təala belə buyurur:

**“And olsun bürclər sahibi olan göyə.”** (əl-Buruc, 1)

**“Ulduzların** (bürclərdəki) **mənzillərinə** (yaxud doğub-batdığı yerlərə) **and olsun ki, kaş bunun nə qədər böyük bir and olduğunu biləydiniz.”** (əl-Vaqiə, 75-76)[15]

Kainatın genişliyi, içindəki cisimlərin hərəkətləri, aralarındakı məsafələr insan gücünü və hətta

15. Bundan başqa bax: əz-Zariyat, 7; ən-Nəcm, 1; ət-Təkvir, 15; ət-Tariq, 1; əş-Şəms, 1-2, 5.

xəyalını aşacaq dərəcədə böyük rəqəmlərlə ifadə edilir. Hətta elm xadimələr:

**"Kainat bizim xəyal edə bildiyimizdən daha çox ürpərdici, dəhşətverici və çox böyükdür. Çünki kainatdakı cisimlər fəzada qorxunc bir sürətlə bir-birindən uzaqlaşır."** demək məcburiyyətində qalmışlar.[16]

Astronomiya alimlərinə görə kainatın müasir texniki vasitələrlə müşahidə edilə biləcək əhatə radiusu 14 trilyon işıq ili olaraq təxmin edilir. İşığın sürəti təxminən saniyədə 300000 km-dir.

## *Qalaktikalar*

Səmada müasir teleskoplarla görünə bilən bir neçə yüz milyard qalaktika var. Qalaktika on milyon ilə bir milyard arasındakı ulduz və bu ulduzların xam maddələri ilə artıq qalanlarını özündə saxlayan böyük ulduz qruplaşmasıdır.[17] Günəş sisteminin yerləşdiyi Samanyolu Qalaktikası bunlardan yalnız biridir.

Yüzlərlə, ya da minlərlə qalaktikanın bir yerdə olduğu topuluqlara **Qalaktika Qruplaşmaları** deyilir. Qalaktika qruplaşmalarının meydana gətirdiyi

16. Yusif əl-Hac, *Mevsuatul-İcazil-Elmi*, s. 413.
17. http:// www.biltek.tubitak.gov.tr, Evren / Evrenin Yaratılışları / Gokadalar, (Erişim, 06.12.2005)

topluluqlara da **Nəhəg Qalaktika Qruplaşmaları** deyilir.[18]

Günəş sisteminin yerləşdiyi Samanyolu Qalaktikası və yaxınlığımızdakı təxminən 30 qalaktika, kainat miqyasında kiçik bir qruplaşma olan **Yerli Qalaktika Qruplaşmasını** meydana gətirir. Yaxın qalaktika qruplaşmalarından biri olan və təxminən 65 milyon işıq ili uzaqlıqdakı **Qız Bürcü Qalaktika Qruplaşması** isə təxminən 2000 qalaktikanı əhatə edir. Bir **Super Qalaktika Qruplaşmalarında** isə onlarla qalaktika qrupları var və onların sahəsi isə 100 milyon işıq ilinə bərabərdir.[19]

Kainata əks edən ilahi ehtişamı göstərən digər bir xüsus da **qalaktikaların toqquşmasıdır.** Qalaktika toqquşmaları tez-tez müşahidə edilən hadisələrdəndir. Əgər iki qalaktikanın orbiti kəsişirsə, ya da bir-birlərinə lazımi qədər yaxınlaşa bilmirlərsə, kütlədən doğan cazibələri onları bir-birinə çəkər. Qalaktikalar hər nə qədər milyonlarla ulduzu ehtiva etsələr də, ulduzlar arasında möhtəşəm uzaqlıqlar olduğu üçün toqquşma əsnasında ulduzlar bir-birinə dəymədən keçib gedər. Ancaq qaz və tozdan meydana gələn ulduzlararası maddə toqquşmanın təsiri ilə müəyyən yerlərdə sıxılmağa uğrayır. Bu vəziyyət yeni ulduzların meydana gəlmə prosesini sürətləndirir.

18. http:// www.biltek.tubitak.gov.tr, Evren/ Gokbilim Sözlüğü, (Erişim, 06. 12. 2005)
19. http:// www.biltek.tubitak.gov.tr, Evren / Evrenin Yaratılışıları / Gokadalar / Gokada Kümeleri, (Erişim, 06. 12. 2005)

Buna görə də toqquşan qalaktikalarda yeni ulduzların meydana gəlməsi zamanı partlayışları gözləmək mümkündür. Təxminən 3 milyard il sonra belə bir toqquşmanın Samanyolu ilə Andromeda qalaktikaları arasında baş verəcəyi təxmin edilir.[20]

Belə ki, Samanyolu Qalaktikası ilə qonşusu Andromeda saatda təxminən 500 min kilometr sürətlə bir-birlərinə doğru yaxınlaşırlar. Aralarında 2.2 milyon işıq ili məsafə olan bu iki qalaktika təxminən üç milyard il sonra toqquşacaqlar.[21]

**Samanyolu**nda təxminən 200 milyard ulduz var. Günəş bu ulduzlardan yalnız biridir. Samanyolu Qalaktikası çevrəsi təxminən 100000 işıq ilinə bərabərdir. Qalaktikamız 274 km/saniyə sürətlə dönür və 900000 km sürətlə Veqa Ulduzuna doğru hərəkət edir.

Herkül qalaktika qruplaşması 10000 kiçik qalaktikadan meydana gəlir və dünyamızdan 25000 işıq ili uzaqdadır.

## *Günəş Sistemi*

Samanyolunda yerləşən Günəş sistemi səmada 12 milyard km məsafəni əhatə edir. **Günəş**in yaşı 4,5-5 milyard il olaraq hesab edilir. Günəş

20. http:// www.biltek.tubitak.gov.tr, Evren / Evrenin Yaratılışıları / Gokadalar / Çarpışan Gokadalar, (Erişim, 15. 12. 2005); http:// www.biltek.tubitak.gov.tr/haberler/gokbilim/99-08-4.pdf
21. http:// www.newsandevents.utoronto.ca/bin/000414b.asp; http:// www.biltek.tubitak.gov.tr/haberler/gokbilim/2000-05-3.pdf

sistemi qalaktikanın mərkəzindən 30000 işıq ili uzaqlıqda yerləşir.

Günəşdə hər saniyə 564 milyon ton hidrogen, 560 milyon ton heliuma çevrilir. Aradakı 4 milyon tonluq qaz maddəsi də enerji, yəni işıq halında yayılır. Bu hesabla Günəş hər saniyədə 4 milyon ton, dəqiqədə isə 240 milyon ton maddə itirir. Əgər Günəş 3 milyard ildən bəri bu sürətlə enerji istehsal edirsə, bu müddət ərzində itirdiyi kütlə 400 milyard ton olur ki, bu dəyər yenə də Günəşin indiki kütləsinin 5000-dən bir hissəsini təşkil edir.

Günəş səthindəki istilik 6000 oC-dir. Mərkəzindəki istilik isə təxmini olaraq 20 milyon $^{0}$C-yə çatır. Günəşin istiliyi davamlı artarkən, çevrəsi də böyüyür. Çevrəsi böyüməyə davam edən Günəşin bir müddət sonra partlayaraq ən yaxın planetləri Merkuri, Venera, Dünya və Marsı yox edə biləcəyi də ehtimal edilir.

Günəşin kütləsi 2 x $10^{27}$, tondur. 700000 kilometrlik böyük bir radiusa malikdir. Dünyadan 324.529 dəfə böyükdür.[22]

Ayeyi-kərimədə buyurulur:

---

22. Bax: http://www.physics.metu.edu.tr/ecevit/bilinen_evren_gercekleri.ppt, (Erişim: 21.06.2007); http://www.gokyuzuşorg (Erişim: 21.06.2007); http:// www.ozaltin.8k.com/NN/2.htm. (Erişim: 16.10.2004); Yusif əl-Hac, Mevsuatul-İcazil-Elmi, s. 413-417; Ekrem Ahmed İdris, *el-Felek vet-Tıb Emame Azametil-Kuran,* 19-112; Prof.Dr. Osman Çakmak, Bir Çekirdekti Kainat, s. 66.

**"Səmada bürclər yaradan, orada bir çıraq** (günəş) **və nurlu ay vücuda gətirən** (Allah) **nə qədər** (uca, nə qədər) **uludur!"** (əl-Furqan, 61)

### *Göylər Daim Genişlənir*

Allah-Təala sağlam bir şəkildə bina etdiyi səmanı daimi surətdə genişlətdiyini ifadə edir. Ayeyi-kərimədə belə buyurulur:

**"Biz göyü qüdrətimizlə** (qüdrət əlimizlə) **yaratdıq və Biz onu genişləndirməkdəyik."** (əz-Zariyat, 47)

Alimlər 1929-cu ildə nebulaların[23] bizim qalaktikamızdan uzaqlaşdığını kəşf etdilər. Bundan sonra bu kəşfə əsaslanaraq kainatın daim genişləndiyi nəzəriyyəsini ortaya qoydular.[24] XX əsrin elmdə ən mühüm dönüş nöqtələrindən birini meydana gətirən bu iddiaya görə qalaktikalar uzaqlıqları nisbətində artan sürətlə bir-birindən uzaqlaşırlar.[25]

Alimlər 1950-ci ildə bu qanunu tətbiq edərək qalaktikaların uzaqlaşma sürətini hesabladılar. Bizdən 10 milyon işıq ili uzaqlıqda olan bir qalaktika 250 kilometr / saniyə sürətlə bizdən uzaqlaşarkən,

---

23. **Nebula**: Ulduzlardan başqa fəzada görünən ağ ləkələrdir. İşıqlı və qaz halında çox böyük kütlələrdir. Ağ rəngli buludlara oxşadıqları üçün bu ad verilmişdir.
24. Calal Kırca, *Qurani-Kərimdə Fen Bilimleri*, s. 165; ən-Nəccar, əs-Səma, s. 82-93; Faruk Yılmaz, *Kainatın Yaradılışı*, s. 64-67, 255-258.
25. Şakir Kocabaş, *Kuranda Yaratılış,* İstanbul 2004, s. 19.

10 milyard işıq ili uzaqlıqdakı bir qalaktikanın uzaqlaşma sürəti 250000 km /san-dır.[26]

**Genişliyindən bəhs edilən kainatın olduğu kimi qalmayıb daha da böyüməsi Allahın əzəmətini tam olaraq dərk etməyimizin qeyri-mümkün olduğunu göstərir.**

Şair bunun kimi saysız ilahi əzəmət tabloları qarşısındakı heyranlığını necə də gözəl ifadə edir:

*Böyüksən İlahi, böyüksən böyük!*
*Böyüklük yanında qalır çox kiçik!*

(Ali Haydar Bəy)

Bu möhtəşəm kainatı daim genişlədən Allah-Təala nəhayət onu bir kitab səhifəsi kimi büküb qatlayacaqdır.[27] Həmçinin vaxtı gəldiyi zaman yeri başqa bir yerlə, göyləri də başqa göylərlə əvəz edəcəkdir.[28] Bu isə yeni bir aləmin yaradılmasını və yeni bir həyatın başlamasını ifadə edir.[29]

***Yeddi Qat Səma*** Bir də Allah-Təala ayeyi-kərimələrdə yeddi qat səmadan bəhs edir. Yuxarıda bəhs etdiyimiz birinci qat səma isə, digər qatları insan oğlunun ağıl və idrakı necə qaldıra bilər ki?!

26. Prof. Dr. Osman Çakmak, *Bir Çekirdekti Kainat*, s. 28.
27. əl-Ənbiya, 104.
28. İbrahim, 28.
29. Bax: ən-Nəccar, əs-Səma, s. 82, 105-106, 187-194; http://www.biltek.tubitak.gov.tr, Evren/Evrenin Kaderi/Kapalı Evren.

Allah-Təala belə buyurur:

**“Yeddi göyü** (bir-birinin üstündə) **qat-qat yaradan da Odur.** (Ey insan!) **Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb** (səmaya) **bax, heç orada bir yarıq** (çatdaq, nöqsan) **görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada** (axtardığını tapmayıb) **zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır! And olsun ki, Biz dünya səmasını** (yerə ən yaxın olan göyü) **qəndillərlə** (ulduzlarla) **bəzədik...”** (əl-Mülk, 3-5)

İndi isə başını qaldır və səmaya ibrətlə bax! Bu saysız-hesabsız səma cisimlərinin bir saniyə belə çaşmadan böyük bir nizam içində hərəkətini təfəkkür et! Hər biri də bir çox sirr və hikmət daşıyır.

Yer kürəsi öz ətrafında dönməsəydi, daim bir qismi qaranlıq, bir qismi də aydınlıq olardı. Dolayısı ilə, işləmə vaxtı, istirahət vaxtı bilinməzdi.

Yer kürəsinin öz oxu ətrafındakı dönüşünün 24 saatlıq bir müddət olaraq təqdir edilməyində də böyük hikmətlər var. Əgər bu dönüş müddəti daha uzun olsaydı, Dünya gecəsi ilə gündüzü arasındakı temperatur fərqi 1000 dərəcəyə çatan Merkuri kimi olardı. Uzun gündüzlərdə hər yer daha çox isinər, uzun gecələrdə də soyuq daha şiddətli olar və hər yer donardı.

Məhz bu həqiqətlərə baxaraq Allah-Təalanın gecəni gündüzün üstünə necə örtdüyünə, yuxunu istirahət və gündüzü də dolanışıq vasitəsi etdiyinədiq-

qət et! Bunların heç çaşmadan bir-birini təqib etməyindəki ilahi qüdrət və rəhmət təcəllilərini düşün!

Həmçinin yer kürəsi Günəş ətrafında dönməsəydi; 23 dərəcə 27 dəqiqəlik bir meyil ilə əyri durmasaydı; yaz, yay, payız və qış mövsümləri meydana gəlməzdi. əgər dünyaya belə bir meyil verilməsydi, okeanlardan qalxan buxarlar şimal və cənuba axın edər, qitələr bir buz parçası halına gələrdi.

Ay da dünyaya indiki məsafədə olmaq əvəzinə məsələn, təkcə 50000 mil uzaqlıqda olsaydı, yer üzündəki qabarma və çəkilmələr elə müdhiş olardı ki, bütün qitələr gündə iki dəfə su altında qalardı. Dağlar belə qısa bir zamanda aşına-aşına yox olardı.[30]

Ona görə də yalnız həcminin böyüklüyünə, ulduzların çoxluğuna baxmayaraq bu səmaya ilişib qalma! Onun Yaradanına bax ki, bütün bunları necə yaradıb tənzim etmişdir! O nəhəng ulduzları gözlə görünən bir dirək və ya istinad olmadan necə saxlayır?!

Düşün ki, Günəş və ya Ay heç xarab olurmu? Bəşərin təmir yerləri kimi bir təmirə getdiyi olurmu?.. O qədər səmavi varlıqlar özlərinə təyin edilmiş orbitdə üzüb dururkən heç biri ilahi plan və proqramın xaricinə çıxıb bir qəza edirmi?

30. Bax: *İlim-Ahlak-İman*, Hazırlayan: M. Rahmi Balaban, Diyanet Yayınları, Ankara, s. 187.

### *Təfəkkürü Tərk Etmək Böyük Günahdır*

Necə qəribədir ki, insan son dərəcə təmtəraqlı və dəbdəbəli bir saray görsə, ona heyran qalır. Onu unuda bilmir, həyatı boyunca onun gözəlliyindən bəhs edir. Ancaq ilahi bir sənət xariqəsi olan bu möhtəşəm kainatı daim gördüyü halda onun incəliklərini layiq olduğu şəkildə düşünməz və ondan kifayət qədər bəhs etməz. Adi bir şey imiş kimi üzərində dayanmayıb keçib gedər. Eynilə üzərindən axıb gedən yaz yağışlarından heç bir nəsibi olmayan qayalıqlar kimi... Halbuki, heyran olduğu o fani saray bu əzəmətli kainatın ən kiçik cismlərindən biri olan Dünyanın çox kiçik bir zərrəsidir...

Allahın qüdrətini təfəkkür etməkdən qafil olan insanın halı, eynilə qarışqanın bu halına oxşayar:

Bir qarışqa padşahın yüksək divarlı, sağlam bünövrəli, ən gözəl əşyalarla bəzədilmiş, içərisi qulluqçularla dolu olan saraylarının birində yuva qurar. Yuvasından çıxıb yoldaşları ilə rastaşdıqda onlara öz yuvasından, qidasından və onları necə anbara yığdığından başqa bir şey danışmaz. İçində yuva qurduğu sarayın və o sarayı tikdirən padşahın qüvvət, ehtişam və səltənətini düşünməkdən çox uzaqdır. Qarışqa bu saraydan qafil olduğu kimi, orada yaşayanlardan da qafildir.

Qafil insan da Allahın ilahi sənət xariqələrindən, mülkündə yaşayan mələklərindən və xas bəndələrindən xəbərsizdir.

Qarışqanın içində yaşadığı sarayı və ondakı gözəllikləri bilmək imkanı yoxdur. Ancaq insan təfəkkür və təxəyyülü sayəsində neçə-neçə aləmləri gəzə bilər. İlahi sənət xariqələrini dərk edə bilər. Allah-Təalanın insana lütf etdiyi sayıla bilməyəcək qədər sonsuz nemətlərinin qarşısında özünün heçlik və acizliyini qavrayıb şükür səcdələrinə qapıla bilər. Bunu, ancaq “insan” olan edə bilər. Yaxud da, başqa bir ifadə ilə desək, bunu edə bilənlər insanlıq şərəf və ləyaqətini daşıya bilərlər. Çünki insan yaradılış etibarı ilə təfəkkür istedadına sahib olan bir varlıqdır. Təfəkkür istedadını istifadə etmədikcə onu mənəvi paslanmağa məruz qoyarsa, o ilahi əmanətə xəyanət etmiş və bəşərin ən mühüm vəsflərindən birinə vida etmiş olar.

Haqq dostlarından **Mövlana** həzrətləri sonsuz sirr və hikmətlər meydanı olan bu cahanda qatı bir qəlb ilə gəzib dolaşan, varlıqlardakı ilahi mesajları qaraqabaq bir çöhrə ilə seyr edib keçən qafillərin halını aşağıdakı təşbehlə ifadə edir:

“Bir gün (dövrün mədəniyyət mərkəzlərindən olan) Bağdad şəhərinə bir öküz gəldi və şəhəri başdan-başa gəzdi. Lakin o möhtəşəm gözəlliklər, ləzzətlər və sənət xariqələri arasında ancaq və ancaq yol kənarındakı yemiş və qarpız qabıqları onun diqqətini çəkdi. Axı öküz və ulağın seyrinə layiq olan şey ya yollara tökülüb yayılmış samandır, ya da yol kənarlarında bitən otdur!” (Məsnəvi, c. 4, beyt: 2377-2379)

Rəvayət edildiyinə görə Musa عليه السلام zamanında bir nəfər otuz il ibadət etmişdi. Bir bulud kölgəsi ilə onu günəşdən qoruyurdu. Bir gün bulud gəlmədi və həmin abid günün altında qaldı. Anasından bunun səbəbini soruşdu və ondan bu cavabı aldı:

“- Bəlkə bir günah işləmisən?” Abid:

“- Xeyr, günah işləməmişəm!” dedikdə anası:

“- Göylərə, çiçəklərə baxmadınmı? Onları gördükdə Allah-Təalanın əzəmətini təfəkkür etməkdə qəflətə düşmədinmi?” - dedi.

Abid:

“- Bəli, ətrafımdakı xariqüladə gözəllikləri gördüyüm halda təffəkkürdə qüsur etdim.” deyə etiraf etdikdə anası belə dedi:

“- Bundan böyük günah olarmı?”Dərhal tövbə et!- dedi.

Buna dörə, ağlı başında olan bir möminin vacib olan təfəkkürə heç bir zaman laqeyd qalmaması lazımdır.

İnsan Allahın sənətindəki xüriqüladəlikləri nə qədər çox öyrənər və onların üzərində nə qədər çox təfəkkür edərsə, Onun cəlal və əzəməti haqqındakı mərifəti, yəni Haqqa yaxınlığı da həmin ölçüdə artar.

**Həzrət Əli** رضي الله عنه:

“Quranı bilən bir şəxs ulduz elmindən (astronomiyadan) da bəzi şeylər öyrənərsə, bu sayədə

iman və yəqini artar." - demiş, sonra da bu ayeyi-kərimәni oxumuşdur:

**"Gecə ilə gündüzün bir-birinin ardınca gəlməsində, Allahın göylərdə və yerdə yaratdıqlarında Allahdan qorxan bir tayfa üçün** (Onun birliyini və qüdrətini sübut edən) **dəlillər vardır."** (Yunus, 6)

Allah-Təalanın yaratdığı hər məxluq ilahi nizam içində müəyyən xidmət və vəzifələri yerinə yetirir. İnsan oğlu bu qədər saysız məxluqatın sonsuz xidmətlərindən bu günə qədər çox azını dərk edə bilmişdir. Görmədiyi və başa düşə bilmədiyi hikmətlər, dərk edə bildiklərindən qat-qat çoxdur.

Belə ki, səsi biliriksə bu, qulaq kimi qəbuledici bir cihazımız olduğuna görədir. Rəngi biliriksə, bu, göz sayəsindədir. Kim bilir bu qədər sonsuz məxluqlar aləmində hələ neçə ilahi təcəllilər var ki, onları biləcək cihazlara sahib olmadığımız üçün onlar haqqında hər hansı bir məlumatımız da yoxdur.[31]

31. İslam alimlərinə görə kainat "araz və cəvahir"dən ibarətdir. Cəvahir, yəni cövhərlər maddi varlıqlardır. Araz isə bir maddi varlıqla dərk edilə bilən şeylərdir. Məsələn, rəng və ya qoxu bir araz olub, ancaq maddi bir varlıq sayəsində dərk edilə bilirlər. Yuxarıda qeyd edildiyi kimi göz olmasa rəng, burun olmasa qoxu dərk edilə bilməzdi. Axirətdə başqa vəsflərlə yeni bir həyata başlayacağımız üçün dünyada dərk edə bilmədiyimiz başqa araz mahiyyətində olan varlıqları da dərk edə biləcəyimiz düşünüldüyü kimi, bu dünyada belə qəbuledici cihaza sahib olmadığımız üçün bilmədiyimiz başqa arazların ola biləcəyini qəbul etmək də mümkündür.

Məxluqatı və onların xüsusiyyətlərini belə tam olaraq dərk edə bilməyən və ağlı məhdud olan insan bütün kainatı yaradan Allah-Təalanı tam olaraq necə dərk edə bilər? Onun əzəmətini sifətlərinin təcəllisindən bir az dərk edə bilən İslam alimləri heyrət və dəhşət içində ancaq:

**"Onu anlamaq, dərk edilə bilməyəcəyini anlamaqdır."** demişlər.

Çünki yaradılmış varlıqlarda Allahın zati həqiqətindən bir inikas və təcəlli yoxdur. Allah-Təalanın yaratdığı hər şey ilahi sifətlərin təcəlli tərkibləri ilə olmuşdur. Zati təcəlliyə tab gətirə biləcək bir məkanın yaradılmadığını **Həzrət Musa**nın Allahı görə bilmək xüsusundakı təkidli arzusu qarşısında "لَنْ تَرَاينِى / **Məni əsla görə bilməzsən**"[32] xitabı və nəticədə onun özündən getməsi hadisəsi ilə sabitdir. Elə buna görədir ki, insan oğlu Onu zat həqiqəti bir yana, heç sifət həqiqətləri ilə belə kamil mənada dərk etməkdən acizdir.

Mərhum **Nəcib Fazıl** necə də gözəl deyir:

*Atomlarda cümbüş, donanma, şənlik;*
*Və çevrə-çevrə nur, çevrə-çevrə nur.*
*İç-içə memari, iç-içə mənlik;*
*Bildim Səni ey Rəbb,* ***bilinməz məşhur!***

32. əl-Əraf, 143.

## ATMOSFER

Dünyanı bürüyən hava boşluğunda da neçə-neçə sirr və hikmətlər var: Orada görünən buludlar, bəzən xəfif, bəzən şiddətli əsən küləklər, eşidilən gurultular, çaxan şimşəklər, yağan yağışlar, qarlar və s... Hamısı da möhtəşəm bir ölçü və hesab ilə meydana gələn xariqə təcəllilər...

Qurani-Kərim insan oğlunu yer ilə göy arasındakı bu təcəlliləri təfəkkür edib onlardakı ilahi qüdrətə işarə edən dəlilləri görməyə dəvət edir. Ayeyi-kərimədə buyurulur:

**"Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allahın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları onun hər tərəfə yaymasında, göylə yer arasında ram edilmiş küləyin və buludların bir səmtdən başqa səmtə döndərilməsində,** (Allahın hikmət və qüdrətinə dəlalət edən) **əlamətlər vardır."** (əl-Bəqərə, 164)

Dünyamızı şəfqətlə qucaqlayan atmosfer Allah-Təalanın bəndələrinə olan sonsuz mərhəmətini göstərən mükəmməl sistemlərdən biridir. Atmosfer orta hesabla 77 % azot, 21 % oksigen və 1 % nisbətində kabondioksid və arqon kimi digər qazların qarışığından ibarətdir. Atmosferin 21 % -ni təşkil edən oksigenin çox asanlıqla alovlanma

xüsusiyyəti vardır. Bu səbəbdən oksigenin sadəcə 1 % artması yer üzərində ildırım vurması ilə baş verən meşə yanğınlarının artma ehtimalını 70 % yüksəldəcəyi təxmin edilir. Əgər oksigenin atmosferdəki nisbəti 25 % -dən yüksək olarsa, istifadə etdiyimiz bitki mənşəli qidaların böyük əksəriyyətinin yanıb kül olma ehtimalı yaranar.

Digər tərəfdən oksigen ilə karbohidroksid daim istifadə olmasına baxmayaraq havadakı nisbətləri qoruyub saxlayır. Dünyada təkcə insanlar və heyvanlar mövcud olsaydı, təbiətdəki bütün oksigeni istifadə edib karbondioksidə çevirərdilər və bir müddət sonra oksigenin azalmasının əvəzində getdikcə artan karbondioksid ilə zəhərlənib ölərdilər. Ancaq bu aləmi var edən qüdrət bir də nəbatatı (bitkiləri) yaratmış və onlara da karbondioksidi istifadə edib oksigenə çevirmə qabiliyyəti verərək aləmdə möhtəşəm bir tarazlıq və davam edib gedən bir canlılıq meydana gətirmişdir.

Bundan başqa, yer üzü qabığının qalınlığı elə həssas bir ölçü ilə yaradılmışdır ki, bir az daha qalın olsaydı, karbondioksidlə oksigeni əmər və bitkilər yetişməzdi.[33]

Vücudumuzda hər an gedən milyardlarla biokimyəvi proses üçün də oksigenə ehtiyac var. Daimi olaraq ciyərlərimizə havanı çəkər və sonra da eyni havanı geri veririk. Atmosferdəki oksigen nisbətinin tənəffüs üçün ən uyğun sıxlıqda olması tə-

33. Bax: *Elm-Əxlaq-İman*, Hazırlayan: M. Rahmi Balaban, s. 187.

sadüfün bu incə tədbirdə yeri olmadığını göstərir. Vücudumuzu oksigenə möhtac olaraq yaradan Rəbbimiz həmin neməti bizə bol-bol ikram etmişdir. Həm də asanlıqla əldə edə biləcəyimiz bir şəkildə tənəffüs etdiyimiz havanın içinə ən münasib nisbətdə qoyaraq... Bu mənada, alıb verdiyimiz hər nəfəs belə, çox ibrətli və böyük bir ilahi nemətdir.

Ən yüksək texnologiya ilə istehsal edilmiş bir təyyarəyə mindikdə "Əgər yüksəkdə ikən atmosfer təzyiqi düşərsə avtomatik olaraq sizə təqdim ediləcək oksigen maskalarını taxın!" - deyə xəbərdarlıq edilir.

Halbuki heç kim "Əcəba, sabah havadakı oksigen miqdarı yüzdə 21 -dən yüzdə 25 -ə çıxarmı və ya yüzdə 18 -ə düşərmi, özümə bir oksigen balonu alımmı?" -deyə düşünmür. Çünki inanan və inanmayan hər kəs ilahi nizama təbii bir etimad halında həyatını davam etdirə bilir. Əks halda insan qarşı-qarşıya olduğu hər cür həyati risq və təhlükənin fərqində olsaydı, həyat yaşanmaz olardı.

Digər tərəfdən hava, ətrafımızı aydınladan bir güzgü kimidir. İşıq maddəyə toxunmadan aydınlıq verməz. Bir hissəciyə toxunan işıq fişəng kimi saçılaraq enerji və işıq halında ətrafa yayılır. Atmosfer xaricindəki səma boşluğunda molekul və atom növlü zərrələr olmadığı üçün Günəşdən işıq gəlməsinə baxmayaraq, oralar qaranlıqdır.

Məsələn, atmosferdən məhrum olan Ayda Günəşdən gələn işığı dağıdıb ətrafı aydınladacaq bir qaz təbəqəsi yoxdur. Ona görə də Ayın səthində

aydınlıq olduğu halda, bir az yuxarısı daim işıq selinə məruz qalmasına baxmayaraq qaranlıqdır.

Bu qeyri-adi təcəllilər Dünyanın insan yaşayışını mümkün edəcək xüsusi şərtlərə görə və mühüm bir məqsədlə yaradılmış olduğunun çox açıq dəlilləridir. Həmçinin həyatı yaşamağa əlverişli edən bu həssas tarazlıq Allah-Təalanın bəndələrinə çox böyük lütfləri olmaqla yanaşı, həm də Onun varlığının və sonsuz qüdrətinin dəlillərindəndir. Kainatdakı hər varlığın ilahi bir proqram daxilində hərəkət etməsi, hər şeyin planlı, hesablı və nizamlı olması; bunu edən bir tərtibçi, nizamlayıcı və hesablayıcı qüdrətin varlığının qəbulunu zəruri edir.

Bu mənada, ateistlərin iddia etdikləri "Həyat və kainat öz-özünə, təsadüf nəticəsində meydana gəlmişdir." iddiası, çox gülünc bir boşboğazlıqdan ibarətdir.

**İsmail Fənni Ərtoğrul** (1855-1946) bu həqiqəti belə bir misalla izah edir:

"...Bir yerdə hesab və nizam-intizam gördükdə orada mühasib və idarəçi olduğuna dair ağıl qəti olaraq hökm verər...

Fərz edək ki, sizin bir bağınız var. Onun ətrafına sıra ilə bir çox fidan əkmisiniz. Bir gün bağa getdiniz və bu fidanların bəzilərinin çıxarıldığını gördünüz. Bunun səbəbini soruşduqda bağban sizə şiddətli bir fırtına olub bunları kökündən çıxartdığını desə,bu cavabı qəbul edərsiniz? Lakin

başqa bir gün yenə bağa gəlib fidanların sıra ilə, məsələn dördü yerində olduğu halda beşincisinin aşmış, yenə dördü qalıb beşincisi aşmış olduğunu gördünüz. Bunun səbəbini soruşduqda yenə bağban eyni cavabı verdi. Buna inanarsınız? İnanmayacağınız və bunu hər hansı bir şəxsin qəsdən etdiyi şübhəsizdir. Çünki əvvəlki hadisə təsadüfə oxşayırdısa da, bu hadisə əsla oxşamaz. Belə ki, bu dəfə iş bir hesaba görə edilmişdir."[34]

Kainatın isə sonsuz hesablar və həssas tarazlıq içində varlığını davam etdirdiyini ağlı başında və düşünə bilən heç bir insan inkar etməz.

Bu ilahi nizama bir neçə misal:

### *Atmosfer Təzyiqi*

Atmosferi təşkil edən qazların 1 $cm^2$ sahəyə olan təsiri (təzyiqi) təxminən 1 kq-a bərabərdir. Yəni insan vücudu təxminən 15 ton ağırlıq altındadır. Allah-Təala bunu da heyrətverici bir ahənglə tarazlamışdır. Ətrafımızdakı havanın təzyiqi nə qədərdirsə, içimizdən xaricə doğru olan təzyiq də bir o qədərdir. Atmosfer təzyiqinin düşdüyü yüksəkliklərə çıxan insanlarda meydana gələn narahatlıq və burun qanamalarının səbəbi də bu təzyiq fərqidir. Atmosfer xaricinə çıxan kosmanavtlar da, ancaq içində yerdəki kimi hava təzyiqi olan xüsusi paltarlarla kosmik səmada gəzə bilirlər.

34. *İman Həqiqətləri Ətrafında Suallara Cavablar*, s. 21-22, Səbil Nəşriyyatı, İstanbul, 1978.

## *İsti-Soyuq Ahəngi*

Havaya kifayət edəcək miqdarda paylaşdırılan korbondioksid və su buxarı molekulları yüksək enreji cəlb etmə xüsusiyyətləri ilə müdhiş bir ahəng təşkil edirlər. Bu molekullar gündüzlər Günəşdən gələn şüaların bir qismini qəbul edərək gündüz istiliyinin hədsiz yüksəlməyinə mane olur. Qaranlıq düşüb Günəş işığı yox olduqda isə hava molekulları tərəfindən qəbul edilən enerji bitki istixanalarında olduğu kimi mühafizə edilir və soyuq səma boşluğuna buraxılmaz. Məsələn, Ayda belə bir qoruyucu tavan mövcud olmadığı üçün gündüz istidən qovrulurkən, gecə də dondurucu soyuqların təsiri altında qalır.

## *Küləklər*

Atmosfer istilik, təzyiq, nisbi rütubət və içində cərəyan edən hadisələr baxımından fərqli təbəqələrə ayrılmışdır. İlk təbəqədə **Troposfer**dir və yağış, qar, külək kimi hadisələr burada cərəyan edir. Yerdən 16 km yuxarıya qədər uzanan bu təbəqənin istiliyi getdikcə azalır, -56$^{0}$C-yə qədər düşər. Havanın bu qatında mükəmməl dövr etmə sistemi təsis edilmişdir.

Yer kürəsinin orbiti müəyyən qədər əyri olduğu üçün günəş şüaları təkcə ekvator bölgəsinə 90$^{0}$-lik bucaq altında düşməz. Tropik bölgələr də əhəmiyyətli ölçüdə günəş enerjisi ilə qidalanar. Bu bölgələrdə havanın və yer üzünün daha çox isin-

məsi nəticəsində bol miqdarda enerji tədarük edilir. Məhz enerjinin bu şəkildə tədarükü küləklər üçün lazımlı olan qüvvətin yaranmasına səbəb olur.

Dənizlərdən buxarlanan minlərlə ton su havanın yumşaq belinə minər. Külək onları qarşısına qataraq suya möhtac olan torpaqlara aparar. Atmosferi təşkil edən su buxarı və maddələrin daima dövr etməsi nəticəsində yağışlı və quraqlıq bölgələr ilahi təqdir və planının əzəmətini nümayiş etdirərək lazım olduğu ölçüdə suya və rəhmətə qovuşur.

Atmosferin çox mükəmməl bir planla dövr etdirilməsi nəticəsində enerji nəqli yaranır. Alçaq və yüksək təzyiq sistemlərinin atmosferin yuxarı-aşağı istiqamətlərindəki hərəkətləri nəticəsində külək axınlarının köməyi ilə üst qatlardakı soyuq hava kütlələri daha aşağı qatlara enərkən, aşağı qatlardakı isti hava kütlələri də yuxarı qatlara yüksəlir.

Günəşin yer üzünə fərqli intensivlikdə enerji verməsi atmosferdəki hava kütlələrinin də fərqli surətdə isinməsinə səbəb olar və isinən hava aldığı əmrə görə dərhal yuxarı çıxar. Sonra yerinə soyuq hava gələr. Beləliklə yer üzündə isti havanın olduğu yerdə aşağı təzyiq sahəsi, soyuq havanın olduğu yerdə isə yüksək təzyiq sahəsinin mərkəzləri deyilən hərəkətli hava qaynaqları təşəkkül edər. Nəticədə kiçik hava zərrələri külək halında hərəkət etməyə başlayar. Bu sayədə atmosferdəki rütubət, istilik, sıxlıq, enerji və bitkilərin çoxalmasına səbəb olan çiçək tozları lazım olan yerlərə nəql edilər.

Ayeyi-kərimədə belə buyurulur:

“ **Biz** (buludla) **yüklənmiş** (bitkilərə, ağaclara həyat verən, onları tozlandıran) **külək göndərdik, göydən yağmur endirib sizə su verdik** (içirtdik)**. Yoxsa onu yığıb saxlayan** (bir yerə toplayan) **siz deyilsiniz!** (Allah yağış suyunu saxlayıb istədiyi vaxt, istədiyi yerə yağdırar)**.”** (əl-Hicr, 22)

Kainatdakı bütün varlıqlar kimi külək də Allah-Təalanın hökmranlığına mütləq bir itaətlə boyun əyir. Rəbbimiz istədiyi zaman insan oğluna rəhmət vəsiləsi olmaqda, həmçinin Rəbbimiz əmr etdiyində də həlakedici bir qəhr təcəllisinə çevrilir.

Ad qövmünün küləklə necə həlak edildiyini ifadə edən aşağıdakı ayeyi-kərimə bu həqiqətin bariz misalıdır:

**“Biz** (əzabı) **uzun sürən nəhs bir gündə onların üstünə uğultulu** (çox soyuq) **bir külək göndərdik. O, adamları kökündən qopmuş xurma kötükləri kimi** (yerindən) **qopardıb atırdı.”** (əl-Qəmər, 19-20)

### *Havanın Digər Faydaları*

Hava zərif çiyinlərində minlərlə ton suyu daşıdığı kimi, yüzlərlə nəfərlik təyyarələri də daşıyır. İşığı və hərarəti yayar. Yüzlərlə fərqli dalğa uzunluğunda səsi qulağımıza gətirir ki, zəmanəmizin mobil telefonları bunun ən bariz bir misalıdır.

Digər tərəfdən hava cürbəcür qoxuları bir-birinə qarışdırmadan burnumuza gətirir. Atmosfer olmasaydı, yanımızdakı yoldaşımıza səsimizi eşitdirə bilməz, işıq yandırıb ətrafımızı aydınlada bilməzdik. Bundan başqa, hava ciyərlərimizdə və damarlarımızda dolaşaraq həyati bir vəzifə icra edər. Beləliklə təfəkkür əhli olan möminlərə Allah-Təalanın sonsuz əzəmət, qüdrət və mərhəmət təcəllilərini xatırladar.

### *İlahi Təmizləyici Qurğu*

Troposferdən sonra gələn və yerdən 50 km yüksəkliyə qədər uzanan təbəqənin adı **Stratosfer**dir. Yüksək enerjili və təhlükəli şüaların Dünyaya gəlməsinin qarşısını alan bu təbəqədə istilik təkrar yüksəlir. Ozon təbəqəsi də buradadır. Üç atomlu bir oksigen molekulu olan ozon günəş şüalarının zərərlərini süzgəcindən keçirərək təmizləyir.

Günəşdən gələn ultrabənövşəyi şüalar bitkilərin böyümə sürətini azaldır, insanlarda dəri xərçənginə səbəb olur, gözə zərər verir və bəzi yolxucu xəstəliklərə tutulma ehtimalını artırır. Məhz Stratosfer təbəqəsi Günəşdən gələn ultrabənövşəyi şüaları tutub geri əks etdirir və möhtəşəm bir kimyəvi tarazlıq reaksiyası ilə oksigeni ozona çevirir.

Ozon əslində son dərəcə təhlükəli bir qazdır. Bir qramının iki yüzdə birini tənəffüs etmək belə bir insanı öldürə bilir. Allah-Təalanın rəhmət və

hikmətinə baxın ki, O, bu qədər zəhərli bir qaz təbəqəsini insan oğlunu təhdid edən son dərəcə həyati bir zərərin qarşısının alınmasına yönələn süzgəc və iqlim tarazlığının qorunması üçün sanki ilahi bir səbəb etmişdir.

## *Qorunmuş Tavan*

Atmosferin 80 kilometrliyinə qədər uzanan və orta qatı sayılan təbəqə **Mezosfer**dir. Bu təbəqə kiçik səma cismlərinin hücumlarına qarşı qalxan vəzifəsini yerinə yetirir.

Yupiter, Saturun və Ay cazibəsini keçən səma cismləri (meteoritlər) Yer planetinin cazibəsinə məğlub olaraq böyük bir sürətlə atmosferə girər. Ulduz sürüşməsi də dediyimiz bu hadisədə səma cismləri (meteroidlər) hava ilə təmas edincə yanar və Mezosfer içində toz halına gələr. Yer planetinin ətrafında belə bir qoruyucu təbəqə olmasaydı və ya var olandan daha incə olsaydı, milyonlarla müxtəlif ölçülü səma cismləri yer üzünə düşər və Ayda olduğu kimi hər tərəfi dəlik-deşik edər, yandırardı. Halbuki Allah-Təalanın sonsuz mərhəmətinin əsəri olaraq başımıza göydən yağan bu güllələr hələ yerə çatmadan toz halına gətirilir. Sonra da bu toz zərrəciklərinin hər biri bir yağış dənəsinə daşıyıcı olur.

Belə ki, göydəki buludların əmələ gəlməsi üçün həm yer, həm də səma qaynaqlı incə parçacıqlar lazımdır. Bir də bu parçacıqların üst at-

mosferə çatması lazımdır. Məhz buraya daşınan rütubətli küləklərlə hissəciklərin su zərrəcikləri ilə doyması başlayacaq və bulud dənəciyi meydana gələcəkdir. Bulud dənəciyi fiziki və riyazi bir plana görə kiçik yağış damlası halına gələcək və bu kiçik su damlası yerə doğru düşməyə başlayacaqdır.

Atmosferin hələ heç bir xüsusiyyəti kəşf edilmədən əvvəl göylərin və yerin sahibi olan Allah-Təala belə buyurmuşdur:

**"Göyü** (yerdən ötrü və onun üstünə düşməsin deyə) **qorunub saxlanılan bir tavan etdik. Halbuki** (kafirlər) **ayələrimizdən** (vəhdaniyyətimizi, qüdrətimizi sübut edən bu dəlillərdən) **üz döndərdilər."** (əl-Ənbiya, 32)

### *Radio Dalğaları*

500-1000 km yuxarılara qədər təsirli olan təbəqəyə **Mezosfer** adı verilir. Burada atom və molekullar yüksüz deyil, ionlaşmış, yəni elektron verərək və ya alaraq elektriklə yüklənmiş haldadır. Günəşdən gələn yüksək enerjili şüaların udularaq atomları ionlaşdırması nəticəsində bu təbəqədə istilik bəzən $2000^0$C-yə qədər yüksəlir. İonosfer təbəqəsi atmosferin ionlardan təşkil edilmiş güzgüsü kimidir. Telsiz və radio ötürücülərin yerdən səmaya yüksələn elektromaqnit dalğaları bu güzgüyə dəyir, bir qismi əks edir və təkrar yer üzərinə gönədrilir. Əks edən dalğalar Yer üzərinin hər tərəfinə yayılır

və beləliklə də hər tərəfdə radio və telsiz yayınlarını rahatlıqla dinləmək mümkün olur.

Göründüyü kimi Allah-Təala yer üzünü qaranlıq və soyuq səma boşluğunda sürətli məsafə qət edən əlverişli istilikdə və həyat dolu bir yuva etmişdir. Mülayim və xoş bir iqlimin hökm sürdüyü yer üzündə ən kiçik bir əsinti belə hikmətsiz deyil, bir yarpaq belə hesabsız və özbaşına düşməz.

Ən kiçikdən ən böyüyə qədər yaradılmış hər şey bir ibrət lövhəsi, ilahi sənət xariqəsidir...

Allah-Təala belə buyurur:

“(Ey İnsanlar!) **Məgər Allahın göylərdə və yerdə olanları** (günəşi, ayı, ulduzları və buludları; meyvələri, bitkiləri, dənizləri, çayları və gölləri) **sizə ram etdiyini** (sizin istifadənizə verdiyini)**, aşkar** (görmə, eşitmə, sağlamlıq) **və gizli** (əql, şüur, fəhm, elm və s.) **nemətləri sizə bolluca ehsan etdiyini görmürsünüzmü? İnsanlar içərisində eləsi də vardır ki, nə bir elmi, nə bir doğru yol göstərən rəhbəri, nə də bir nurani** (ilahi) **kitabı olmadan Allah barəsində mübahisə edər.”** (Loğman, 20)[35]

Kainat kitabının hikmət və həqiqət dolu sətirlərini layiq olduğu şəkildə oxuyub dərk edən və təfəkkür üfüqündə dərinləşənlər necə də xoşbəxt kimsələrdir![36]

---

35. Bundan başqa bax: əl-Casiyə, 13.
36. Bax: Prof. Dr. Osman Çakmak, *Bir Çekirdekti Kainat*, İstanbul 2005, s. 118-131.

## *Buludlar, Yağış və Qar*

Buludları düşün! Sanki böyük dənizlər havada üzür. Buludların bir vəzifəsi də dünyanın həddindən artıq istiləşməsinə mane olmaqdır. İstilik artdığı zaman sular daha tez buxarlaşır və daha çox bulud meydana gəlir. Günəşdən gələn şüalar bu buludlar tərəfindən güzgü kimi geri əks etdirilir. Beləliklə də yerin istiliyi tarazlıqda qalır.

Rəhman olan Allah yağış yağdırmaq istədikdə küləkləri müjdələyici olaraq göndərir. Sonra həmin küləklər Allahın əmri ilə dağlar kimi buludları yüklənərək özlərinə təyin edilən yerlərə sövq edərlər. Göydə buludları istədiyi kimi yayıb topa-topa yığan Allah-Təala, onların arasından yağışı çıxarır və yer üzündə növbənöv meyvələr bitirir. Ölmüş insanları da eynilə belə təkrar diriləcəyini xatırladır. İnsanların bu möhtəşəm ibrət tablosundan pay almalarını istəyir.[37]

Allah-Təala rəhmətini istədiyi bəndələrinə yağdırır. Xüsusilə quraqlıqdan əziyyət çəkən bölgələrdəki insanlar bu nemət ilə sevincə qərq olurlar. Ümidsizlikləri ümidə çevrilir.[38] Belə ki ayeyi-kərimədə buyurulur: **“**(İnsanlar) **ümidsizliyə qapılandan sonra, yağmur göndərən, nemətini** (yağışını) **açıb paylayan Odur. İxtiyar sahibi Odur. Tərifə** (şükrə) **layiq olan da Odur.”** (əş-Şura, 28)

37. Bax: əl-Əraf, 57; Fatir, 9.
38. Bax: ər-Rum, 48.

Allah-Təala bəzən quraqlığı, bəzən də yağış və dolunu əzab vasitəsi halına gətirib günahkar bəndələrini tərbiyə edir. Bu vasitələrlə istədiyini vurur, istədiyini də mühafizə edir.[39]

Yəni göy ilə yerin münasibətlərini Rəbbimiz istədiyi zaman insanların davranışlarına və qəlb aləmlərinə görə şəkilləndirir.

Allah-Təala yağışı damcılar halında göndərir, ancaq heç biri digərinə dəyməz və onunla birləşməz. Hər damcı onun üçün qoyulmuş yoldan gəlir və o yoldan ayrılmaz. Nə gecikir, nə də arxadan gələn tələsir. Bütün insanlar və cinlər bir damcı su düzəltmək və ya bir kəndə düşən yağış damcılarını saymaq üçün bir yerə yığışsalar, bunun hesabını tutmaqdan aciz qalarlar. O damcıların ədədini ancaq onları yaradan Allah bilir.

Bununla birlikdə, lətif bir sudan meydana gələn möhkəm dondurulmuş doluda və sərilmiş pambıq kimi yağan qar dənələrində sayıla bilməyəcək qədər ilahi təcəllilər mövcuddur.

Yerə düşən yağış və qar sularını ağacların ən üst budaqlarına çıxaran kimdir? Belə ki, su yarpaqların hər tərəfinə yayılır, lakin görünməz. Əmici tellər vasitəsilə ağacın hər zərrəsi ondan qidalanır.

Normal olaraq aşağıya doğru axmalı olan su, əcəba necə yuxarı çıxır?[40]

39. Bax: ən-Nur, 43.
40. Bax: İmam Qəzali, Ehya, VI, 67-68.

Əgər yağış damcıları cazibə qanununa uyğun olaraq yerə ensəydi, hər bir damcı yerə silahdan çıxmış bir güllə sürəti ilə düşərdi. Bu isə canlıların yağış altında can verməsi demək olardı. Halbuki hər bir yağış dənəsi sabit bir sürətlə yerə düşər, yavaşca, incitmədən, narahat etmədən...

Damcılar bir ölçüyə görə biçimlənib kiçik yağış damcısı halına gəlir. Sonra da havaya verilən qaldırma qüvvəti və vərdiş sayəsində yerin cazibə qüvvəsinin təsiri nizamlanır və damlanın sabit bir sürətlə yerə düşməyinə zəmin yaranır.

Məhz ibrət nəzəri ilə baxa bilənlər üçün təkcə bu həqiqətlər belə, içində yaşadığımız cahandakı ilahi nizam və ahəngin nə qədər möhtəşəm olduğunu, dolayısı ilə Rəbbimizin sonsuz elm, qüdrət və hikmətini ifadə etməyə kifayətdir.

## YERİ TƏFƏKKÜR

Təqva sahibi olan bəndələr təfəkkürdə dərinləşirlər. Açılan çiçəklərin, nəğmə oxuyan quşların, meyvəli ağacların hamısının dilindən agah olurlar. Onlardakı zərafət, incəlik və gözəlliyi mənəvi həyatlarına əks etdirirlər. Çiçəklər kimi incə ruhlu, meyvəli ağaclar kimi ikram sahibi olurlar. Məhz bunlar, Allahın Qurani-Kərimdə tərif etdiyi bəxtiyar kimsələrdir.

Allah-Təala yer üzünü ən gəzəl şəkildə döşəmiş, insanların yaşaması üçün əlverişli hala gə-

tirmişdir. Orada geniş yollar və keçidlər qoymuş, üzərində yerimək üçün onu mötədil və əlverişli bir vəziyyətdə yaratmışdır.

Ayeyi-kərimələrdə buyurulur:

**"O Allah ki, sizin üçün yer üzünü döşədi, göyü isə tavan yaratdı, göydən yağmur endirdi və onun vasitəsilə sizin üçün müxtəlif meyvələrdən ruzilər yetişdirdi. İndi siz də Allaha** (Onun heç bir oxşarı və bənzəri olmadığını) **bilə-bilə şəriklər qoşmayın!"** (əl-Bəqərə, 22)

**"Məgər Biz yeri döşək etmədikmi?! Dağları da dirək?!"** (ən-Nəbə, 6-7)

**"Yeri** (Yer kürəsini) **sizə ram edən Odur. Onun qoynunda gəzin,** (Allahın) **ruzisindən yeyin. Axır dönüş də Onadır!"** (əl-Mülk, 15)

Allah-Təala əziz kitabında yer üzündən çox bəhs etmişdir ki, insan oğlu yerin hikmətləri üzərində diqqətlə düşünsün.

Yerin üstü dirilərin, altı isə ölülərin yeridir. Allah-Təala belə buyurur:

**"Məgər Biz yeri həm dirilərə, həm də ölülərə məskən etmədikmi?!** (Yerin altında ölülər yatar, üstündə dirilər gəzib-dolanar)**."** (əl-Mürsəlat, 25-26)

Yer ölü ikən ona diqqətlə bax! Onun üzərinə su endirildikdə canlanır, inkişaf edir və yaşıllaşır. Rəngarəng bitkilər yetişir. İçindən müxtəlif canlılar çıxır. Sonra Allah-Təalanın yeri möhtəşəm dağlarla necə möhkəmlətdiyinə diqqət et! Suları dağların

altında necə tədarük etdi? Bulaqları çağladıb yer üzündə çayları necə axıtdı? Qupquru daşdan və qara torpaqdan incə, dadlı və tərtəmiz suyu necə çıxardı? O su ilə hər şeyə necə həyat bəxş etdi? Onunla ağac və bitkilərin növlərini, buğda, üzüm, yonca, zeytun, xurma, nar və saya bilməyəcəyimiz qədər çox meyvələri necə çıxardı? Bu meyvələrin hamısı dəyişik şəkilli, dəyişik rəngli, dəyişik dad, sifət və qoxuludur. Hamısında ayrı bir gözəllik vardır... Bəzisi qida baxımından digərindən üstün... Halbuki hamısı bir su ilə sulanmaqda, bir torpaqdan çıxmaqdadır.[41]

### *Nəbatat (Bitkilər)*

Bir toxum torpağa düşüb torpağın rütubəti ona təsir etdikdə böyüyüb inkişaf edir və bu inkişaf nəticəsində üst və alt qisimləri çatlayır. Üst qismindən torpağın üzərində böyüyəcək olan ağac çıxarkən, alt qismindən torpağın dərinliklərinə doğru yayılan köklər uzanır. Bu heyrətverici bir işdir. Çünki bu toxumun təbiəti tək, xaricdən gələn təsirlər də tək olduğu halda bir tərəfindən havaya yüksələn bir maddə, digər tərəfindən isə torpağa girən bir maddə çıxır. Tək bir təbiətdən bir-birinə zidd iki şeyin doğması heyrətvericidir. Bundan da başa düşülür ki, hər işində hikmət sahibi bir Yaradıcının iradə və idarəsi ilə olur.

41. Bax: İmam Qəzali, *Ehya*, VI, 63.

Sonra bu toxumdan bitən ağacın bir qismi odun, bir qismi yarpaq olur. Bir qismi isə başda çiçək olaraq təbəssüm edər, sonra meyvə halına gəlir. Bundaan başqa bu meyvədə növbənöv təbiətlərə sahib olan insan orqanizminə faydalı bir sıra maddələr meydana gəlir.

Həmçinin tək bir meyvədə müxtəlif xüsusiyyətlər mövcuddur. Məsələn, üzüm ilə dənəsi soyuq və quru ikən, ətli qismi ilə suyu isti və suludur. Eyni təsirlərə məruz qaldığı halda tək bir toxumdan müxtəlif xüsusiyyətlərdə qidaların meydana gəlməsi mütləq son dərəcə güclü və hikmət sahibi bir varlığın tədbiridir.

Bundan başqa, Allah-Təala insan oğlunun neçə-neçə xəstəliklərinin əlacı üçün bitkiləri təbii bir əczaxana etmişdir. Bəzi bitkilər şəfadır, qidadır, vücuda qüvvət verir. Bəzisi dirildir, bəzisi də zəhərlidir, öldürür. Bir bitki yeyildikdə başqa bir maddəyə qalib gəlir. Bir bitki qanı təmizləyir. Bir bitki fərəh və canlılıq verir, digər biri isə sakitləşdirib yatızdırır.

Bitkilər vasitəsilə su ilə karbon qazından ($CO_2$) şəkər və odunun vücuda gətirilib məxluqatın tənəffüs etməsi üçün oksigenin sərbəst buraxılması nə qədər diqqətə layiq hadisələrdir.

Xülasə, yerdən bitən heç bir yarpaq və heç bir saman çöpü yoxdur ki, onda bəşər üçün bir çox faydalar olmasın! Belə ki, insan oğlu bu faydaların hamısına vaqif olmağa belə güc yetirə bilməz.

Adi bir ot kimi görünən müxtəlif rənglər, qoxular, dadlar və dəyişik şəkillərdəki yarpaqlar heç bir kimyagərin bir oxşarını düzəltməyə nail olmadığı nə qədər xariqə şeylərdir!

Bitkilərin yetişməsindəki nizam və ahəng də fərqli bir əzəmət təcəlliləridir. Məsələn, çinar ağacı hər il milyonlarla toxum istehsal edir. Bunların ətrafa yayılması üçün sanki tükdən paraşütləri olur. Külək ilə bu toxumlar uzaq yerlərə qədər sürüklənir. Əgər tək bir çinar ağacından ətrafa yayılan toxumların hər biri yeni bir çinar olsaydı, qısa bir zaman sonra dünyanın hər yerini çinar ağacı bürüyərdi. Yəni dünya tək bir ağaca dar gələrdi. Bu misalı digər canlılara da aid etmək mümkündür.

Belə ki, bir neçə il əvvəl Avstraliyada bir cins Kakitos bitkisindən çəpər çəkmək istədilər. Avstraliyada Kakitos düşməni olan bir həşərat olmadığı üçün bitki böyük sürətlə yayılmağa başladı. Avstraliyalıları təlaşa salan bu çoxalma nəticəsində Kakitoslar sağa-sola yayılaraq İngiltərəyə qədər bir ərazini bürüdü! Qarşısına çıxan şəhər və qəsəbə əhalisini ev-eşiklərini tərk etməyə məcbur etdi, tarlaları məhv etdi.

Buna bir çarə tapmaq üçün bütün botaniklər həyəcan təbili çaldılar. Nəhayət təkcə Kakitos üzərində yaşayan və başqa bir şey yeməyən bir həşərat tapdılar. Həm də bol-bol və sürətlə böyüyən və Avstraliyada heç düşməni olmayan bir həşərat. Çox keçmədən həşəratlar Kakitoslara qalib gəldi. Artıq bu gün Kakitos məhdud bir ərazini əhatə edir

və bəla olmaqdan çıxmışdır. O qədər həşəratdan da ancaq Kakitosu təsir altında saxlamağa kifayət edəcək miqdarda qalmışdır.[42]

Bu misal da kainatda asanlıqla ağlasığmaz bir ahəng və sirli bir ekoloji tarazlığın hökm sürdüyünü göstərir. Dolayısı ilə, heç bir ağıl və məntiq bəzi bitki və heyvanların həddindən artıq çoxalıb dünyanı istila etməyinə mane olan bir qüdrətin varlığını inkar edə bilməz.

Həmçinin heyrətəverici bir haldır ki, bir torpaqdan bir-birindən fərqli milyonlarla bitki və meyvə meydana gəlir... Rəzzaq (ruzi verən) Rəbbimiz hər cinsdən məxluqata ayrı-ayrı süfrələr qurur...

Məsələn, bir qoyunun yeyə bildiklərinin bir çoxunu insan yeyə bilməz, insanın yeyə bildiklərinin bir çoxunu da qoyun yeyə bilməz. Yəni ruzi nemətləri də çox həssas bir tarazlıq ilə məxluqat arasında bölüşdürülmüşdür. Ruzi təminindəki və bölüşdürülməsindəki ilahi qüdərti nümayiş etdirən bu ayeyi-kərimə nə qədər düşündürücüdür:

**“**(Yer üzündə zəiflikləri ucbatından) **ruzisini daşıya** (əldə edə) **bilməyən neçə-neçə canlılar vardır. Onların da, sizin də ruzinizi Allah verir. O,** (hər şeyi) **eşidəndir, biləndir.”** (əl-Ənkəbut, 60)

Həqiqətən məxluqatın bir-birlərinin ruzisinə vəsilə olması, xəstə bir quşun ağzına sağlam qu-

42. *Elm-Əxlaq-İman*, Hazırlayan: M. Rahmi Balaban, s. 190.

şun yem gətirməsi necə böyük bir ilahi rəhmət təcəllisidir...

Dünya yaranandan bu günə qədər heç bir canlının ruzisi diqqətsizlik edilmədən saysız ilahi süfrələrin də qurulması və hələ də bunun davam etməsi necə ibrətlidir. Bir anlıq düşünsək ki, dünyanın dörddə üçü sudur. Dörddə birinin böyük bir qismi də bitki yetişdirməyə əlverişli olmayan qayalıqlar və səhralardır. Yerdə qalan çox az qismi torpaqdır. Ancaq Allah-Təala necə uca bir qüdrət sahibidir ki, bur torpağı sonsuz bir istihalə (bir haldan başqa hala keçmək) ilə, yəni dəyişim və dönüşümlə bütün canlıları doyuracaq qidalar mənbəyi etmişdir.

### *Əngin Dənizlər*

Yer üzünün dörddə üçü sudur. Buna görə də nə qütblərin dondurucu soyuğu bütün Dünyanı təsiri altına ala bilir, nə də tropik yerlərin qovurucu istisi... Gündüz günəş şüaları ilə isinən torpaq topladığı bu enerjini eynilə bir radiator kimi ətrafa yayar. Dənizlər isə Günəşdən milyonlarca kalori almağına baxmayaraq, ancaq bir neçə dərəcə isinə bilir. Lakin isindikdən sonra da asanlıqla soyumaz. Yəni dənizlərin quru sahəsindən çox olması iqlimin qorunmasında, həddindən artıq istilənməyin və soyumağın qarşısını almaqda termostat rolunu oynayır. Eyni zamanda buxarlanma ilə quru sahəsinin suya olan ehtiyacını da qarşılayır. Əgər

yer üzündəki dənizlər daha az olsaydı, buxarlanma da azalacaq və quraqlıq səbəbi ilə hər tərəf səhra halına gələcəkdi.

Dənizlərdəki canlı və cövhərlərin xüsusiyyətləri də yer üzündəkilərdən aşağı deyil. Dənizdən çıxan inci, mərcan, digər bəzək əşyaları və xüsusən də təzə qidalar insan üçün çox mühüm yerə sahibdir.

### *Su*

Yer üzündəki bütün canlıların həyatı suya bağlıdır. Əgər insan su içməyə möhtac olduğu halda onu tapa bilməsəydi, yer üzünün bütün xəzinələri onun olsa, suyu əldə etmək üçün heç tərəddüd etmədən hamısını fəda edərdi. Sonra içdiyi suyu bayıra çıxara bilməsəydi, bunu edə bilmək üçün də bütün dünya mülkünü sərf etməkdə heç tərəddüd etməzdi. Adəm övladına heyrət etmək lazımdır! Necə dinar, dirhəm və cövhərləri gözündə böyüdür, ancaq Allah-Təalanın bir udum sudakı nemətinin böyüklüyünü dərk etməkdən qafil qalır![43]

Belə saysız həqiqətləri layiqi ilə təfəkkür edə bilən bir insan dünya üzərindəki bütün canlıların yaşaya bilmək üçün necə böyük bir elm və qüdrətin yardım və himayəsinə möhtac olduğunu qavramaqda gecikməz. Yalnız başına həyata ke-

43. Bax: İmam Qəzali, *Ehya*, VI, 65-66.

çirməyə qətiyyən imkanı olmayan əlverişli şərtlər üçün də, sanki ilahi xariqələr aləmində və möcüzə əsəri yaşadığını dərk edər. Bunu dərk edən heç bir ağıl, məntiq, düşüncə və vicdan isə Aləmlərin Xaliqi və Nazimi olan Allah-Təalaya qarşı gələrək nankorluq və axmaqlıq etməz.

## HEYVANLARDAKI HİKMƏTLƏR

Səmada uçan quşlara, ev heyvanlarına və vəhşi heyvanlara, gözlə çətinliklə görünə bilən həşəratlara diqqətlə baxmaq lazımdır. Çünki onlarda elə qəribəliklər var ki, onları yaradan Allah-Təalanın əzəmət, qüdrət və hikmətinə heyran qalmamaq qeyri-mümkündür!

Allah-Təala göz ilə çətinliklə görünən kiçik həşəratların içinə o möhtəşəm orqanları necə qoymuşdur?! Onlar heç səhlənkarlıq etmədən öz vəzifələrini necə yerinə yetirirlər?! Onların sahib olduqları xüsusiyyətləri tam olaraq kəşf edə bilmək belə, insan idrakının üstündə olan keyfiyyətlərdir.

İnsan oğlu ətrafındakı heyvanlara, onların şəkil və surətlərinə diqqətlə baxsa, sonra onlardan əldə edilən dəri, yun, ət və süd kimi faydaları ibrət nəzəri ilə seyr etsə, Allah-Təalanın sonsuz lütf və mərhəmətini görər. Uca Rəbbimiz soyuqdan qorunmaq üçün onlara xüsusi bir dəri vermiş, ayaqlarını mühafizə etmək üçün qalın dırnaqlar lütf etmiş, bütün ehtiyaclarını ən gözəl şəkildə qarşılamışdır.

Məsələn, bir-iki həftəlik ömrü olduğu halda xariqə naxışlarla bəzədilmiş kəpənəklər öz halları ilə neçə-neçə sirli bəyanlar anladırlar... Bu gözlərin baxışına, ağlın idrakına, xüsilə qəlblərin həssasiyyətinə təqdim edilmiş sonsuz ilahi xariqələrdən yalnız biridir...

Qurani-Kərimdə dəvəyə baxıb necə yaradıldığı üzərində təfəkkür etməyimiz istənilir:

**"Məgər dəvəyə baxmırlar ki, necə yaradılmışdır? Göyə** (baxmırlar ki) **necə ucaldılmışdır? Dağlara** (baxmırlar ki) **necə dikəldilmişdir? Və yerə** (baxmırlar ki) **necə döşədilmişdir?** (Ya Peyğəmbər! Mənim bəndələrimə) **öyüd-nəsihət ver. Sən ancaq öyüd-nəsihət verənsən!"** (əl-Ğaşiyə, 17-21)

Deməli, heyvanların və digər məxluqatın quruluşu incələndikdə neçə-neçə əzəmət təcəllilәri qarşımıza çıxır.

Allah-Təala bütün canlılara elə xüsusiyyətlər vermişdir ki, oxşar qidalarla bəslənsələr də, fərqli məhsullar meydana gətirirlər. Bunlar həyatı bütünlükdə yaşanılır hala gətirəcək şəkildə bir-birini tamamlayır.

Məsələn, yaşıl bir tut yarpağını qaramal və ya qoyun yesə, ondan ət, süd və yun hasil olur. Kiçik bir qurd olan ipəkqurdu eyni yarpaqdan ipək emal edər. Eyni şeyi bir cins maral yesə, ondan da müşk qoxusu əldə edilir. Arının çiçək tozlarından bal düzəldə bilməyi, kainatta ən mükəmməl bir varlıq olan insanın iqtidarı xaricindədir. Adi bir ot olaraq

görünən növbənöv çiçəklərin torpaqdan tapıb çıxardıqları rənglər, qoxular və canlılıq nişanəsi olan yaşıl yarpaqlar heç bir kimyagərin əldə edə bilməyəcəyi xariqə keyfiyyətlərdir.

Heyvan ona verilən ilahi proqramla otu ət və südə çevirə bilərkən, yaradılmışların ən kamili olan insan oğlu, zəmanəmizin ən yüksək texnologiyalarına sahib olan labaratoriyalarda belə, tonlarla otdan bir qram ət və ya süd emal etməyə hələ də nail olmamışdır.

Uca Rəbbimiz belə buyurur:

**“Şübhəsiz ki, davarda** (sağmal heyvanlarda) **da sizin üçün bir ibrət vardır. Biz onların qarınlarındakı qanla ifrazat arasında olan təmiz südü sizə içirdirik. O, içənlərin boğazından rahat keçər.** (Qanın və ifrazatın dadı, qoxusu və rəngi əsla südə qarışmaz. Əksinə, südə elə bir tam verərik ki, o, içənlərə xoş gələr.)**”** (ən-Nəhl, 66)

## *Bal Arısı*

**Allah-Təala** belə buyurur:

**“ Rəbbin bal arısına belə vəhy** (təlqin) **etdi: “Dağlarda, ağaclarda və** (insanların) **qurduqları çardaqlarda** (evlərin damında, üzümlüklərdə) **özünə evlər tik** (pətəklər sal)**! Sonra bütün meyvələrdən ye və Rəbbinin sənə göstərdiyi yolla rahat** (asanlıqla) **get!** (O arıların) **qarınlarından insanlar üçün şəfa olan müxtəlif**

**rəngli** (ağ, sarı, qırmızı) **bal çıxar. Şühəsiz ki, bunda düşünüb dərk edənlər üçün bir ibrət vardır!”** (ən-Nəhl, 68-69)

**Allah Rəsulu** ﷺ də belə buyurmuşdur:

*“Mömin bal arısına oxşayar. Təmiz olan şeyləri yeyər, təmiz olan şeyləri meydana gətirər, təmiz yerlərə qonar və qonduğu yeri nə qırar, nə də incidər.”* (Əhməd, II, 199; Hakim, I, 147)

Rəsulullah ﷺ burada möminin vəsflərini zikr edərkən eyni zamanda arıda olan gözəllik və hikmətlərə də işarə etmişdir.

Təfsir alimi **Hüseyn Kaşifi** belə deyir:

“Təfəkkür edən insanlar hər şeyə qadir və hər şeyi bilən Allah-Təalanın zəif bir bal arısını neçə-neçə hikmətlərlə yaratdığını bilir.

Arı boyun əyər və istiqamətdən ayrılmaz.

Ona əmanət edilən acı və dadlı meyvəni yeyər, sonra da dadlı bal verər.

Elə bir təqva sahibidir ki, pak və saf olan qidadan başqasını yeməz.

Elə itaətkardır ki, əsla Haqqın fərmanından çıxmaz.

Elə məkan tutmuşdur ki, neçə fərsəng uzaqlıqdakı yerlərə getsə də, yenə öz vətəninə geri qayıdar.

O qədər təmizdir ki, pisliklərin üzərinə qonmaz və onları yeməz.

Elə bir sənət sahibidir ki, aləmin bütün memarları və mühəndisləri bir yerə toplansa, onun gördüyü işi edə bilməzlər.

Məhz beləliklə də, onların emal etdikləri balda zahirdəki xəstəliklərə şəfa olduğu kimi, hallarını təfəkkür etməkdə də batini xəstəlik olan cəhalətə şəfa var.”

## *Sövqi-Təbii Xariqəsi*

**İsmail Fənni Ərtoğrul** heyvanların sövqi-təbii (şüuraltı zehin) deyilən ilahi bir proqramla həyatlarını davam etdirdiklərini belə ifadə edir:

“... Heyvanlar həyatlarının mühafizəsinə və nəsillərinin davamına lazım olan şeyləri, özlərinə faydalı olan qidaları heç öyrədilmədən bu vasitə ilə bilirlər. Quşlar gözəl yuvalarını qururlar. Köçəri quşlar səfər üçün müəyyən bir gündə toplanırlar. Bəzi böcəklər ölmədən əvvəl yumurtadan çıxacaq balalarının yeyəcəkləri digər böcəkləri öldürməyib onların bəzi üzvlərini şikəst edərək yeriyə bilməyəcək bir hala gətirərək yanlarına qoyurlar. Lakin necə maraqlı bir təcəllidir ki, bu böcəklərin böyüdükdən sonrakı yeyəcəkləri başqa qidalardır. Arılar balalarının qidalarını dəyişdirməklə onları erkək və ya dişi etmək istedadına sahibdirlər. Pətək bir qəza nəticəsində erkəkdən məhrum qaldığı

vaxt, balanı bu şəkildə yeni bir dişi ilə əvəz edə bilirlər..."[44]

Həmçinin necə ibrətlidir ki, bir eşşək arısı bir çəyirtkəni tutar. Torpaqda bir çuxur açar, onu elə bir yerindən sancar ki, həşərat ölməz, ancaq özündən gedər. Artıq sanki konservləşdirilmiş bir ət kimidir. Sonra elə münasib bir zaman və məkanda yumutlayar ki, balalar çıxdıqda bəslənə biləcəkləri təzə əti yanlarında hazır görürlər... Ana uzaqlara uçub gedərək balasını görmədən ölür... Belə sirli hərəkətlər və texnikalar "sonradan öyrənmə", "adaptasiya" kimi kəlmələrlə izah edilə bilməz. Bu onlara Allah-Təala tərəfindən bəxş edilmişdir.[45]

Somon balığının balası illərlə dənizdə qaldıqdan sonra öz doğma vətəni olan çaya qayıdar. Həm də düz doğulduğu yerin böyük çaya töküldüyü sahilə.

Onu belə dəqiqliklə düz əvvəlki yerinə gətirən duyğunu kim vermişdir? Əgər bu balığı götürüb eyni çaya tökülən başqa bir yerə qoysanız, dərhal səhv bir yolda olduğunu bilər, təkrar geri qayıdaraq əsl çayına çıxar, sonra çayın axdığı istiqamətin əksinə çevrilərək doğulduğu yerə doğru yola çıxar.

İlan balığının sirrini açmaq isə daha da çətindir. İnsanı heyrətdən heyrətə sövq edən bu məxluqlar balalayacaqları vaxt dünyanın hər tə-

44. *İman Həqiqətləri Ətrafında Suallara Cavablar*, s. 58-59.
45. *Elm-Əxlaq-İman*, Hazırlayan: M. Rəhmi Balaban, s. 189.

rəfindəki göl və çaylardan gəlib Bermud Adaları[46] yaxınlarındakı dərinliklərdə balalayar və ölərlər. Avropadakılar da minlərlə millik okeanları keçərək eyni yerə gəlirlər... Ucsuz-bucaqsız bir su içində olduğu üçün başqa bir şey bilmədiyi güman edilən bu kiçik balalar yenidən yola çıxarlar. Nəhayət ata-analarının gəldiyi eyni sahilə çatarlar. Bununla da kifayətlənməyib, oradan ata-analarının yaşadığı çaya, gölə və ya gölməçəyə gedərlər... İndiyə qədər Avropada heç bir amerikalı ilan balığına, Amerika sularında da heç bir avropalı ilan balığına rast gəlinməmişdir. Hətta Allah-Təala yolları uzaq olduğu üçün avropalı ilan balıqlarının ömrünü təxminən bir il uzun etmişdir!

Bu qədər qüvvətli bir istiqamət hissinin mənşəyi nədir?[47]

Heyvanlarda müşahidə edilən bu xariqüladə hallar onların təsadüfən var olmadıqlarını və özbaşına hərəkət etmədiklərini, əksinə bütün bunların onları yaradan qüdrətin qoyduğu plan və proqram daxilində baş verdiyini açıq-aşkar şəkildə göstərir.

Heyvanların belə, yüksək bir şüur tərəfindən istiqamətləndirilməsi Rəbbimizin varlığının, qüdrətinin, ilahi əzəmət və səltənətinin açıq-aşkar dəlillərindəndir. Rəbbimiz bu dəlilləri bəşəriyyətə nümayiş etdirərək kimin həqiqəti görüb Haqqa təslim olacağını, kimin də gözünün qarşısındakı

46. Bermud Adaları Atlantik Okeanında ABŞ-ın Şərq və Qərayib Adalarının Şimal sahillərində bir arxipelaqdır.
47. *Elm-Əxlaq-İman*, Hazırlayan: M. Rəhmi Balaban, s. 188-189.

möcüzəvi təcəllilərə baxmayaraq haqq və həqiqətə qarşı israrla kor olacağını ortaya çıxarır. Belə ki, ayeyi-kərimədə buyurulur:

**“Əlbəttə, Allah** (Quranda) **ağcaqanadı və ya ondan daha böyüyünü misal gətirməkdən çəkinməz. İman gətirənlər bunun öz Rəbbi tərəfindən bir həqiqət olduğunu bilirlər, kafirlər isə: “Allah bu məsəllə nə demək istəyir?” -deyirlər. Allah bununla** (bu məsəllə) **bir çoxlarını zəlalətə salır, bir çoxlarını isə doğru yola yönəldir. Allah yalnız fasiqləri zəlalətə düçar edir.”** (əl-Bəqərə, 26)

### *Cüt Yaradılış*

Vəhdəti yalnız özünə aid edən Allah (c. c) bütün məxluqatı cüt olaraq yaratmışdır. Belə ki, ayeyi-kərimədə buyurulur:

**“Biz hər şeydən** (erkək və dişi, bir-birinin əksi olmaqla) **cüt-cüt yaratdıq. Bəlkə, bir düşünüb ibrət alasınız!”** (əz-Zariyat, 49)

**“Allah gördüyünüz göyləri dirəksiz yaratmış** (yaxud O, göyləri görə bildiyiniz bir dirək olmadan xəlq etmiş)**, sizi yırğalamasın** (atıb-tutmasın) **deyə, yerdə möhkəm durmuş dağlar bərqərar etmiş və ora** (yer üzünə) **cürbəcür heyvanlar səpələmişdir. Biz göydən yağış yağdırdıq və** (onunla) **yerdə növbənöv gözəl** (bitkilər, meyvələr) **yetişdirdik.”** (Loğman, 10)

Elmin ancaq yaxın zamanda aşkar edə bildiyi bu cüt yaradılış keyfiyyəti bizə on dörd əsr əvvəl nazil edilən Quran ayələrində bildirilmiş, bəşəriyyətə bir elm ərməğanı olaraq təqdim edilmişdir.

Bəşər idrak və zövqündən uzaqda, sanki bir gəlin otağı həssaslığı və etinası ilə bəzədilən bu kainat; zərrələrin, dənələrin, hüceyrələrin, bitkilərin, heyvanların, insanların və maddənin, hətta atom içindəki elektron və proton kimi sirli ünsürlərə qədər bütün əşyanın xarakterlərinə görə xüsusi və qəribə bir izdivac qanununa tabe tutulmuşdur. Bu isə bizim üçün möhtəşəm bir təfəkkür üfqü açır.

## ALLAHIN NEMƏTLƏRİNİ TƏFƏKKÜR

Allah-Təalanın bizə olan ən böyük lütfləri bu qədər məxluqat içində **"insan"** olaraq yaradılıb müsəlman bir mühitdə dünyaya gəlməyimizdir. Bundan daha böyük lütfü isə Qurani-Kərimə müxatəb və Peyğəmbərimizə ümmət olmağımızdır.

Peyğəmbərimiz ﷺ bizim üçün Quranın davranışlara əks edən feli və mükəmməl bir nümunəsidir. Bizə Kitabı və hikməti öyrədir və daxili aləmimizi paklaşdırır. Təkcə bu nemətlərin qədrini layiqincə idrak edə bilsək, şükür səcdəsindən başımızı qaldırmamağımız lazımdır.

Allah-Təalanın ehsanları bunlarla da məhdudlaşmır. Onun bir çox nemətləri biz bəndələri üzərinə

hər an sanki leysan halında yağır. **Peyğəmbərimiz** ﷺ belə buyurmuşdur:

*“Allah (c.c) “Sən infaq et ki, Mən də sənə infaq edim.” -buyurdu. Allahın xəzinələri genişdir. Bütün məxluqata verdiyi ruzilər Onun xəzinəsindən heç bir şey əskiltməz. O, gecə-gündüz ardı-arxası kəsilməz infaqlar edir. Səma (göyü) və Ərzi (yeri) yaratdığı gündən bəri Allahın infaq etdiyi şeyləri düşünün! Bunlar, Onun mülkündən heç bir şey əskiltməmişdir.”* (Buxari, Təfsir, 11/2, Tövhid, 22)

Nemətin haqqı, onun üzərində təfəkkür etmək, onu yaradanın varlığını qəbul etmək, Onun qüdrət və ehsanını düşünərək şükür etməkdir.

**Ömər bin Əbdüləziz** -rəhmətullahi əleyh- belə buyurur:

“Allahı zikr edərək söhbət etmək çox gözəldir. Allahın nemətləri üzərində təfəkkür isə ibadətlərin ən fəzilətlilərindəndir.” (Əbu Nuaym, xilyə, V, 314; İmam Qəzali, Ehya, VI, 45)

Küfrani-nemət, yəni nankorluq isə nemətin şükrünü tərk etmək, onu qəddarca, nəfsani ölçülər içində və bədən planında sərf edərək hədər etməkdir. Bu hallar insanı nemətləri lütf edən Allah-Təaladan uzaqlaşdırır.

Şükür üç qisimdir:

1. Qəlbin şükrü: Nəməti düşünməkdir.

2. Dilin şükrü: Nemətə qarşılıq olaraq həmd-səna etməkdir.

3. Digər üzvlərin şükrü: Haqq etdiyi qədər nemətin qarşılığını verməkdir.

Digər tərəfdən: **“Hər nemətin şükrü öz cinsindən olur.”** deyilmişdir. Yəni Allah-Təala bizə nə lütf etmişsə, ondan məhrumlara ehsan və ikram etməyimiz lazımdır. Belə ki, ayeyi-kərimədə buyurulur:

**“...Allahın sənə verdiyindən sən də** (varından yoxsullara, qohum-əqrabaya xərcləməklə) **yaxşılıq et!..”** (əl-Qəsəs, 77)

## *Hər Vasitə ilə Təfəkkür*

**Ziya Paşa** belə deyir:

*Min dərsi-maarif oxunur hər vərəqində,*
*Ya Rəbb, nə gözəl məktəb olur məktəbi-aləm!*

“Bu kainat kitabının hər bir səhifəsində mərifət elminin minlərlə dərsi oxunur. Ya Rəbb! Bu aləm təfəkkür dəryasına dalaraq ibrətlər almaq üçün necə də gözəl bir məktəbdir.”

Böyük İslam alimlərindən **Süfyan bin Uyeynə** həzrətləri bu halın izahı mahiyyətində, bir şairə aid olan bu sözü tez-tez təkrar edərdi:

“İnsan təfəkkür sahibi olarsa, hər şeydən bir ibrət alar.” (İmam Qəzali, Ehya, VI, 45)

Elə buna görədir ki, Ərəblər də belə deyirlər:

**“İbrət alınacaq şeylər çoxdur, ibrət alan isə çox azdır.”**

### *Hər Zərrə Allahı Anladır*

İnsan təfəkkür edərək kainat kitabını oxumağı öyrənə bilərsə, ətrafında gördüyü hər zərrə ona Allah-Təalanın əzəmətini təlqin edər və onu mərifətullaha yaxınlaşdırar. **Füzuli** necə də gözəl deyir:

*Olsa istedadi-arif qəlbi-idraki-vəhy,*
*Əmri-Haqq irsalinə hər zərrədir bir Cəbrail!*

*“Əgər arif ilahi vəhyi idrak edə bilmə qabiliyyətinə sahib olsa, kainatdakı hər zərrə ona Haqqın əmrini çatdıran bir Cəbrail olar.”*

Allah-Təala belə buyurur:

**“And içirəm gördüklərinizə və görmədiklərinizə ki, bu** (Quran) **çox möhtərəm bir elçinin** (Cəbrailin gətirdiyi) **sözdür!”** (əl-Haqqa, 38-40)

Qurani-Kərimdəki andların hikmətlərindən biri də üzərinə and içilən varlıqlardakı ibrətə, faydaya və hikmətə diqqət çəkməkdir. Bəndənin həmin əzəmətin təlqini içində hisslərini dərinləşdirməsi arzu edilir.

Dolayısı ilə, gördüklərinmiz və görmədiklərimiz bütün varlıqlar Allahın qüdrət və rububiyyətinin ayələridir. Onlarda düşünüb ibrət alınacaq saysız hikmətlər var.

Zərrə qədər bir çinar toxumunun münbit bir torpaq vasitəsilə böyük bir ağac halına gələrək qazandığı əzəmətli ehtişam kimi bizdəki təfəkkür və təhəssüsün Quran iqlimindən qidalanıb güclənməsi nəticəsində çata bilinəcək sirr, hikmət və ibrətlər də möhtəşəm olacaqdır.

Allah-Təala belə buyurur:

**“Həqiqətən, göylərdə və yerdə möminlər üçün ibrətlər vardır! Sizin yaradılışınızda və** (Allahın yer üzünə) **yayıb səpələdiyi canlılarda tam yəqinliklə inanlar üçün** (Allahın birliyinə, qüdrət və əzəmətinə, qiyamət gününün haqq olmasına dəlalət edən) **əlamətlər vardır. Gecə və gündüzün bir-birinin ardınca gəlib-getməsində, Allahın ruzi vermək üçün göydən yağış yağdırmasında, onun vasitəsilə yeri ölümündən** (quruduqdan) **sonra diriltməsində və küləkləri** (müxtəlif tərəflərə) **yönəltməsində ağılla düşünənlər üçün** (Allahın hər şeyə qadir olmasını sübut edən) **dəlillər vardır.”** (əl-Casiyə, 3-5)

Qurani-Kərimdəki bu təfəkkür misalları üzərində könülləri və zehnləri cəmləmək bəndəni “təqva” iqliminə aparır. Necə ki, çiçəklər havaya, suya, torpağa və işığa möhtac isə, təfəkkür qabiliyyətinə keyfiyyət qazandırmaq da “təqva”ya bağlıdır.

Allah-Təala bəndələrinin düşünən, araşdıran və incə anlayış sahibi zərif insanlar olmağını istəyir. Elə buna görədir ki, bir müsəlman hər vasitə ilə və bir ibadət həyəcanı içində təfəkkürə

yönəlməlidir. Bu halın gözəl bir misalını nümayiş etdirən **Əhməd Havari**nin həyat yoldaşı **Rabiə Xanım** belə demişdir:

"- Hər azan eşitdiyimdə, qiyamət nidaçısını xatırlayıram.

- Hər qar yağdığını gördüyümdə sanki əməl dəftərlərinin havada uçuşduğunu görürəm.

- Nə vaxt bir çəyirtkə sürüsü görsəm, həşri xatırlayıram."

Rəvayət edildiyinə görə **Xəlifə Harun ər-Rəşid** hamama getmişdi. Hamamçı səhvən onun üzərinə qaynar su tökdü. Bunun müqabilində Xəlifə Harun yanmış vücudunun şiddətli ağrısı içində çölə çıxaraq minlərlə sədəqə payladı və belə dedi:

"- Bu gün hamamın suyuna dözə bilmirəm. Qiyamət günü cəhənnəm yolçusu olsam, halım necə olacaq!"

**Peyğəmbərimiz** ﷺ baxdığı hər şeydən bir ibrət çıxarıb həmd və şükür ilə Rəbbinə yönəlirdi. Biz də gördüyümüz hər şeydə ilahi əzəməti seyr edərək hiss və fikir dünyamızın mənəvi qidasını almağa səy göstərməliyik. Müsəlman Günəşə, Aya, atmosferə, öz yaradılışına, əcdadına, övladına, xülasə hara baxarsa baxsın, bunlar vasitəsilə verilən ilahi mesajları könül gözü ilə oxumalıdır. Haradan və necə gəldiyini, necə həyat yaşaya bildiyini, şəklini, formasını kimin verdiyini, ömrünü

kimin təyin etdiyini, haraya getməkdə olduğunu, həyat və kainatın hikmətsiz olmadığını, heç bir şeyin boş və mənasız yerə yaradılmadığını, özünün başıboş buraxılmadığını düşünüb daim ilahi qüdrət və əzəmətin fərqində olmalıdır.

### *Haqq-Təala Bu Kainatı Nə Üçün Yaratdı?*

Allah-Təala belə buyurur:

**"Biz göyləri, yeri və onların arasında olanları oyun-oyuncaq** (əyləncə) **yaratmadıq! Biz onları yalnız haqq olaraq yaratdıq, lakin onların əksəriyyəti** (bunu) **bilməz!"** (əd-Duxan, 38-39)

Kainatı təfəkkür edən insan Uca Rəbbimizin muradını qavrayıb Onun hər şeyi bir məqsədlə yaradaraq bəndələrinin xidmətinə verdiyini dərk etməlidir. Sonra da Allah-Təalaya qarşı məsuliyyətlərini düşünüb qulluq vəzifələrinə diqqət göstərməlidir. Çünki Allah-Təalanın bu məzəmətli ikram və ehsanı qarşısında duyğusuz və nankor qalmaq insanlıq şərəf və heysiyyəti ilə üst-üstə düşməyən çox acı bir qəflətdir!

İnsan sahib olduğu bütün nemətlərin hesabını verəcəyini unutmamalıdır. Belə ki, Allah-Təala buyurur:

**"...Sonra da həmin gün** (Allahın dünyada sizə əta etdiyi) **nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız!"** (ət-Təkasur, 8)

Xülasə, içində yaşayıb fərqində olduğumuz və olmadığımız bütün ilahi nemətlər üçün Rəbbimizə sonsuz şükür və qulluq borcumuz vardır. Bu vəzifələrinin şüur və idrakı içində olub bunları ifa etməyə səy göstərən arif könüllərə müjdələr olsun!..



İNSANDA TƏFƏKKÜR

Bir anlıq düşünsək ki, üzərinə basıb keçdiyimiz yer, bu günə qədər gələn milyardlarla insanın torpağa dönmüş cəsədləri ilə doludur. Sanki üst-üstə düşmüş milyardlarla kölgə kimi... Sabah biz də torpağın bağrına əməllərimizlə basdırılaraq bu sıx kölgənin içinə süzüləcəyik. Ondan sonra əbədi bir həyat və sonsuzluğa səfər başlayacaq. Ona görə də bir az durub düşünək: Anı, sonsuzluğa dəyişdirmək hansı ağlın işidir?!

## İNSANDA TƏFƏKKÜR

### YARADILIŞDAKI XARİQULADƏ İNCƏLİKLƏR

Allah-Təala belə buyurur:

وَفِي الْاَرْضِ اٰيَاتٌ لِلْمُوقِنِينَ.
وَفِي اَنْفُسِكُمْ اَفَلَا تُبْصِرُونَ

**“Yerdə** (Allaha) **tam yəqinliklə inananlar üçün** (Onun əzəmət və qüdrətinə, vəhdaniyyətinə dəlalət edən) **əlamətlər vardır. Sizin özünüz də** (sizi yaradanın birliyini sübut edən) **əlamətlər vardır. Məgər görmürsünüz?”** (əz-Zariyat, 20-21)

Uca Rəbbimiz insanı elə möhtəşəm yaratmışdır ki, zəmanəmizdəki yüksək elm və texnologiya sayəsində edilən saysız kəşflərə baxmayaraq, ondakı xariqüladə sirr və hikmətlərin sonuna çatmaq mümkün olmamışdır. Ayeyi-kərimədə belə buyururlur:

**“Ey insan! Səni kərim olan Rəbbinə qarşı aldadan** (və ya: məğrur edən) **nədir? O Rəbbin**

**ki, səni** (yoxdan) **yaratdı, düzəldib qaydaya** (insan şəklinə) **saldı. Sənə Özü istədiyi surətdə biçim verdi.”** (əl-İnfitar, 6-8)

Allah-Təala burada insana keçmişini xatırladaraq ona yaradılışını təfəkkür etməyini bildirir. Belə ki, son dərəcə müstəsna yaradılışı ilə yaradılmışların ən kərəmlisi qılınmış olan insan görüldüyündə xoşa gəlməyən və cəlbedici olmayan bir sudan yaradılmışdır.[48] Ona görə də insan oğlunun kiçik bir damladan möhtəşəm bir varlıq meydana gətirən sonsuz elm, hikmət və qüdrət sahibi Rəbbinə qarşı bir “heç” hökmündəki fani varlıq və qüvvətinə güvənərək üsyan etməsi nə qədər də boş və mənasız bir haldır!...

Tibbin hələ yeni-yeni kəşf edə bildiyi insanın yaradılış mərhələləri 14 əsr əvvəl nazil olan ayeyi-kərimələrdə belə təsvir edilmişdir:[49]

---

48. Bax: Əbəsə, 17-22; ər-Rum, 20; əl-Qiyamə, 36-38; əl-Mürsəlat, 20-22; Yasin, 77; əl-İnsan, 2.
49. 1400 ildən bəri Qurani-Kərim hər elmi kəşflə dəstəklənmişdir. Ümmi bir Peyğəmbər ilə bəşəriyyətə təqdim edilən bir Kitab kainatda cərəyan edən ilahi qanunlar və bunları özündə əks etdirən hadisələrin minlərcəsinə təmas etdiyi halda, heç bir kəşfin onu təkzib etməməsi də onun vəhy məhsulu olduğunu göstərən qəti dəlillərdən biridir. Yəni Qurani-Kərim daim bəşəri elmin qarşısında gedir, edilən bütün kəşflər də onu dəstəkləyir.

İslama qarşı mənfi bir surətdə şərtlənməmiş olan bəzi Qərb alimləri, ancaq zəmanəmizdə əldə edilə bilən həqiqətlərə (yuxarıdakı misalda olduğu kimi) 1400 il əvvəl nazil olmuş Quran ayələrində toxunulmuş olması qarşısında heyrət və heyranlıq duyaraq hidayət yolunu tutmuşlar. Bunlardan biri olan Fransız əsilli embrioloq alimi Prof. Dr. Moris Bukay İslamla şərəflənmişdir. Bunun başqa misalları da olmaqla birlikdə, tək bu misal belə fövqəladə

**"Biz, həqiqətən, insanı tərtəmiz** (süzülmüş) **palçıqdan yaratdıq.** (Biz Adəmi torpaqdan, Adəm övladını isə süzülmüş xalis palçıqdan - nütfədən xəlq etdik)**. Sonra onu** (Adəm övladını) **nütfə halında möhkəm bir yerdə** (ana bətnində) **yerləşdirdik. Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik, sonra o bir parça əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu bambaşqa** (yeni) **bir məxluqat olaraq yaratdıq. Yaradanların ən gözəli olan Allah nə qədər** (uca, nə qədər) **uludur!** (Belə bir yaradılışdan) **sonra siz mütləq öləcəksiniz! Sonra siz qiyamət günü yenidən dirildiləcəksiniz!"** (əl-Muminun, 12-16)

İnsanın yaradılışı kimi orqanları da hal dili ilə özünü təfəkkürə dəvət edir. Yəni gözümüz, qulağımız, əlimiz, ayağımız, beynimiz, qəlbimiz, xülasə bütün vücudumuz bizə verilmiş geniş bir təfəkkür sahəsi olaraq sanki belə səslənir:

Allah-Təalanın ət, sinir və damarlardan təşəkkül tapmış əzaları necə tənzim etdiyinə və onları bir-biri ilə ahəngli çalışan bir sistem halında necə var etdiyinə ibrətlə bir bax! Başı yuvarlaq yaratmış və onun üzərində qulaq, göz, burun, ağız və digər üzvlər yerləşdirmiş... Əl və ayağı uzun yaratmış, uclarını barmaqlara, barmaqları da oy-

dərəcədə əhəmiyyətlidir. Bundan başqa, bəhs etdiyimiz şəxsin Türk dilinə tərcümə edilmiş əsərlərini oxumalarını bu vəsilə ilə oxucularımıza da tövsiyə edirik. *Müsbət Elm Yönündən Tövrat, İncil və Quran*, tərc., Mehmet Ali Sönmez, Ankara, 1998; Musa və Firon, tərc., Ayşe Meral, İstanbul, 2002...

naqlara ayırmış... Qəlb, mədə, ciyər, dalaq, bağırsaq, bətn kimi daxili orqanları ən münasib şəkil və keyfiyyətlərdə yaratmış... Bunların heç biri lazımsız və bir-biri ilə əlaqəsiz deyil. Əksinə hər birinin çox mühüm vəzifələri var və hamısı da bu vəzifələrinə ən uyğun şəkildə yaradılmışdır.

Sonra bu əzaların hər birinin özünə görə qisimləri var. Məsələn, gözün təbəqələri və hər təbəqənin xüsusi bir vəsfi və şəkli var. Əgər onlardan biri pozular və ya vəsflərindən birini itirərsə, göz görməz.

### *Sümüklər*

Sümüklərin təşəkkülü də heyrətamizdir: Allah-Təala onları incə və zəif bir damla nütfədən necə bu dərəcə sərt və sağlam yaratmışdır?! Sonra onları bədən binasını ayaq üstə saxlayan nə qədər də nizamlı və sağlam bir skelet halına gətirmişdir! Sonra onları dəyişik miqdar və ölçülərdə necə şəkilləndirib təqdir etmişdir?! Kimisi kiçik, kimisi böyük, kimisi uzun, kimisi yuvarlaq, kimisi içli, kimisi dolu, kimisi enli, kimisi incədir.

İnsan tək parça bir sümükdən də meydana gəlməmişdir. Sümüklər oynaqlarla, hərəkətli toxumalarla bir-birinə bağlanmışdır. Bu oynaqların yağlama mexanizmi o qədər xariqədir ki, bu günə kimi texnologiyada istifadə edilən üç yağlama tipi ilə də tam olaraq açıqlana bilməmişdir.

İndi bir anlıq düşünək: vücudumuzdakı oynaqlardan biri öz fəaliyyətini yerinə yetirməsə necə böyük çətinliklərlə qarşılaşarıq!

Allah-Təala vücudumuzdakı sümüklərin birini dənə artıq yaratsaydı, həmin sümük insan üçün kəsilib atılmalı olan bir problem qaynağı və narahatlıq səbəbi olardı. Bunun əksinə bir sümük əskik olsaydı, onun əskikliyini tamamlamaq üçün nə qədər zəhmət çəkməli olardıq. Əksər hallarda da bunu tamamlamaq qeyri-mümkün olardı.

Bir əlimizin baş barmağından istifadə edə bilmədiyimizi düşünək... İşlərimiz nə qədər geri qalacaq. Bu hal, həqiqətən də düşünülməsi vacib olan bir xüsusdur.

Dişlərin bəzisi yastı və üyütməyə əlverişlidir. Bəzisi də şiş və kəsici olub qoparmağa və kəsməyə əlverişlidir.

Allah-Təala sümükləri hərəkət etdirmək üçün əzələləri yaratmışdır. Əzələlərin miqdar və şəkilləri yerlərinə və ehtiyaclarına görə müxtəlifdir. Gözdə bir çox əzələ var. Bunların biri xəstələnsə, bütün gözün sağlamlığına mənfi təsir edir.

Bütün bunlar görünən xariqüladəliklərdir. Bir də beş duyğu ilə dərk edilə bilməyən sifətlər; yəni xasiyyət, xarakter, şəxsiyyət, vicdan kimi mənəvi xüsusiyyətlər var ki, onların mahiyyəti daha da möhtəşəmdir.

İnsan vücudundakı xariqələr Allahın bir damcı sudakı sənətidir. İnsan gözəl bir rəsm əsərinə baxdıqda rəssamın məharətinə, sənətinə və zəkasına heyran olar. Onu öz gözündə böyüdər. Halbuki rəssamın işi yoxdan bir şey var etmək deyil, var olan kağız, fırça, rəng kimi ləvazimartları xüsusi tərtib ilə bir yerə yığaraq, Allahın yaratdığı aləmlərdən aldığı düşüncələrlə nəticələrini əks etdirməkdən ibarətdir.

Ona görə də bir rəssamın əsərinə belə diqqətlə baxılıb heyrət edilərkən, mütləq sənətkar olan Allah-Təalanın bir damla sudan yaratdığı misilsiz bir icad əsəri və sənət xariqəsi olan “insan” vaqiəsinə qarşı necə heyranlıq duymağımızın vacibliyini təfəkkür etmək lazım deyilmi?

### *Üzvlər*

Qulağın quruluşu, burunun faydaları, dilin danışmağı, hər bir hərfi ayrı-ayrı çıxarmağı, ağzın dişlərlə bəzədilməsi, dişlərin ipə düzülmüş inci dənələri kimi müntəzəm tərtibatı, səs tellərinin həssas quruluşu... Hər insanın səsinin fərqli olması... Korların insanları səslərindən tanıma xüsusiyyəti...

Saç, saqqal, qaş, kirpik... Mədə, ciyər, böyrək, damar... Hamısının üzərində uzun-uzun təfəkkür etmək lazımdır. Hər biri nə qədər də yüksək bir elm və hikmətlə yaradılmış və bir-birləri ilə nə qədər də mütənasib bir şəkildə vəzifələrini yerinə yetirirlər...

Böyrəyimiz kiçik bir ət parçasıdır. Lakin zəhərli və zəhərsizi bir-birindən ayırd edir. Zəhərli isə bayıra göndərir. Zəhərsiz isə təkrar vücuda geri qaytarır. Böyrəkdə ağıl varmı, kompyuterdimi, laboratoriyadırmı? Bu kiçik üzv xəstələndikdə insanın necə əziyyət çəkdiyini əksəriyyətimiz bilirik. Böyük-böyük cihazlar həmin o əlli qram ət parçası olan böyrəyin vəzifəsini tam olaraq yerinə yetirməkdə acizdir.

Əllərimizə bir baxaq! İstənilən şeyə uzana bilsin deyə uzun yaradılmışdır. İçi yastı, beş barmağa ayrılmış və hər barmağın üç oynağı var. Dörd barmaq bir tərəfdə, digər barmaq da bir tərəfdə. Baş barmaq bütün barmaqların köməyinə çata bilir. Əgər keçmiş və gələcək insanların hamısı bir yerə toplanıb incə fikirləri ilə beş barmağa mövcud şəklindən daha gözəl bir şəkil vermək istəsələr, buna gücləri çatmaz.

İnsan üzvlərinin ən qiymətsizi kimi görünən dırnağını itirsə, bədənində bir yer qaşındığında məxluqatın ən acizi olur. Başqasından bu xüsusda kömək istəsə, həmin şəxs ancaq uzun bir tərifdən və bir neçə dəfə axtardıqdan sonra qaşınan yeri tam olaraq tapa bilir. Halbuki insanın öz əli qaşınan yeri tapmaqda və oranı qaşımaqda çətinlik çəkmir. Hətta yuxu və dalğınlıq halında belə, həmin yeri dərhal tapa bilir.

Üstəlik qol, əl və barmaqlarımızla etdiyimiz ən sadə hərəkətlər belə, əslində son dərəcə qarışıq və yüksək mühəndis hesablamaları nəti-

cəsində olmalıdır. Belə ki, zəmanəmizin müasir texnologiyaları üçün düzəldilən robot əl və qol hərəkətlərində əldə edilən səviyyənin hələ insan üzvləri ilə müqayisə edilə bilməyəcək qədər geri olduğunu düşünsək, Rəbbimizin insan vücudunda nümayiş etdirdiyi sonsuz elm və qüdrətinə heyran olmamaq mümkün olmaz.

Şair bütün yaradılmışlar kimi "insan" üzərində nümayiş etdirilən ilahi sənətin də görən gözlərə və eşidən qulaqlara hal dili ilə daim Mütləq Sənətkarı elan edişini necə də gözəl dilə gətirir:

*Varlığım, Xaliqimin varlığına şahiddir,*
*Başqa bürhani-qavi var isə də zaiddi...* (Şinasi)

"Varlığım, Yaradıcının varlığına ən gözəl dəlildir. Bundan başqa neçə-neçə qüvvətli dəlillər varsa da, tək bu dəlil belə kifayətdir, digərlərinə ehtiyac yoxdur."

### *Allah-Təalanın Şəfqət və Mərhəməti*

Allah-Təalanın rəhmət və şəfqətinə baxın ki, dişlərin meydana gəlməsi doğumdan iki il sonraya qədər təxir edilmişdir. Çünki körpə iki il müddətində ana südündən başqa bir qida ilə tam mənada qidalana bilməz. Bu baxımdan da dişə ehtiyac yoxdur. Əksinə bu dövrdə dişlərin mövcud olması süd əmizdirən ana üçün bir əziyyət səbəbi olar.

Uşaq böyüdükcə vücudun qida ehtiyacı da artar və sırf süd artıq ona kifayət etməz. Bu dəfə

qüvvətli yeməyə ehtiyac hiss edər. Yeməyi isə çeynəmək və udmaq lazımdır. Bu baxımdan uşaqda dişlərin çıxması nə vaxtından əvvəl, nə də sonra olur. Düz yeməyə ehtiyac hiss etdiyi dövrdə dişlər çıxmağa başlayır. Bundan daha əvvəl çıxsaydı, süd əmməyə mane olardı. Uca Rəbbimizin yumuşaq diş ətlərindən o sərt sümükləri, üstəlik də tam vaxtında çıxarması həqiqətən də heyrət ediləcək işlərdəndir.

Sonra Allah-Təala ata-anaya uşağa baxmaları üçün ayrı bir şəfqət duyğusu vermişdir. Hər işində hikmət sahibi olan Allah-Təala ata-ananın qəlbinə rəhmətini lütf etməsəydi, uşağın əziyyətini kim çəkərdi?!

İnsan bədəni müdhiş bir təfəkkür sahəsidir. Uca Yaradanın əzəmətinə ən aydın şahiddir. Ancaq bundan qafil olan bir insan daim nəfsinin arzuları ilə məşğuldur. Halbuki nəfsani işlərdə heyvanlar belə insanla oxşar bir səviyyədədir. İnsanı heyvanlardan ayıran və onu məxluqatın ən şərəflisi edən məharət, göylərin və yerin səltənətinə ibrət nəzəri ilə baxmaq, kainatdakı və insandakı ilahi sənət xariqələrini təfəkkür etməklə əldə edilən mərifətdir. Çünki bir bəndə bu mərifətdə dərinləşdikcə Allaha yaxın olan mələklərin səviyyəsinə çıxar, hətta daha da yüksələr. Peyğəmbərlər və siddiqlərin arasında olar və onlara yaxın bir halda həşr olunar. Bu şərəf və izzət isə heyvanlar kimi, hətta heyvanlardan da

çaşqın bir halda şəhvətlərinin əsiri olaraq yaşayan qafil insanlara aid deyildir.[50]

## *İnsanın Üzü və Barmaq Ucları*

Bir gün bir nəfər **Həzrət Ömər**in ﷺ yanında:

"- Bu şahmata heyrət edirəm. Şahmat taxtasının uzunluq və eni bir arşından ibarətdir, ancaq insan onun üzərində bir milyon oyun oynasa, bir oynadığı oyun mütləq digərindən fərqlənər, heç bir oyun digərinə oxşamaz!" -dedi.

Həzrət Ömər ﷺ ona belə dedi:

"- Bundan daha heyrətə layiq olanı vardır. İnsan üzünün uzunluq və eni bir qarışdan ibarətdir. Qaşlar, gözlər, burun, ağız kimi üzvlərin yerləri qətiyyən dəyişməz. Buna baxmayaraq, Şərq və Qərbdə üzləri bir-birinin tamamən eynisi olan iki nəfər belə tapa bilməzsiniz. Bu kiçik bir dəri parçasında bu həddi-hüdudu olmayan fərqlilikləri göstərən Allahın qüdrət, əzəmət və hikməti nə ucadır!" (Razi, Təfsir, IV, 179-180; əl-Bəqərə, 164)

Şair bu hikmətə işarə edərək belə deyir:

*Kim bu üzü çəkən sənətkar rəssam?*
*Baxıb da aynaya soran olmazmı?*

(Nəcib Fazil)

---

50. Bax: İmam Qəzali, *Ehya*, VI, 58-62.

İnsanın barmaq izi isə daha da möhtəşəmdir. Bu gün bir şifrə olaraq barmaq izi ilə açılan kompyuterlər və qapılardan istifadə edilir. Çünki hər insanın barmaq izi digərindən fərqlidir.

Barmaq izinin sanki bir seriya və ya təsdiq nömrəsi kimi hər insan üçün ayrı və xüsusi bir şəklinin olduğu XIX əsrin sonlarında kəşf edilmiş və xüsusən də ədliyyə və hüquq sahəsində geniş şəkildə istifadə edilməyə başlanmışdır. Zəmanəmizdə "Daktiloskopiya" deyilən və barmaq izlərini tədqiq edən bir elm sahəsi vardır.

İnsana bu xüsusiyyəti bəxş edən Allah-Təala 1400 il əvvəl nazil etdiyi Quran ayələrində bu ilahi xariqəyə diqqət çəkmişdir. Qiyamət günü insan bədənini təkrar dirildirkən barmaq uclarını belə əvvəlki halında düzəldəcəyini xəbər vermişdir. Ayeyi-kərimədə belə buyurulur:

**" Məgər insan elə güman edir ki,** (qiyamət günü) **onun sümüklərini bir yerə yığa bilməyəcəyik?! Bəli, Biz onun barmaqlarını da** (barmaq sümüklərini də, barmaqlarının uclarını da) **düzəltməyə qadirik!"** (əl-Qiyamə, 3-4)

Göründüyü kimi daim Qurani-Kərim qarşıda gedir, bəşər elm isə onu təsdiq edərək ardında gəlir.

Eynilə barmaq izi kimi insanların gözləri də bir-birindən fərqlidir. Şifrə yerinə sahibini gözündən tanıyaraq işlədilən cihazlar, açılan kompyuterlər və ya qapılar gündəlik həyatda getdikcə artır.

1cm$^2$ belə olmayan kiçik bir sahədə sonsuz fərqlilikləri yaradan Allah-Təala necə də ucadır!

### *Gen Xariqəsi*

Genetika elmində edilən yeni kəşflər də hər insanın özünəxas başqa bir şifrəsinin olduğunu da ortaya çıxarmışdır.

Üstəlik bu gen deyilən şeylər o qədər kiçikdir ki, yer üzündəki bütün canlıların genləri bir yerə yığılsa, bir dərzi üsküyünü belə doldurmaz.

Mikroskopla belə görünməyən bu genlər hər canlı hüceyrəyə yerləşirlər və bütün insan, heyvan və bitkilərə öz xüsusiyyətlərini verirlər. Bir üskük altı milyarddan artıq insanın ayrı-ayrı bütün fərdi xüsusiyyətlərini doldurmayacaq qədər kiçik görünə bilər, ancaq bu xüsusdakı həqiqətlər tərəddüdə yer qoymur.

Bəs yaxşı, elə isə gen deyilən bu şey necə olur ki, sayı bilinməyəcək qədər çox canlının xüsusiyyətlərini içində gizləyə bilir? Necə olur ki, inanılmayacaq qədər kiçik bir yerdə ayrı-ayrı hər birinin psixologiyasına qədər bütün xüsusiyyətlərini mühafizə edə bilir?!

Mikroskopla belə görülə bilməyən kiçik bir gen içində saxlanan bir neçə milyon atomun yer üzündəki bütün həyatı qəti olaraq idarə edə bilmə keyfiyyəti, yalnız hikmət sahibi bir yaradıcının son-

suz bir elm və qüdrətinin əsəri ola bilər, başqa heç bir nəzəriyyəyə imkan yoxdur.[51]

Belə ki, bu həqiqətə işarə edərək Uca Rəbbimiz belə buyurur:

“(Ey Peyğəmbərim!) **Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən** (gələcək) **nəsillərini çıxardıb onların özlərinə** (bir-birinə) **şahid tutaraq: “Mən sizin Rəbbiniz deyiləmmi?” - soruşmuş, onlar da: “Bəli, Rəbbimizsən!” - deyə cavab vermişdilər.** (Belə bir şahidliyin səbəbi) **qiyamət günü: “Biz bundan qafil idik.” - deməməniz üçündür.”** (əl-Əraf, 172)

Ancaq zəmanəmizdə kəşf edilə bilmiş olan bu və buna oxşar ilahi qüdrət və sənət təzahürləri ağılları aciz qoyur. Elə buna görədir ki, hələ XIX əsrdə **Ziya Paşa** bu hikmətli beyti söyləmişdir:

*Sübhanə mən təxayyəra fi sunihil-ukul*
*Sübhanə mən bi-qudrətihi yacizul-fuhul.*

*“Sənəti qarşısında ağılların heyrətə düşdüyü, qüdrəti ilə ən üstün alimləri belə aciz qoyan Allah-Təalanı təsbih edirəm...”*

## *Vücud Fabrikini İşlədən Kimdir?*

İnsan - başda özü olmaqla göylərdə və yerdəki canlıların hər şeyləri ilə Allah-Təalaya möhtac

51. *Elm-Əxlaq-İman*, Hazırlayan: M. Rəhmi Balaban, s. 189-190.

olduğunu daim müşahidə etməlidir. Ən sadə bir misal olaraq bunu görməlidir:

Vücudumuzdakı fəaliyyətlərin demək olar ki, hamısı iradəmiz xaricində idarə edilir. Məsələn, ürək döyüntülərimiz, nəfəs alıb verməyimiz, digər bütün orqan və hüceyrə daxili fəaliyyətləri ilə bunlar arasındakı xəbərləşmə və yardımlaşma da belədir. İnsan vücudunda ilahi bir proqram daxilində möhtəşəm bir ahənglə işləyən orqanların və ya təkcə tək bir toxuma hüceyrəsi içindəki yüzlərlə növ biokimyəvi reaksiyanın idarə edilməsi və nəzarəti bir günlük bizim əlimizə verilsəydi, bəlkə bir neçə dəqiqə belə tab gətirə bilməz, kim bilir onu neçə dəfə xarab edərdik?[52]

Necə ibrətlidir ki, bir tərəfdə on tonluq bir filin (Allah-Təalanın izni ilə) on yaşındakı bir uşağa tabe olduğunu görürük, digər tərəfdə isə (insanın acizliyinin bir ifadəsi olaraq) gözlə görülə bilməyəcək qədər kiçik bir virusun necə güclü-qüvvətli cüssələri yerə sərdiyini!..

Deməli, insan Allah-Təalanın lütf etdiyi güc və qüdrəti heç bir zaman nəfsinə aid etməməli, əsla böyüklənməməli, nemətin əsl sahibini unutmamalı, daim şükür duyğuları içində olmalı və ilahi qüdrət qarşısında özünün bir toz zərrəsi belə olmadığını dərk edib Haqqa yönəlməlidir.

Xülasə, biz burda insan üzərində nümayiş etdirilən saysız ilahi hikmət və qüdrət təcəlliləri

52. Bax: Şakir Kocabaş, *Quranda Yaradılış*, s. 115.

içindən bir neçə misala qısa təmas etdik. İnsan üzərində düşünüldükdə Allah-Təalanın ona daha neçə-neçə sirr və hikmətlər verdiyi görünəcəkdir. Yəni insanın hər bir zərrəsi üçün bir kitab yazılsa yenə də azdır.

## İNSAN NƏ ÜÇÜN YARADILMIŞDIR?

Ən gözəl şəkildə yaradılıb kərəmli qılınan və Allah-Təalanın bir çox lütflərinə nail olan insanın bu dünyadakı əsl vəzifəsi nədir? Ondan gözlənilən nədir? Məsuliyyətləri nələrdir?

Allah-Təala belə buyurur:

**“Yoxsa sizi əbəs yerə yaratdığımızı və** (qiyamət günü dirilib haqq-hesab üçün) **hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?”** (əl-Muminun, 115)

**“Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!”** (əz-Zariyat, 56)

İnsan orqanizimdəki hər bir hüceyrə üçün min dəfələrlə şükür etməlidir. Bunu da ibadət, sədəqə, haqqı və səbri tövsiyə, yaxşılıq və xeyirxahlıq kimi əməllərlə göstərməlidir. Çünki hər nemətin bir əvəzi vardır və hər nemətə görə şükür edilməlidir.

**Rəsulullah** ﷺ belə buyurmuşdur:

*“İnsanların hər bir oynağı (əzası) üçün hər gün bir sədəqə lazımdır. Miniyinə minmək istəyənə kömək edərək mindirmək və ya yükünü miniyinə*

*yükləyənə yardım etmək sədəqədir. Gözəl söz sədəqədir. Namaz üçün məscidə gedərkən atılan hər addım bir sədəqədir. Yol göstərmək də bir sədəqədir.”* (Buxari, Cihad, 72. Bax: Müslim, Zəkat, 56)

*“Hər gün hər bir oynaq və sümüyünüz üçün bir sədəqə lazımdır. Hər təsbih sədəqədir, hər həmd sədəqədir, hər təhlil (“Lə iləhə illəllah” demək) sədəqədir, hər təkbir sədəqədir, yaxşılığı tövsiyə etmək sədəqədir, pislikdən çəkindirmək sədəqədir. Bəndənin quşluq vaxtı qılacağı iki rükət namaz bütün bunları əvəz edər.”* (Müslim, Müsafirin, 84, Zəkat, 56. Bax: Buxari, Sulh, 11, Cihad, 72, 128)

Digər bir rəvayətdə bunlara *“iki nəfər arasında ədalətlə hökm etmək”* və *“gəlib gedənlərə əziyyət verən şeyləri yoldan qaldırmaq”* da əlavə edilmişdir. (Bax: Buxari, Sulh, 11, Cihad, 72, 128; Müslim, Zəkat, 56)

Deməli, bu dünyada Allah-Təalaya gözəl bir bəndə olmağa cəhd etmək vacibdir. Həyatını ibadət, itaət və xeyirxahlıq ilə dolu yaşayaraq axirətə ən gözəl şəkildə hazırlanmaq lazımdır.

## ÖLÜM MÜƏMMASINI AÇA BİLMƏK

**Məhəmməd bin Kab əl-Kurazi** belə nəql edir:

Bir zamanlar **Ömər bin Əbdüləziz** ilə Mədineyi-Münəvvərədə qarşılaşmışdım. Həmin vaxt çox yaraşıqlı, bığ yeri yenicə tərləmiş bir gəncdi və bolluq içində yaşayırdı. Daha sonra xəlifə oldu-

ğunda yanına getdim, izin istəyib içəri girdim. Onu gördükdə təəccübləndim və üzünə mat-mat baxmağa başladım. Mənə:

"-Ey Məhəmməd, nə üçün elə heyrətlə baxırsan?" - dedi.

"- Ey Möminlərin Əmiri, rənginiz solmuş, bədəniniz taqətdən düşmüş, saçlarınız ağarmış və tökülmüş! Sizi bu halda gördükdə heyrətimi gizlədə bilmədim." - dedim.

Bunun üzərinə Ömər bin Əbdüləziz mənə belə dedi:

"- Ey Məhəmməd, məni qəbrə qoyulduğumdan üç gün sonra görsən kim bilir nə qədər təəccüblənəcəksiniz? O zaman qarışqalar gözlərimi çıxarmış, gözlərim yanaqlarımın üzərinə axmış, ağzım burnum qan və irinlə dolmuş olacaq. Məhz o zaman məni heç tanıya bilməz və daha çox təəccüblənərsən. İndi bunları bir kənara qoy və sən mənə İbn Abbasın Rəsulullahdan ﷺ rəvayət etdiyi hədisi təkrar et..." (Hakim, IV, 300/7706)

İnsan hər şeydən artıq öz aqibətini təfəkkür etməlidir: Son nəfəsi necə olacaq, qəbir həyatında nələrlə qarşılaşacaq və axirətdə hansı məqamda olacaq? Məhz insan üçün ən mühüm məchullar bunlardır. Yəni qundaq ilə tabut arasındakı macəranın sirrini, bu dünyaya gəliş və buradan da axirətə köçüşün hikmətini qavraya bilmək... İnsan bu müəmmanı çözüb əbədi nicat tapa bilmək üçün ömür boyu əmək sərf etməlidir.

İnsan oğlu ilk növbədə faniliyi təfəkkür etməlidir. Belə ki, bu dəqiq bir həqiqətdir ki:

**“Yer üzündə olan hər kəs fanidir** (ölümə məhkumdur)**.”** (ər-Rəhman, 26)

Bir gün gələcək ki, o günün sabahı olmayacaq! Həmin gün hər birimiz üçün məchul bir gündür! Allah-Təala belə buyurur:

**“Ölüm** (ölüm bihuşluğu)**, həqiqətən, gələcəkdir.** (Ey insan!) **Bu sənin qorxub qaçdığın** (cürbəcür vasitələrlə canını qurtarmaq istədiyin) **şeydir!** (Öləndən sonra yenidən dirilmək üçün) **sur çalınacaqdır. Bu vəd olunmuş gündür** (əzab günüdür)**!”** (Qaf, 19-20)

Hər kəs bu dünyaya bir qapıdan, yəni ana rəhmindən girir. Nəfsani və ruhani davranış və hisslərlə dolu əngəlli bir qaçış yeri olan dünya həyatını yaşayır. Bu dar dəhlizi keçdikdən sonra nəhayət qəbir qapısından əbədi aləmə köç edir.

Məhz dünya iki qapılı bir ev kimi Həzrət Adəmdən bu günə qədər bu şəkildə saysız insanla dolub boşaldı. Yaxşı, onlar indi hardadır? Bir müddət sonra biz harda olacağıq? Bilinmir... Ancaq bu dəqiqdir ki, zalımlara da, məzlumlara da, abidlərə də, fasiqlərə də ölüm gəlib çatdı və indi onların hamısı əbədi həyatın başlanğıcı olan qiyaməti gözləyirlər...

Bir anlıq düşünsək ki, üzərinə basıb keçdiyimiz yer bu günə qədər gələn milyardlarla insanın

torpağa dönmüş cəsədləri ilə doludur. Sanki üst-üstə düşmüş milyardlarla kölgə kimi... Sabah biz də torpağın bağrına əməllərimizlə basdırılaraq bu sıx kölgənin içinə süzüləcəyik. Ondan sonra əbədi bir həyat və sonsuzluğa səfər başlayacaq. Ona görə də bir az durub düşünək: Anı sonsuzluğa dəyişdirmək hansı ağılın işidir?!

Ayeyi-kərimədə Rəbbimiz:

**"Onu** (qiyaməti) **gördükləri gün** (dünyada) **yalnız bir axşam, yaxud bir səhər qaldıqlarını sanacaqlar!"** (ən-Naziat, 46) - buyuraraq dünya həyatının əbədi həyatla müqayisədə qısa olduğunu xəbər verir.

Şair də bu həqiqəti izah edərək dünya həyatının yekununu baxın necə xülasə edir:

*Nazənin bu ömrümüz, bir göz yumub açmış kimi,*
*Gəldi keçdi duymadıq, bir quş qonub uçmuş kimi.*

(Aşiq Paşa)

Ona görə də bu qısa ömür sərmayəsini heç bitməyəcəkmiş kimi axmaqca sərf etməkdən daha dəhşətli bir bədbəxtlik ola bilərmi?

## *Ölümü Təfəkkür: Təfəkküri-Mövt*

**Rəsulullah** ﷺ ölümü çox-çox xatırlamağı əmr edər, dünyaya dalıb getməyimizi istəməzdi.[53] *"Əbədiyyət yurduna iman etdiyi halda sırf aldadıcı*

53. Bax: Tirmizi, Zöhd, 4; Nəsai, Cənaiz, 3.

*dünya üçün çalışıb çabalayan kimsəyə nə qədər heyrət edilsə yeridir!"* - buyururdu. (Qudai, Şihabu-l-Əxbar, 383)

İnsan dünya ilə əlaqəsinin kəsiləcəyini, xeyir və ya şər nə etmişsə onlarla baş-başa qalacağını, əməllərinin əvəzini əskiksiz görəcəyini düşündükdə günahlardan uzaqlaşır və saleh əməllərə daha çox meyil edər. Yəni ölümü təfəkkür etmək şüurlanmağa, həyata nizam-intizamlı yanaşmağa və axirəti gözəlləşdirməyə səbəb olur. Belə ki, bir hədisi-şərifdə buyururlur:

*"Ölümü çox-çox xatırlayın! Çünki ölümü xatırlamaq (insanı) günahlardan təmizləyir, dünyaya qarşı zahid qılar. Əgər zəngin ikən ölümü düşünsəniz, sizi zənginliyin bəlalarından qoruyar. Fağır ikən təfəkkür etsəniz, həyatınızdan razı olmağınızı təmin edər."* (Suyuti, Camius-Sağir, I, 47)

Həmçinin Allah Rəsulu ﷺ təfəkküri-mövtə sövq edərək belə buyurur:

*"Mən sizə qəbir ziyarətlərini qadağan etmişdim. İndi artıq ziyarət edə bilərsiniz. Çünki qəbir ziyarəti sizə axirəti xatırladır."* (Tirmizi, Cənaiz, 60; Müslim, Cənaiz, 106)

*"Ölümü və öldükdən sonra cəsəd və sümüklərin çürüməsini xatırlayın! Axirət həyatını istəyən dünya həyatının bərbəzəyini tərk edər."* (Tirmizi, Qiyamət, 24)

*“...Kim ölümü çox-çox xatırlayarsa, Allah onu sevər.”* (Heysəmi, X, 325)

Bir səhabə Peyğəmbərimizdən ﷺ soruşdu:

**“- Möminlərin ən ağıllısı kimdir?”** Rəsulullah ﷺ belə buyurdu:

*“- Ölümü ən çox xatırlayan və ölümdən sonrası üçün ən gözəl şəkildə hazırlıq görəndir. Məhz (həqiqi) ağıllılar onlardır.”* (İbn Macə, Zöhd, 31)

## *Əshabi-Kiramın Təfəkküri-Mövtü*

**Əbu Bəkr** رضي الله عنه bir xütbəsində belə buyurmuşdur:

“Hər kəsin heyran olduğu gözəl üzlü insanlar hardadır?! Hardadır, gəncliyi ilə lovğalanan igidlər?! Hardadır, ehtişamlı şəhərlər qurub ətrafını yüksək qalalarla bərkidən hökmdarlar?! Hardadır, hərb meydanlarının məğlubedilməz qəhrəmanları?! Zaman hamısını çürüdüb yerlə bir etdi. Hamısı qəbirin qaranlığına tuş gəldilər. **Tələsin, tələsin! Vaxt itirmədən ağlınızı başınıza toplayın və ölümdən sonrası üçün bir an əvvəldən hazırlıq görün! Özünüzü xilas edin, özünüzü xilas edin!**” (İbnul Cövzi, Zəmmü-l-Həva, s. 668; Heyət, Nadratun-Naim, III, 960)

**Həzrət Aişə** (r.anhə) nəql edir:

Bir dəfə cəhənnəmi xatırlayıb ağladım. Rəsulullah ﷺ məni bu vəziyyətdə görüb:

*“- Ey Aişə, nə oldu?”* - deyə soruşdu.

“- Cəhənnəmi xatırladım və ağladım. Siz peyğəmbərlər qiyamət günü ailə üzvlərinizi xatırlayacaqsınızmı?” - dedim.

Allah Rəsulu ﷺ belə cavab verdi:

“Üç yer var ki, orada kimsə kimsəni düşünməz:

1. Mizanda əməllər çəkilərkən tərəzinin yüngül, yoxsa ağır gəldiyini öyrənmədən,

2. **“Alın, əməl dəftərimi oxuyun!”** (əl-Haqqa, 19) deyincəyə qədər əməl dəftərləri verilərkən dəftərinin sağından, solundan, yoxsa arxasından veriləcəyini bilmədən,

3. Bir də cəhənnəmin üstündə Sirat Körpüsü qurulduqda. Körpünün iki tərəfində də bir çox çəngəl və sərt tikanlar var. Allah-Təala bu çəngəllər vasitəsi ilə məxluqatından dilədiyini tutub cəhənnəmə atar. Məhz insan bu çəngəllərdən xilas olub olmayacağını öyrənmədikcə heç kimi düşünməz.” (Hakim, IV, 622/ 8722)

Səhabeyi-kiramdan **Üseyd bin Xudayr** رضي الله عنه fəzilətli insanlardan idi. Tez-tez belə deyirdi:

“Əgər bu üç haldan biri üzrə daim yaşaya bilsəm şübhəsiz cənnətliklərdən olaram:

1. Quranı oxuduğum və ya oxunan Qurana qulaq asdığım zamankı əhval-ruhiyyədə ola bilsəm,

2. Peyğəmbərimizin söhbətlərini dinlədiyim zaman büründüyüm ruh halımı davam etdirə bilsəm,

3. Bir cənazə dəfnində keçirdiyim hissləri davam etdirə bilsəm. Bəli, nə zaman bir cənazə dəfnində iştirak etsəm, öz-özümə: "Görəsən öldüyündə halın necə olacaq, sənə nələr ediləcək və sonda hara göndəriləcəksən?!" - deyə düşünürəm." (Bax: Əhməd, IV, 351; Hakim, III, 326/5260)

### *Təfəkküri-Mövtün Faydaları*

**"İnsanlara nəsihət olaraq ölüm kifayət edər."**[54] hədisində də ifadə edildiyi kimi düşünən və ibrət alan kimsə üçün ölümdə bir çox dərslər vardır.

Dünyanın müvəqqəti mal, məqam, mövqe və nəfsani gözəlliklərini həddindən artıq dərəcədə sevmək və onlara könül bağlamaq mənəvi xəstəliklərin başlıcalarıdır. Həsəd, təkəbbür, riya və nəfsani ehtiraslar da dünya sevgisinin məhsuludur. Bu cür pis xasiyyətlərdən və mənəvi xəstəliklərdən qoruna bilmək üçün ən faydalı əlaclardan biri ölümü, qəbri və axirət halını təfəkkür etməkdir.

Təsəvvüfün əsas məqsədi də nəfsə qalib gələrək onun xudbinliyindən qorunmaq və dünya sevgisini qəlbdən çıxarmaqdır. Bu səbəblə təfəkküri-mövt bir çox təriqətdə bu məqsəd üçün müraciət edilən bir üsul olmuşdur. Mürid gündəlik dərslərini icra edərkən beş və ya on dəqiqə müddətində ölümü düşünür.

54. Heysəmi, *Məcmauz-Zəvaid*, Beyrut 1998, X, 308.

Osmanlı dövründə qəbiristanların şəhər mərkəzlərində, yol kənarlarında və camelərin həyətində olması ölümü düşünməyi asanlaşdırmaq üçündür. Bunu görən qərbli bir səyyah:

**“Türklər ölüləri ilə birlikdə yaşayırlar.” -** demişdir.

Ölümü tez-tez xatırlayıb nəfsani arzuları dəf edərək axirətə hazırlanmaq insanı son nəfəsdəki ürək dağlayan peşmanlıqlardan mühafizə edər. Allah-Təala ölüm anında yuxudan oyanan kimi özünə gələn insanın dərin bir peşmanlıqla belə dediyini xəbər verir:

**“...Ey Rəbbim! Mənə bir az möhlət versəydin, sədəqə verib salehlərdən olardım! - deməmişdən əvvəl sizə verdiyim ruzidən** (Allah yolunda) **xərcləyin.”** (əl-Münafiqun, 10)

Məhz bu acı peşmanlıq və çarəsizliyi yaşamamaq üçün vaxtında oyanmağımız və fürsəti əldən qaçırmamışdan əbədi olan axirət həyatına hazırlanmağımız lazımdır.

**Həsən Bəsri** həzrətləri bir cənazə dəfnində iştirak etmişdir. Dəfn işləri qurtardıqdan sonra yanındakı bir nəfərdən soruşdu:

“- Bu vəfat edən insan görəsən bu anda dünyaya geri qayıdıb saleh əməllərini, zikrlərini artırmağı və günahlarına daha artıq istiğfar (tövbə) etməyi düşünürmü?” Həmin adam belə cavab verdi:

"- Bəli, təbii ki, düşünür!"

Bunun müqabilində Həsən Bəsri həzrətləri belə buyurdu:

"- Elə isə biz nə üçün onun kimi düşünmürük?" (İbnul-Cövzi, Həsənul-Bəsri)

## *Ölümün Dəhşətinə Hazırlana Bilmək*

**Həsən Bəsri** həzrətləri belə buyurmuşdur:

"İki gün və iki gecə vardır ki, məxluqat onlar kimisini əsla eşitməmiş və görməmişdir:

Bu gecələrin birincisi, qəbir əhli ilə qaldığın ilk gecədir. Bundan əvvəl onlarla heç qalmamışdın.

İkincisi, sabahı qiyamət olan gecədir ki, artıq gecəsi olmayan bir gün başlayacaqdır.

Ən dəhşətli bu iki gün gəldikdə birincisi, Allah-Təaladan bir xəbərçinin gəlib Onun səndən razı olub olmadığını, sənin cənnətə və ya cəhənnəmə gedəcəyini bildirdiyi gündür.

İkinci gün isə, əməl dəftərinin sağ və ya sol tərəfindən verilərək Allah-Təalanın hüzuruna çıxarılacağı gündür." (Bax: İbnul-Cövzi, əz-Zəhrul-Fatih, s. 25; Əbul-Fərəc Abdurrəhman, Əhvalul-Qubur, s. 154)

İnsan üçün ən böyük imtahan və ən dəhşətli bəla ölümdür. Ancaq ondan daha pis olan isə ölümdən xəbərsiz yaşamaq, onu yaddaşdan uzaq tutmaq və Haqqa layiq əməllər edə bilməməkdir.

Ağıllı insana lazım olan isə ölüm gəlmədən əvvəl ona hazırlanmaq və nəfsini pis əxlaqdan təmizləməkdir.

**Şeyx Sədi** belə deyir:

"Ey qardaş, axırda torpaq olacaqsan! Torpaq olmadan torpaq kimi təvazökar olmağa çalış!"

**Həzrət Ömər** رضي الله عنه belə buyurmuşdur:

"Hesaba çəkilmədən əvvəl özünüzü hesaba çəkin. Ən böyük ərz (Allah-Təalanın hüzuruna çıxarılıb Ona ərz ediləcəyiniz gün) üçün (saleh və gözəl əməllərlə) bəzənin! Şübhəsiz dünyada ikən nəfsini hesaba çəkən kimsə üçün qiyamət günündəki hesab xəfif olacaqdır." (Tirmizi, Qiyamət, 25/2459)

Fani vücudumuz qəbrə dəfn edilərkən övladımız və malımız arxada qalacaq. Biz, ancaq əməllərimizlə torpağın bağrına basdırılacağıq. Orada kəfənlərimizlə birlikdə bədənlərimiz də torpaq olacaq. Arxada bizimlə birlikdə yalnız saleh əməllərimiz qalacaq.

**İmam Qəzali** həzrətləri belə buyurur:

"Ölüm anında insanla birlikdə ancaq üç xüsusiyyəti qalır:

**1. Qəlb təmizliyi**, yəni qəlbin dünya kirlərindən təmizlənmiş olması. Allah-Təala belə buyurur:

قَدْ اَفْلَحَ مَنْ زَكّٰيهَا

**“Nəfsini** (günahlardan) **təmizləyən mütləq nicat tapacaqdır!”** (əş-Şəms, 9)

**2. Allahın zikri ilə ünsiyyət.** Allah-Təala belə buyurur:

اَلاَ بِذِكْرِ اللّٰهِ تَطْمَئِنُّ الْقُلُوبُ

**“...Bilin ki, qəlblər** (möminlərin ürəkləri) **yalnız Allahı zikr etməklə aram tapar!”** (ər-Rad, 28)

**3. Allah üçün məhəbbət bəsləməsi.** Allah-Təala belə buyurur:

قُلْ اِنْ كُنْتُمْ تُحِبُّونَ اللّٰهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللّٰهُ
وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَاللّٰهُ غَفُورٌ رَحِيمٌ

**“**(Ya Rəsulum!) **De: Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, mərhəmətlidir!”** (Ali-İmran, 31)

Qəlb təmizliyi ancaq mərifətlə, yəni Allah-Təalanı qəlbdə tanımaqla mümkündür. Mərifət də davamlı zikr və təfəkkürlə məşğul olmaz nəticəsində əldə edilə bilir. Məhz bu üç sifət insanı nicata aparan vəsflərdir.” (Ruhul-Bəyan, XI, 274)

Əgər insan “sabah” üçün lazımi hazırlığı edə bilərsə, ölümü gözəlləşməyə başlayar. Artıq o insan ölümdən qorxmaz.

Belə ki, **Bişr bin Haris** həzrətləri belə deyir:

"Allaha itaət edən bir şəxs üçün qəbir nə gözəl bir mənzildir."[55]

**Həzrət Mövlana** da nə gözəl deyir:

*"Oğul, hər kəsin ölümü öz rəngindədir, insanı Allaha qovuşdurduğunu düşünmədən ölümə nifrət edənlərə və düşmən olanlara ölüm qorxulu bir düşmən kimi görünər. Ölümlə dost olanların qarşısına da dost kimi çıxar.*

*Ey ölümdən qorxub qaçan can! İşin əslini, sözün doğrusunu bilmək istəyirsənsə, sən əslində ölümdən qorxmursan, sən özündən qorxursan.*

*Çünki ölüm güzgüsündə görüb ürkdüyün ölümün çöhrəsi deyil, sənin öz çirkin üzündür. Sənin ruhun bir ağaca oxşayır. Ölüm isə həmin ağacın yarpağıdır. Hər yarpaq ağacın cinsinə görədir..."*

Xülasə, ölümümüz və qiyamətə qədər davam edəcək olan qəbir həyatımız dünyadakı vəziyyətimizə və əməllərimizə görə şəkillənəcəkdir.

Elə buna görə də, Allah-Təala bir çox ayeyi-kərimədə dünya və axirət halını bizə açıqlayır. Dünyanın sona çatacağını, bir gün dağılıb yox olacağını düşünərək onun aldatma və azdırmalarından uzaq olmağımızı istəyir. Axirətin də hər keçən gün bizə yaxınlaşdığını və əbədi olaraq davam edəcəyini təfəkkür edərək əsl ona rəğbət etməyimizi əmr edir.

55. Heyət, *Nadratun-Naim*, III, 963; Əbul-Fərəc Abdurrəhman, *Əhvalul-Qubur*, s. 155.

Bu səbəblə bir bəndənin ölmədən əvvəl bütün günahlardan nasuh bir tövbə ilə vaz keçməsi və Allahın əmr və qadağanlarına itaət xüsusundakı nöqsanlarını düzsəltməsi lazımdır. Həmçinin zülm etdiyi insanların haqlarını bir-bir ödəməlidir. Yəni dili ilə küfr, böhtan, lağ və ya qeybət etdiyi; əli ilə vurduğu; qəlbi ilə sui-zənn bəslədiyi insanlardan halallıq istəməli, ölmədən əvvəl üzərindəki haqq və borclardan təmizlənməlidir.

Qafil insan dünyada başqalarının haqqını yediyi üçün sevinə bilər; səfalətini səadət zənn edə bilər. Ancaq sabah ədalət tərəziləri qurulub ona: **"Sən xor, aciz və fağır bir müflissən. Artıq burada hər hansı bir haqqı ödəyə bilməz, heç kimdən üzr istəyə bilməzsən!"** deyildiyində nə qədər peşman olacağını kimsə təxmin edə bilməz.

Əməvi xəlifələrindən **Əbdulməlik bin Mərvan** ölümü yaxınlaşdıqda Şamın ətraf məhəllələrində paltarını əlinə götürüb təmizləmək üçün daşa vuran bir adam gördü. Axirətdəki dəhşətli hasabı düşünərək dərindən bir ah çəkdi və:

"- Kaş ki, mən də bir təmizlikçi olardım! Nə olardı əlimin zəhməti ilə gündəlik qazanıb yeyərdim, dünya işlərinin heç birində söz sahibi olmazdım." - dedi. (İmam Qəzali, Ehya, VI, 114)

Ölümün dəhşətini düşünüb ona hazırlanmaqla birlikdə Allah-Təalanın rəhmətindən də heç bir zaman ümid kəsməmək lazımdır.

**Uqbə əl-Bəzzar** belə nəql edir:

“Bir bədəvi, dəfn edilməyə aparılan bir cənazə gördü. Ona tərəf baxaraq:

“- Təbrik edirəm səni, ey cənazə! Necə də xoşbəxtsən!” - dedi. Mən:

“- Onu nə üçün təbrik edirsən ki?” - deyə maraqla soruşdum. Belə cavab verdi:

**“- Son dərəcə comərd və kərəm sahibi bir Zatın həbsxanasına (yəni qəbiristana) aparılan bir insanı necə təbrik etməyim ki? O, elə bir Zatın yanına aparılır ki, Onun müsafirlərinə ikramı möhtəşəm, əfvi də çox böyükdür.”**

Sanki o zamana qədər heç belə gözəl bir söz eşitməmişdim.” (Əbul-Fərəc Abdurrəhman, Əhvalul-Qubur, s. 155)



# QURANDA TƏFƏKKÜR

Qurani-Kərim könül əhli olan möminlər üçün təfəkkür dünyasının dərinliklərinə açılan ehtişamlı bir qapıdır. Əngin bir təfəkkür üfüqüdür. Yerin və göyün lisanıdır. Ruha qida olan hikmətli bəyanları ilə sonsuz bir feyz xəzinəsidir. İnsana lütf edilən bir bəyan möcüzəsidir.

İslami ədəbiyyatda 1400 ildən bəri yazılan minlərlə əsər tək bir “Kitab”ı başa düşərək onda dərinləşmək və tək bir “İnsan”ı daha yaxından tanıyaraq Onda fani ola bilmək üçündür.

## QURANDA TƏFƏKKÜR

İnsan oğlu yaradılış etibarı ilə təfəkkürə meyillidir. Lakin insan ağlını nəfsani hesabların dar hüdudlarından xilas edib haqqa və xeyirə istiqamətləndirəcək bir rəhbərə ehtiyac var. Ən əmin rəhbər və bələdçi isə Allahın kitabı Qurani-Kərim və onun əməli təfsiri olan Rəsulullahdır ﷺ.

Əsasən bəşəriyyətə rəhmət olaraq göndərilən Qurani-Kərim könül əhli olan möminlər üçün təfəkkür dünyasının dərinliklərinə açılan ehtişamlı bir qapıdır. Əngin bir təfəkkür üfüqüdür. Yerin və göyün lisanıdır. Ruha qida olan hikmətli bəyanları ilə sonsuz bir feyz xəzinəsidir. İnsana lütf edilən bir bəyan möcüzəsidir.

Qurani-Kərim insan və kainatın şərhidir. **Kainat, insan** və **Quran** bir-birinə bağlı və bir-birini ən gözəl şəkildə şərh edən üç aləmdir. Quranda dərinləşən şəxs özünü və Rəbbinin lütflərini oxuyur; kainatın hikmət səhifələrini çevirməyə başlayar. Neçə-neçə ilahi sirlər ona aydın olur. Qəlbindən uzaqlara pəncərələr açılar.

İnsan oğlunu mənən həlaka sürükləyən nəfsani və xudbin hisslərin əlacı Qurandır. İnsanı heyvanlardan daha aşağı bir vəziyyətə düşürən iffətsizlikdən xilas olmağın çarəsi də Qurandır. Ədalət hisslərinin zülmə çevrilməməsi üçün alınacaq tədbir də həmçinin Qurandır. Xülasə, insan oğlunun hər cəhətdən möhtac olduğu ən böyük səadət resepti, ancaq Qurani-Kərimdədir.

## *Quranı Allah Öyrətdi*

Qurani-Kərim Allah-Təalanın bəşəriyyətə ilahi dərgahından lütf etdiyi ən böyük hədiyyədir. Ayeyi-kərimədə buyurulur:

**“Rəhman! Quranı öyrətdi. İnsanı yaratdı. Ona danışmağı** (fikrini və duyğularını bəyan etməyi) **öyrətdi.”** (ər-Rəhman, 1-4)

Allah-Təala sonsuz rəhmətinin böyük bir təcəllisi olaraq insana Quranı təlim edib bu vəsilə ilə ona neçə-neçə sirr və hikmətlər lütf etmişdir. Elə isə insan Quranı öyrənib o ilahi təlimatlar içində ilk növbədə daxili aləmini inkişaf etdirməli, sonra da hər hal və hərəkətləri ilə sanki canlı bir Quran ola bilməyə səy göstərməlidir. Bundan sonra da onu fəsih və bəlağətli bir dil ilə bütün bəşəriyyətə çatdırmağa çalışmalıdır.

## *Bütün Kitablar Tək Bir KİTAB Üçündür*

İslami ədəbiyyatda 1400 ildən bəri yazılan minlərlə əsər tək bir **"Kitab"**ı başa düşərək onda dərinləşmək və tək bir **"İnsan"**ı daha yaxından tanıyaraq onda fani ola bilmək üçündür. Yer üzündəki bütün ağaclar qələm, bütün dənizlər də mürəkkəb olsa, yenə də Qurani-Kərimin ehtiva etdiyi hikmət və həqiqətləri sayıb qurtarmaq mümkün deyil.[56] Bütün elm və hikmətlərin şifrəsi ondadır. İki cahan səadətinin açarları da həmçinin ondadır.

Qurani-Kərim daim öndən gedir, bəşəri elmlər isə onu arxadan təqib edir. Hər dövrdə yeni-yeni elmi kəşflər Quran həqiqətlərini təsdiq və təfsir edir.

Allah-Təala belə buyurur:

**"Onun** (Quranın) **haqq olduğu bəlli olsun deyə, Biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə** (üfüqlərdə, kainatda, göylərin və yerin ətrafında)**, həm də onların öz daxilində mütləq göstərəcəyik. Məgər Rəbbinin hər şeyə şahid olması kifayət deyilmi?!"** (Fussilət, 53)

Qurani-Kərim üzərində tədqiqatlar davam etdikcə onun yeni-yeni möcüzələri zühur edir və edəcəkdir. Belə ki, **Allah Rəsulu** (s.ə.s) alimlərin Qurandan doymadığını, Quranın çox təkrar edilməsi səbəbi ilə təzəliyini əsla itirmədiyini və insanı təəccübləndirən, heyranedici tərəflərinin bitib tükənməyəcəyini xəbər vermişdir.[57]

---

56. Bax: Loğman, 27.
57. Bax: Tirmizi, Fəzailul-Quran, 14; Darimi, Fəzailul-Quran, 1.

## QURANİ-KƏRİM TƏFƏKKÜRLƏ OXUNMALIDIR

İslam alimləri Quran qiraətindəki məqsədin onun hikmət və mənalarını təfəkkür etmək və lazımınca əməl etmək olduğunu deyirlər.

İnsan müfəkkirəsi (düşünmə gücü) üçün Qurani-Kərimi oxumaqdan daha faydalı bir şey yoxdur. Çünki Qurani-Kərim insan oğlunun bütün məqam və hallarını bilən Allahın kəlamıdır. Yəni Qurani-Kərim insan oğlunua güzgü tutaraq özünü ən doğru şəkildə tanımasını təmin edir. Buna görə də hər mömin Quranı daim oxumalı, Allah-Təalanın bu bəyanlarındakı muradı nədir, deyə təfəkkür etməlidir.

Bu şəkildə bir ayeyi-kəriməni təfəkkür və tədəbbürlə (gələcəyi düşünmək) oxumaq, təfəkkürsüz oxunan bir xətmdən daha xeyirlidir. Çünki Quranın hər kəlməsində saya bilməyəcəyimiz qədər sirlər mövcuddur. İnsan ancaq incə təfəkkür, yüksək əxlaq və əməli-salehlərlə əldə etdiyi pak bir qəlb və rəqiq bir könüllə o sirlərin fərqinə vara bilir.

Allah-Təala belə buyurur:

**“...Biz açıq-aşkar ayələr nazil etdik ki, bəlkə, düşünüb ibrət alasınız!”** (ən-Nur, 1)

“(Ya Peyğəmbər! Bu Quran) **sənə nazil etdiyimiz mübarək** (xeyir-bərəkətli) **bir Kitabdır ki,** (insanlar) **onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də** (ondan) **ibrət alsınlar!”** (Sad, 29)

**“Onlar Quran barəsində düşünməzlərmi? Yoxsa ürəklərinə kilid vurulmuşdur?”** (Muhəmməd, 24)

Rəsulullaha ﷺ:

“-Quran oxumaq üçün hansı səs və qiraət daha gözəldir?” deyə soruşdular. Peyğəmbərimiz ﷺ o belə cavab verdi:

*“-Quran oxuyuşunu eşitdiyində Allahdan qorxduğunu hiss etdiyin şəxsin səsi və qiraəti.”* (Darimi, Fəzailul-Quran, 34)

Şeytanın vəsvəsə verdiyi işlərin başında Quran oxumaq gəlir. Çünki Quranı oxuyub onun vədini, təhdidini, açıq-aşkar ayələrini və təfsirini düşünən şəxs saleh əməllərə daha böyük həvəslə yönəlir. Şübhəli şeylərdən və haramlardan daha çox uzaq durur. Bu şəkildə Quran oxumaq saleh əməllərin ən fəzilətlisi olduğuna görədir ki, şeytan insanları Qurandan uzaqlaşdırmaq üçün bütün gücü ilə çalışır. Məhz bu hikmətə görə Quran oxumadan əvvəl istiazə etmək (sığınmaq), yəni “أَعُوذُ بِاللّٰهِ مِنَ الشَّيْطَانِ الرَّجِيم” demək, əmr edilmişdir. Belə ki, ayeyi-kərimədə buyurulur:

**“Quran oxumaq istədiyin zaman məlun Şeytandan Allaha sığın!”** (ən-Nəhl, 98)

## *Allah Rəsulu ﷺ Qurani-Kərimi Necə Oxuyurdu?*

**Allah Rəsulu** ﷺ Qurani-Kərimi təmkinlə, dənə-dənə və hissi dərinlik içində oxuyurdu. Ayeyi-kərimələrin mənaları üzərində təfəkkür edər və əmrlərini dərhal həyatına tətbiq edərdi. Allahı təsbih etməkdən bəhs edən ayələrə gəldikdə “Sübhanallah” kimi təsbih ifadələri ilə Allahı nöqsan sifətlərdən uzaq tutardı. Dua ayələri gəldikdə onlarla Allaha yalvarırdı. Allah-Təalaya sığınmaqdan bəhs edən ayələri oxuduqda isə dərhal Allaha sığınırdı.[58]

Bəzən bir ayeyi-kəriməyə elə bağlanırdı ki, gecədən sübhə qədər həmin ayə ilə təfəkkür və niyaz halında olurdu.

**Əbu Zər** رضي الله عنه belə nəql edir:

Rəsulullah ﷺ bir gecə qiyamda sübhə qədər bu ayeyi-kəriməni təkrar edib durdu:

اِنْ تُعَذِّبْهُمْ فَاِنَّهُمْ عِبَادُكَۚ وَاِنْ تَغْفِرْ لَهُمْ
فَاِنَّكَ اَنْتَ الْعَزِيزُ الْحَكِيمُ

**“Əgər onlara əzab versən, şübhə yoxdur ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, yenə şübhə yoxdur ki, Sən yenilməz qüvvət sahibi, hikmət sahibisən.** (İstədiyin bəndəyə əzab verməyə, istədiyini bağışlamağa və hər hansı bir məsələni həkimanə həll etməyə qadir

58. Bax: Müslim, Müsafirin, 203; Nəsəi, Qiyamul-Leyl, 25/1662.

olan ancaq Sənsən!)**”** (əl-Maidə, 118) (Nəsəi, İftitah, 79; Əhməd, V, 156)

Allah Rəsulu ﷺ bir gün yuxarıdakı ayeyi-kərimə ilə:

**“Ey Rəbbim! Onlar** (bütlər)**, həqiqətən, çox insanı** (haqq yoldan) **azdırıblar. İndi kim arxamca gəlsə, o, şübhəsiz ki, məndəndir...”** (İbrahim, 36) ayəsini oxudu. Sonra da əllərini qaldırıb:

“Allahım! Ümmətim, ümmətim!” deyə yalvarmağa başladı. Bu sözləri deyərkən ağlayırdı. Bunun müqabilində Allah-Təala:

“- Ey Cəbrail! Baxmayaraq ki, Rəbbin hər şeyi daha yaxşı bilir, ancaq (insanlar da bilsin deyə) get, Məhəmməddən nə üçün ağladığını soruş!” buyurdu.

Cəbrail (ə.s) gəldi. Rəsulullah (s.ə.s) ümmətinə görə qorxduğu üçün ağladığını ona dedi. Bunun müqabilində Allah-Təala:

“- Ey Cəbrail! Məhəmmədin yanına get və ona: “Ümmətin haqda səni razı edəcəyik və səni əsla üzməyəcəyik.” deyə müjdəmizi çatdır.” buyurdu. (Müslim, İman, 346)

Məhz Allah Rəsulu ﷺ ümmətinə belə təşnə və mərhəmətli idi. Bu hədisi-şərifi yaxşı-yaxşı təfəkkür edərək bizim ona nə qədər məhəbbət bəslədiyimizi və bu məhəbbətimizin dəlili olaraq sünneyi-səniyyəni nə qədər yaşaya bildiyimizi hesab etməliyik.

**Abdullah bin Məsud** رضي الله عنه belə nəql edir:

Bir gün Rəsulullah ﷺ:

*"- Mənə Quran oxuyarsanmı?"* buyurdu. Mən:

"- Ey Allahın Rəsulu, Quran sizə endirildiyi halda mən sizə necə Quran oxuyum?" dedim. Allah Rəsulu ﷺ:

*"- Mən Quranı başqasından eşitməyi də sevirəm."* buyurdu. Bundan sonra ona Nisa surəsini oxumağa başladım. 41-ci ayəyə gəlib:

**"Hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid təyin edəcəyimiz zaman halları nə cür olacaq?!"** deyə oxuduqda:

"- İndilik bəsdir!" buyurdu.

Bir də baxdım ki, mübarək gözlərindən yaş axırdı. (Buxari, Təfsir, 4/9; Müslim, Müsafirin, 247)

**Həzrət Aişə** (r.anhə) də Allah Rəsulunun qəlbi riqqətinə və təfəkkür üfüqünə dair bir mənzərəni belə nəql edir:

"Bir gecə Rəsulullah ﷺ mənə belə dedi:

"- Ey Aişə! İcazə ver, gecəni Rəbbimə ibadət edərək keçirim." -dedi. Mən də:

"- Vallah, səninlə bərabər olmağı çox sevirəm, ancaq səni sevindirən şeyi daha çox sevirəm." -dedim.

Sonra qalxdı, gözəl bir şəkildə dəstamaz aldı və namaza başladı. Ağlayırdı... O qədər ağladı ki,

paltarı, mübarək saqqalı, hətta səcdə etdiyi yer belə həddindən artıq islandı. O, bu halda ikən Bilal ﷺ sübh namazına çağırmağa gəldi. Peyğəmbərimizin ağladığını görüb:

"- Ya Rəsulallah! Allah-Təala sizin keçmiş və gələcək günahlarınızı bağışladığı halda nə üçün ağlayırsınız?" -dedi.

Rəsulullah ﷺ:

*"- Allaha çox şükür edən bir bəndə olmayımmı? Vallah, bu gecə mənə elə ayələr nazil oldu ki, onları oxuyub üzərində təfəkkür etməyənlərə təəssüf olsun!" -buyurdu və bu ayeyi-kərimələri oxudu:*

**"Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində** (bir-birinin ardınca gəlib-getməsində) **ağıl sahibləri üçün** (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən açıq) **dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər** (və deyərlər): **Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından** (Özün) **qoru!"** (Ali İmran, 190-191)" (İbn Hibban, Səhih, II, 386; Alusi, Ruhul-Məani, IV, 157)

Bu ayeyi-kərimələr nazil olduğu gecə Allah Rəsulu ﷺ ulduzları belə heyran qoyacaq inci dənələri kimi göz yaşları ilə sübhə qədər ağlamışdı. Möminlərin ilahi qüdrət və əzəmət təcəllilərini təfəkkür edərək tökəcəkləri göz yaşları da Allahın lütfü ilə

fani gecələrin zinəti, qəbir qaranlıqlarının aydınlığı və inşallah, cənnət bağçalarının şəbnəmləri olacaqdır.

Rəsulullah ﷺ Qurani-Kərimi düşünərək və sirlərinə vaqif olaraq oxumağın lüzum və fəzilətini ifadə mahiyyətində belə buyurmuşdur:

*"...Bir qrup insan Allahın evlərindən bir evdə toplanır, Allahın Kitabını oxuyur və onu aralarında müzakirə edərlərsə, üzərlərinə sükunət enər, onları rəhmət bürüyər və mələklər ətraflarını əhatə edər. Allah-Təala da həmin şəxsləri öz dərgahında olanların arasında zikr edər."* (Müslim, Zikr, 38; Əbu Davud, Vitr, 14/1455; Tirmizi, Qiraət, 10/2945)

*"Quranı üç gündən az bir müddətdə oxuyub qurtaran şəxs onu layiqli şəkildə başa düşə bilməz, üzərində haqqı ilə təfəkkür edə bilməz."* (Əbu Davud, Vitr, 8/1390; Tirmizi, Qiraət, 11/2949; Darimi, Salət, 173)

*"Quranı səni pisliklərdən uzaqlaşdıracaq şəkildə oxu! Əgər o, səni pisliklərdən uzaqlaşdırmırsa, onu oxumuş sayılmazsan."* (Əhməd bin Hənbəl, Zöhd, s. 401/1649)

### *Əshabi-Kiramın Quran Tilavəti*

Əshabi-kiram Quranı anlamaq üçün təfəkkürə yönəlmiş, Allahın ayələri üzərində dərin-dərin düşünərək və onları həyatlarından tətbiq edərək oxumuşdurlar. **Həzrət Ömər**in رضي الله عنه bu sözü buna aydın bir misaldır:

“Bəqərə surəsini on iki ildə bitirdim və şükür olaraq bir dəvə qurban kəsdim.” (Qurtubu, I, 40)

Həzrət Ömərin oğlu **Abdullah** رضي الله عنه da Bəqərə surəsini öyrənib həyatında tətbiq etmək üçün ayələrin üzərində düz səkkiz il çalışmışdır. (Muvatta, Quran, 11)

Çünki onlar Qurani-Kərimi, əmrlərini, ehkamını və bunlarla əlaqəli olan şeyləri öyrənərək oxuyurdular. Ayeyi-kərimələri təfəkkürdə dərinləşib həyatlarında əks etdirirdilər. (Kəttani, Təratib, II, 191)

Bir nəfər **Zeyd bin Sabit**in رضي الله عنه yanına gəlib Qurani-Kərimin bir həftədə xətm edilməsi xüsusunda nə düşündüyünü soruşmuşdu. O da “Yaxşı olar.” - dedikdən sonra sözlərinə belə davam etdi:

“- Lakin mənim on beş və ya iyirmi gündə bir xətm etməkdən daha çox xoşum gəlir. Nə üçün, deyə soruşsanız deyə bilərəm ki, bu təqdirdə Quran üzərində yaxşı-yaxşı düşünüb mənalarını daha aydın başa düşə bilirəm.” (Muvatta, Quran, 4; İbn Abdilbərr, İstizkar, Beyrut 2000, II, 477)

**Abdullah bin Məsud** رضي الله عنه da belə demişdir:

“Kim elm istəyirsə Quranın mənalarını təfəkkür etsin! Onun təfsiri və qiraəti üzərində fikrini cəmləşdirsin! Çünki Quranda əvvəlkilərin və sonrakıların elmi mövcuddur.” (Heysəmi, VII, 165; Beyhəqi, Şuab, II, 331)

Bir bədəvi Allah Rəsulunun ﷺ mübarək ağzından aşağıdakı ayeyi-kəriməni eşitmişdi:

**"Kim** (dünyada) **zərrə qədər yaxşı iş görmüşdürsə, onu** (onun xeyrini) **görəcəkdir** (mükafatını alacaqdır)**. Kim də zərrə qədər pis iş görmüşdürsə, onu** (onun zərərini) **görəcəkdir** (cəzasını çəkəcəkdir)**."** (əz-Zilzal, 7-8) Böyük bir heyrətlə:

"- Ey Allahın Rəsulu, zərrə ağırlığındamı?" - deyə soruşdu.

Rəsulullah ﷺ:

"- Bəli." - buyurdu. Bir anda halı dəyişən bədəvi:

"- Vay mənim qüsurlarım!" - deyərək sanki inlədi və bu sözü dəfələrlə təkrar etdi. Sonra da eşitdiyi ayələri təkrar edərək durub getdi.

O getdikdən sonra Rəsulullah ﷺ belə buyurdu:

*"- İman bu bədəvinin qəlbinə girdi."* (Suyuti, əd-Durrul-Mənsur, VIII, 595)

### *Haqq Dostlarının Quran Tilavəti*

**Fudayl bin İyaz** -quddisə sirruh-:

"- Quran onunla əməl edilmək üçün nazil oldu. İnsanlar isə onun yalnız oxunmasına əməl edirlər!" - demişdir. Bunun müqabilində ondan soruşdular:

"- Quran ilə əməl necə olur?" Həzrət belə cavab verdi:

"- Halal qıldığı şeyləri halal, haram qıldığı şeyləri haram qəbul edib onları həyatda tətbiq etmək,

əmrlərinə tabe olmaq, qadağan etdiklərindən uzaq durmaq və heyranedici ifadələri üzərində durub (Allahı təsbih etmək, o xüsusları yaxşı-yaxşı araşdırmaq və təfəkkürə dalmaqla) olur." (Xatib əl-Bağdadi, İktizaul-Elmil Amələ, s. 76)

Qurani-Kərimin bir ayəsində belə neçə-neçə əngin mənalar mövcuddur. Belə ki, **İmam Şafii** -rəhmətullahi əleyh -:

"İnsanlar Əsr surəsini layiqi ilə təfəkkür və tədəbbür etsələr, yalnız bu belə onlara kifayət edər." - buyurmuşdur. (İbn Kəsir, Təfsir, Əsr surəsi)

Böyük İslam alimlərindən **Asmai** Quran üzərində təfəkkürə aid bir xatirəsini belə dilə gətirir:

Bir bədəvi Xəlifə Hişam bir Abdulməlikin yanına gəlmişdi. Hişam ona dedi:

"- Mənə nəsihət et, ey bədəvi!"

Bədəvi Xəlifənin təfəkkürünü Qurana istiqamətləndirərək belə nəsihət etdi:

"- **Nəsihətçi olaraq Quran kifayətdir!** Qovulmuş şeytandan Allaha sığınıram. Rəhman və Rəhim olan, eşidən və bilən Allahın adı ilə:

**"Vay halına çəkidə və ölçüdə aldadanların! O kəslər ki, özlərini insanlardan** (bir şey) **aldıqları zaman onu tam ölçüb alar, onlar üçün ölçdükdə və ya çəkdikdə isə** (onu) **əskildərlər. Məgər onlar** (öləndən sonra) **diriləcəklərini düşünmürlərmi?! Özü də dəhşətli bir gündə?! O gün bütün insanlar** (haqq-hesab üçün) **aləmlərin**

**Rəbbinin** (Allahın) **hüzurunda duracaqlar!”** (əl-Mutəffifin, 1-6)”

Bədəvi sözlərinə belə davam etdi:

“- Bu, ölçü və çəkidə əskik çəkənlərin cəzasıdır. Aldığının hamısını haqsız olaraq alan şəxslərin cəzasını artıq siz özünüz düşünün!” (İbn Abdirabbih, Bedevi Arapların Özdeyiş ve Adetleri, İstanbul 2004, s. 57)

Məşhur Osmanlı alimlərindən Məhəmməd Xadimi belə deyir:

“Hər cür sıxıntı, bəla və müsibətdən xilas olmağın yeganə yolu Qurana sarılmaq və onu həyata tətbiq etməkdir. İbadət və itaətlərə davam edin! Xüsusən ən fəzilətli ibadətlərdən olan tədəbbür, tərtil və ədəblə Qurani-Kərim oxumağa yaxşı sarılın! Çünki Quranı belə oxumaq Allah ilə danışmaq kimidir.” (Bax: Xadimi, Məcmuatur-Rəsail, s. 112, 194, 200)

## QURANİ-KƏRİMDƏN TƏFƏKKÜR MİSALLARI

### Allahın Elmini Təfəkkür

Qurani-Kərimin bir çox ayəsində Allah-Təalanın sonsuz elminə təmas edilərək insanlar təfəkkürə dəvət edilir.

Ayeyi-kərimədə belə buyurulur:

**"Qeybin açarları** (Allahın) **yanındadır. Onları ancaq O** (Allah) **bilir.** (Allah) **suda və quruda nə varsa bilir. Yerə düşən elə bir yarpaq yoxdur ki,** (Allah) **onu bilməsin. Yerin zülmətləri içində elə bir toxum,** (kainatda) **yaş-quru elə bir şey yoxdur ki, açıq-aydın kitabda** (lövhi-məhfuzda) **olmasın!"** (əl-Ənam, 59)

Bir mömin bu ayeyi-kəriməni oxuduğunda bir az dayanıb düşünməlidir. Hələ heç açılmamış, vücuda gəlməmiş, bəşəri elmin çatmadığı o qədər qeyb xəzinələri vardır ki, bütün bunların açarları ancaq Allahın dərgahındadır. Onları Allah-Təaladan başqa kimsə bilməz. Allah-Təala bütün bu qeybləri bildiyi kimi hal-hazırdakı bütün varlıqları da bütün təfərrüat və detallarına qədər bilir. Heç bir yarpaq düşməz ki, Uca Rəbbimiz onun nə zaman və hara düşdüyünü, havada neçə dəfə çevrildiyini bilməsin.

Allah-Təala yerin qaranlıqlarına düşən bir dənənin nə zaman bitəcəyini, kim tərəfindən yeyiləcəyini də bilir. Görünən və görünməyən, düşünülən, hiss edilən, böyük-kiçik, xülasə olmuş və olacaq, gizli-açıq hər şey bütün genişliyi, bütün incəliyi ilə Allahın elmi daxilindədir.[59]

Yuxarıdakı ayeyi-kəriməni oxuyanda insanın xəyalı bilinən və bilinməyən üfüqlərə, görünən və görünməyən aləmlərə qanad açar. Torpağın bilinməzliklərində, dənizin dibsiz dərinliklərində do-

59. Bax: Muhammed Hamdi Yazır, *Hak Dini*, III, 1947; Əbu Hayyan, IV, 145-146, (əl-Ənam, 59).

laşıb durar. Ucsuz-bucaqsız kainatın hər tərəfində və görünən aləmin hüdudlarının arxasında addım-addım Allahın elmini və sənətini izləyər. Yer üzünün bütün ağaclarından qopan saysız yarpaqları seyr edər. Allah-Təala hər bir yerdə düşən yarpağı görür. Yerin dərinliklərində gizlənmiş heç bir dənəcik Allahın nəzərindən yayınmaz. Hədsiz-hüdudsuz kainatda yaş və quru nə varsa hər şey Onun əmri ilə hərəkət edər.

Bu, başgicəldici və ağılları heyrətlərə qərq edən bir səyahətdir. Zamanın miqyasına, məkanın üfüqlərinə, görünən və görünməyən, bilinən və bilinməyən aləmlərin dərinliklərinə edilən bir yolçuluqdur. Bu səyahətin məsafəsi olduqca uzun, sahəsi son dərəcə genişdir. İnsanın xəyalı bu sahəni tam olaraq düşünməkdən belə acizdir. Ancaq bu mükəmməl tablo yuxarıdakı ayeyi-kərimədə bir neçə kəlmə ilə son dərəcə həssas, əskiksiz və ətraflı bir şəkildə çəkilmişdir. (Seyyid Qütb, Fi-Zilal, II, 1111-1113, əl-Ənam, 59)

İnsan bu şəkildə Qurani-Kərim və kainat üzərində təfəkkür etdikcə Allah-Təalanın elm və qüdrətini az da dərk edər. Təfəkkürdən uzaq qalanlar isə ilahi sirr və hikmətlərdən məhrum olaraq nəfsani bir həyat içində sürünüb gedərlər.

Sədi-Şirazi belə buyurur:

“Ağıl sahibləri nəzərində yaşıl ağacların hər bir yarpağı mərifətullah üçün bir divandır. Qafillər üçün isə bütün ağaclar tək bir yarpaq belə deyil.”

Allah-Təala digər bir ayeyi-kərimədə belə buyurur:

**“Yerə daxil olanı da,** (yerdən) **çıxanı da, göydən enəni də,** (göyə) **qalxanı da O bilir.** (Allahdan heç nə gizli qalmaz)**. O, rəhm edəndir, bağışlayandır!”** (Səbə, 2)

İnsan bu ayeyi-kəriməni oxuyanda saysız cismin, hərəkətin, şəklin və mənanın xəyali zehninə hücum edər. Bunları xəyala sığdırmaq belə mümkün deyil. Bu ayənin işarə etdiyi hadisələrin yalnız bir an içində olub bitən qismini təsbit edib saymaq belə mümkün deyil. Bunu etmək üçün bütün insanlar bir yerə yığışsa və bütün ömürlərini bu işə həsr etsələr, yalnız “bir an” içində neçə şeyin göydən yerə endiyini, neçə şeyin yerdən səmaya yüksəldiyini təsbit etməyə gücləri çatmaz.

Əcəba yerin içinə nələr girir? Bu yerin bağrına necə toxum düşür? Torpağın altında necə qurdlar, böcəklər və sürünənlər var? Bu ucsuz-bucaqsız torpağa neçə su damlaları, qaz molekulları və radioaktiv şüalar sızır? Bəli, neçə-neçə şeylər girir torpağın altına! Hamısı da Allah-Təalanın əmri və təqdiri altında...

Bunun əvəzinə torpaqdan da nece şeylər çıxır? Neçə bitki cücərir? Ayeyi-kərimələrdə belə buyurulur:

**“Məgər onlar yer üzünə baxıb orada növbənöv gözəl** (bitkilər və meyvələr) **yetişdirdiyimizi görmürlərmi?”** (əş-Şüəra, 7)

**“Həqiqətən, Biz yağışı bol yağdırdıq. Sonra yeri gözəl yaratdıq** (yaxşı yardıq)**, Belə ki, orada dən** (dənli bitkilər) **göyərtdik; Üzüm və yonca; Zeytun və xurma** (bağları)**;** (Növbənöv) **meyvələr və ot** (ələf) **yetişdirdik.** (Bütün bunlar) **sizin və heyvanlarınızın istifadəsi üçündür!”** (Əbəsə, 25-32. Bax: Qaf, 7-11)

Həmçinin torpaqdan neçə-neçə qaynaqlar fışqırır? Neçə-neçə vulkanlar püskürür? Neçə-neçə qazlar buxarlanır? Neçə-neçə böcəklər gizli yuvalarından yer üzünə çıxır?

Necə ibrətlidir ki, qar yağıb hər tərəfi örtdüyü zaman saysız canlı torpağın sinəsinə sığınır və uzun müddət Xaliqin mühafizəsi ilə orada sağ-salamat qalır. Rəbbimiz torpağı onlar üçün sanki bir qundaq edər. Ona görə də qarlar əridikdə ortalıqda o canlılara aid cəsəd yığınları görmərik. Bütün həmin məxluqat yenə torpağın üstünə çıxıb həyatlarını davam etdirirlər.

Həmçinin bir anlıq düşünsək yerdən səmaya neçə-neçə qüvvətlər, mələklər, ruhlar, dualar, sədalar yüksəlir. Görünə bilən və görünməyən neçə-neçə şeylər... İnsanın təkcə bir qismini bilə bildiyi və bir çoxunudan xəbərsiz olduğu neçə-neçə canlı və cansız varlıqlar...

Əcəba səmadan yerə nələr enir? Bir tərəfdən yağış damcıları, meteorit mərmiləri, yandırıcı və aydınladıcı şüalar... Digər tərəfdən neçə-neçə “qəza” oxları, təyin edilmiş “qədər”lər, ilahi rəh-

mətlər... Bir qismi bütün varlıqlara şamil, ancaq bir qismi bəzi bəndələri xüsusi olaraq bürüyən ilahi rəhmətlər...

Bunların hamısı bir an içində olub bitir. Əcəba tək bir anın hadisələrini insan idrakı qavraya bilərmi? İnsan oğlu neçə-neçə ömürlər yaşasa belə bu hadisələri saymaz. Halbuki Allah-Təalanın sərhədsiz, ağlın hüdudlarını aşan və əngəl tanımayan elmi, bütün bu hadisələri - harada və nə zaman olursa olsun - əhatə edər. **O halda bunu heç bir zaman unutmamaq lazımdır ki, hiss, niyyət və döyüntüləri ilə bütün qəlblər uca Allahın nəzarəti altındadır.** (Bax: Seyid Qütb, Fi-Zilal, V, 2891-2892, Səbə, 2-3)

## VAQİƏ SURƏSİ

Qurani-Kərimin hər surəsi və hər ayəsi üzərində dərin-dərin təfəkkür etmək lazımdır. Ancaq biz burada misal olaraq Vaqiə, Nəml və Rum surələrindəki bəzi ayeyi-kərimələr üzərində dayanacağıq:

Allah (c.c.) Vaqiə surəsinə qiyamətin dəhşətini anladaraq başlayır. O gün bəzi insanların yüksəlib, bəzilərinin də alçalacağını xəbər verir. Hesabdan sonra insanların üç qismə ayrılacağını bəyan edir.

Sonra Allah-Təala bütün xeyirlərdə irəlidə gedən Haqqa yaxın bəndələr ilə, əməl dəftərləri sağ

tərəflərindən verilən salehlərin nail olacağı misilsiz nemətləri, məstedici bir gözəllikdə təsvir edir.

Bundan sonra əməl dəftərləri sol tərəflərindən verilən bədbəxtlərin cazalandırılacağı dəhşətli əzabı təsvir edir. Bəndələrini tükürpərdici əzab mənzərələri ilə günahlardan çəkindirir.

Sonra isə Allah-Təala bu dəhşətli hala düşməsinlər deyə bəndələrini təfəkkürə dəvət edərək belə xəbərdarlıq edir:

### *İnsanın Yaradılışı*

**"Biz sizi** (yoxdan) **yaratdıq. Məgər** (qiyamət günü yenidən dirildiləcəyinizi) **təsdiq etməzmisiniz?**

**Bəs** (bətnlərə) **axıtdığınız nütfəyə nə deyirsiniz?**

**Ondan** (insan) **yaradan sizsiniz, yoxsa Biz?!"** (əl-Vaqiə, 57-59)

Yox qədər bir su zərrəsindən son dərəcə qarışıq və bir o qədər də ahənglə işləyən sistemlərlə təchiz edilmiş bir insan vücudunun meydana gəlməsi nə müəzzəm ilahi bir sənətdir.

### *Ölüm və Yenidən Dirilmə*

**"Sizin aranızda ölüm** (kimin nə vaxt öləcəyini) **əvvəlcədən Biz müəyyən etdik. Və Biz əsla aciz** (önünə keçilməsi mümkün olan) **deyilik.**

(Sizi yox edib) **yerinizə sizin kimiləri gətirməkdən** (sizi başqaları ilə əvəz etməkdən) **və sizi özünüz də bilmədiyiniz başqa bir şəkildə yaratmaqdan!"** (əl-Vaqiə, 60-61)

Ölüm həqiqəti... Heç kimsə ölümdən qaça bilməz. Allah-Təala istəsə, inkarçıları həlak edib daha yaxşı bir toplum yaradar.

**"And olsun ki, siz ilk yaradılışı** (dünyaya necə gəldiyinizi) **bilirsiniz. Elə isə** (sizi yenidən diriltməyə qadir olduğumuz barədə) **heç düşünmürsünüz?!"** (əl-Vaqiə, 62)

İlk yaradılışı belə mükəmməl bir şəkildə edən Uca Allah insanı təkrar yaratmağa da qadirdir. Bunun üzərində təfəkkür edərək axirətə və "basu bədəl-mövt"ə, yəni ölümdən sonra dirilişə hazırlanmaq lazımdır.

### *Toxumlar və Bitkilər*

**"Bəs əkdiyiniz** (toxuma) **nə deyirsiniz?**

**Onu bitirən sizsiniz, yoxsa Biz?!**

**Əgər Biz istəsəydik, onu bir saman çöpünə döndərər, siz də mat-məətəl qalıb:**

**"Biz ziyana uğramış, bəlkə,** (hələ ruzidən də) **məhrum olmuş kimsələrik!"** (deyərdiniz)**."** (əl-Vaqiə, 63-67)

Ətrafımızdakı əkinlərə, ağaclara, bitkilərə ibrətlə baxaraq Allah-Təalanın yaratma sənətini və

nemətlərini heyranlıqla seyr etməliyik. Allah-Təala verməzsə, insanların səyləri və tədbirləri boşa gedər, bir ot belə bitməz.

Bir anlıq ətrafımızdakı bütün yaşıllıqların quru bir saman halına gəldiyini düşünək... Həyatımız bir anda necə də qaralardı!..

### *Şirin Su*

**“Bəs içdiyiniz suya nə deyirsiniz?**

**Onu buluddan endirən sizsiniz, yoxsa Biz?!**

**Əgər istəsəydik, onu acı** (bir su) **edərdik. Elə isə niyə** (Allahın nemətlərinə) **şükür etmirsiniz?”** (əl-Vaqiə, 68-70)

Buluddan enən şirin su Allah-Təalanın böyük bir ikramıdır. O su, acı bir şəkildə ensə heç kim onu şirin edə bilməzdi. Və ya quraqlıq olsa, buludları düzəldib yağışı yağdırmağa kimin gücü çata bilərdi ki?!.

### *Od*

**“Bəs** (yaş ağacdan) **yandırdığınız oda nə deyirsiniz?**

**Onun ağacını yaradan sizsiniz, yoxsa Biz?**

**Biz onu** (sizi cəhənnəm odu ilə qorxutmaqdan ötrü) **ibrət dərsi və səhrada olan müsafirlərin faydalanması üçün yaratdıq.”** (əl-Vaqiə, 71-73)

Həqiqətən düşünmək lazımdır ki, həyatda insanlara bir çox faydaları olan odu və onun yandıracağı ağacları kim yaratmışdır?

Allahın qüdrətinə baxın ki, yaşıl ağacdan od çıxarır!.. Bir də odun mahiyyətini düşünün... Necə yanır, necə yandırır?!.

Səhradakı insanlar gecənin soyuq və qaranlığında odun ətrafına yığılırlar. Od onlar üçün vaz keçilməz bir isinmə, aydınlanma və yemək bişirmə vasitəsidir. Əslində oda bütün insanların ehtiyacı vardır. Odsuz yaşamaq çox çətindir.

Dolayısı ilə, od həm ibrətlik bir hadisədir, həm də torpaq, su, hava kimi zəruri bir ehtiyacdır. **Rəsulullah** ﷺ belə buyurmuşdur:

*“Müsəlmanlar üç şeydə ortaqdırlar: Suda, otda və odda.”* (Əbu Davud, Büyu, 60/3477)

Digər tərəfdən, dünya oduna baxaraq cəhənnəmi xatırlamaq lazımdır... Nə qədər ibrətlidir ki, altımızda maqma təbəqəsi, dəhşətli bir od dəryası; üstümüzdə isə Günəş, möhtəşəm bir alov topu... İki od arasında sərin və əmin-amanlıq içində həyat şərtlərini lütf edən Rəbbimizə nə qədər şükür etsək də azdır!..

Bütün bu nemətlər qarşısında insanın Allahı çox-çox təsbih etməsi lazımdır:

**“Belə olduqda ulu olan Rəbbinin adını müqəddəs tutub zikr et!”** (əl-Vaqiə, 74)

- Dilimiz zikr, Quran və təbliğlə məşğul olaraq təsbih etməli,

- Qəlbimiz duyğu dərinliyi içində şükür edib təsbih etməli,

- Üzvlərimiz nafilə namazları, orucları və xidmətləri artırmaqla təsbihə davam etməlidir...

## *Ulduzlar və ya Vəhylər*

**“Ulduzların** (bürclərdəki) **mənzillərinə** (yaxud doğub-batdığı yerlərə) **and olsun. Kaş bunun nə qədər böyük bir and olduğunu biləydiniz.”** (əl-Vaqiə, 75-76)

İlahi əzəmətin sonsuzluğu... Allah-Təala təfəkkürümüzü sonsuzluğa yönləndirir...

**Səma** sanki bahri-bi-payan / həddi-hüdudu olmayan bir okeandır...

Bu ayələrdə ulduzlar görünməz olduqdan sonra başlayan sübh çağına və gecə ibadətlərinə də diqqət çəkilir.

Həmçinin bu ayeyi-kərimələrdə and içilən xüsuslardan bir də Peyğəmbərimizə ﷺ nazil olan vəhylərdir. Bunlar ya bir ayə, ya bir neçə ayə və ya bütün bir surə olurdu. Hər bir vəhyə də **“Nəcm / Ulduz”** deyilmişdir.

### *Qurani-Kərim*

**“**(Sizə oxunan) **bu** (kəlam) **çox qiymətli Qurandır.** (O, Allah dərgahında) **qorunub saxlanılan bir Kitabdadır** (lövhi-məhfuzdadır, yaxud lülələnib bükülmüş kağızlardadır)**. Ona yalnız pak olanlar toxuna bilər!”** (əl-Vaqiə, 77-79)

Qurani-Kərimə son dərəcə təzim və hörmət göstərmək lazımdır. Kitab halına gətirlimiş halına, üz qabığına və cildinə belə dəstəmazsız toxunmaq qadağandır. Dəstamazı olmayan şəxs patlarının ətəyi ilə də Kitabı tuta bilməz. Ona hörmət və ehtiramı zədələyəcək hərəkətlər etmək də böyük bir qəflətdir. Belə ki:

**“**(O) **Aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir. İndi siz bu kəlamı yalan sayırsınız?** (Bu sözümə məhəl qoymursunuz?) **Ruzinizə şükür etməli olduğunuz halda, onu yalanmı hesab edirsiniz?”** (əl-Vaqiə, 80-82)

Bizə lütf edilən ən böyük nemətlərdən biri də Qurani-Kərimə müxatəb qılınmağımızdır. Bu nemətin şükrü isə, onu gözəl şəkildə dərk edib lazımi qaydada yaşamaqdır.

### *Ölüm*

**“**(Can) **boğaza yetişdiyi** (ölüm gəlib çatdığı) **zaman, siz** (ona) **baxıb durursunuz** (əlinizdən heç bir şey gəlmir)**.”** (əl-Vaqiə, 83-84)

İnsanın vədəsi dolub Haqqın əmri vaqe olduqdan sonra onu geri qaytarmaq üçün insan oğlunun əlindən heç bir şey gəlməz.

**"Biz ona sizdən daha yaxınıq, amma siz** (bunu) **görmürsünüz!**

**Əgər sizdən** (dediyiniz kimi, qiyamət günü əməllərinizə görə) **haqq-hesab çəkilməyəcəksə və əgər** ("öləndən sonra heç bir dirilmə, haqq-hesab yoxdur" sözünü) **doğru deyirsinizsə, bəlkə,** (o çıxan canı) **geri** (bədənə) **qaytarasınız?!"** (əl-Vaqiə, 85-87)

Bax budur Allahın qüdrəti... Bax budur insanın acizliyi... Bütün bəşəriyyət istər istəməz ilahi təqdirə boyun əyəcək və təslim olacaq... Yaşadığı ömür boyu ilahi əmrə qarşı çıxıb inadkarlıq edən təkəbbürlülər belə, həmin an heç bir etiraz səsi yüksəldə bilməyəcəklər... İdrakı üzərindəki saysız qəflət pərdələri qalxan insan, kainatdakı əsl hökmranlığın yalnız Allaha aid olduğunu, bütün aydınlığı ilə ancaq həmin an anlaya biləcək...

### *Ölən İnsan Üç Haldan Biri Üzrədir*

1. **"Amma əgər** (ölən kimsə Allah dərgahına, Allahın lütf və mərhəmətinə) **yaxın olanlardandırsa,** (Onu) **rəhmət, gözəl ruzi** (yaxud xoş ətirli çiçəklər) **və Nəim cənnəti gözləyir!**

2. **Əgər o, sağ tərəf sahiblərindəndirsə** (əməl dəftəri sağ əlinə verilənlərdəndirsə)**,** (Ona özü kimi

olan yoldaşlarının dili ilə:) **“Sağ tərəf sahiblərindən sənə salam olsun!”** (deyiləcəkdir)**.**

3. **Əgər** (ölən kimsə Allahın ayələrini, möcüzələrini) **yalan sayanlardan və yoldan azanlardandırsa,** (Ona) **qaynar su ziyafəti veriləcək! Və özü də Cəhənnəmə atılacaqdır.”** (əl-Vaqiə, 88-94)

Kafirlər və günahkar müsəlmanlar bu qismə daxildir.

**“Şübhəsiz ki, bu, təkzibolunmaz həqiqətdir!”** (əl-Vaqiə, 95)

### *Allah-Təalaya Sığınma*

**“Elə isə ulu olan Rəbbinin adını təsbih** (müqəddəs tutub zikr) **et!** (Və ya: Rəbbini o böyük adı ilə təsbih et!)**”** (əl-Vaqiə, 96)

## NƏML SURƏSİ

Bu surədə Quranın hikmət sahibi və hər şeyi bilən Allah-Təala tərəfindən göndərildiyi izah edilir. Allah-Təalanın qüdrətinin böyüklüyü, şanının ucalığı, Peyğəmbərinə lütf etdiyi möcüzə və yardımların, hər cür təsəvvürün üzərində bir ülviyyətə sahib olduğu anladılır. Rəsulullahın ﷺ peyğəmbər olaraq göndərilməsinin bəşəriyyət üçün çox böyük bir tərəqqi və inkişaf vəsiləsi olduğu müjdələnir. Bu xüsusları izah etmək üçün **Həzrət**

**Musa, Davud, Süleyman, Saleh** və **Lutun** عليهم السلام qissələrinə təmas edilir.

Bu tarixi qissələr Allah-Təalanın qüdrət və kamalını göstərən nəqli dəlillərdir. Müşriklər bunlara iman etməyincə Uca Rəbbimiz onlara daha aşkar və daha ümumi olan əqli dəlillər gətirmiş və belə buyurmuşdur:

**“**(Bütlər yaxşıdır) **yoxsa göyləri və yeri yaradan, sizin üçün göydən yağmur endirən kimsə?! Sonra Biz o yağmurla sizin üçün gözəl bağçalar yetişdirdik.** (Əgər Allahın yaratdığı və yerə endirdiyi su olmasaydı) **siz** (o bağçaların) **ağaclarını göyərdə bilməzdiniz. Məgər Allahla yanaşı başqa bir tanrımı var?! Lakin** (müşriklər bütlərini Allaha) **bərabər tutan bir tayfadırlar!** (Yaxud onlar qəsdən haqq yoldan yayınan bir qövmdürlər!)**”** (ən-Nəml, 60)

**Rəsulullah** ﷺ bu ayeyi-kəriməni oxuduqda dərhal:

بَلِ اللّٰهُ خَيْرٌ وَ أَبْقَى وَأَحْكَمُ وَأَكْرَمُ وَأَجَلُّ
وَأَعْظَمُ مِمَّا يُشْرِكُونَ

*“Xeyr, Allah-Təala onların ortaq qoşduğu şeylərdən daha xeyirli, daha əbədi, daha hakim, daha kərim, daha uca və daha əzimdir.”* - buyurdu. (Beyhəqi, Şuab, II, 372)

Ayeyi-kərimələr ilahi qüdrətin nişanələri olan varlıqlar üzərində düşünməyə dəvət mahiyyətində belə davam edir:

“(Bütlər yaxşıdır) **yoxsa yeri** (sizin üçün) **məskən yaradıb ortasında çaylar axıdan, üzərində** (titrəməsin deyə) **möhkəm durmuş dağlar bərqərar edən və** (şirin və şor suları bir-birinə qarışmasın deyə) **iki dənizin arasında maneə qoyan kimsə?! Məgər Allahla yanaşı başqa bir tanrımı var?! Lakin** (müşriklərin) **əksəriyyəti** (Allahın vəhdaniyyətini, Onun nə qədər əzəmətli olduğunu) **bilmirlər!**

(Bütlər yaxşıdır) **yaxud əli hər yerdən üzülüb darda qalan birisi Ona dua etdiyi zaman onun duasını qəbul buyuran,** (sizdən) **şəri sovuşduran, sizi yer üzünün varisləri edən kimsə? Məgər Allahla yanaşı başqa bir tanrımı var? Siz nə az düşünüb danışırsınız?**

**Yaxud qurunun və suyun** (səhranın və dənizin) **zülmətlərində sizə doğru yol göstərən, küləkləri Öz rəhməti** (yağışı) **önündə bir müjdəçi olaraq göndərən kimsə?! Məgər Allahla yanaşı başqa bir tanrımı var?! Allah** (müşriklərin) **Ona şərik qoşduqlarından** (bütlərdən) **ucadır!**

**Yaxud** (məxluqatı) **öncə yaradan** (öldükdən) **sonra** (qiyamət günü) **onu yenidən dirildən, sizə göydən** (yağışla)**, yerdən** (növbənöv bitkilərlə, meyvələrlə) **ruzi verən kimsə?! Məgər Allahla yanaşı başqa tanrımı var? De:** (Ey müşriklər!) **Əgər**

(Allahın şərikləri olduğunu) **doğru deyirsinizsə, dəlilinizi gətirin!"** (ən-Nəml, 61-64)

## RUM SURƏSİ

Allah-Təala bəndələrini təfəkkürə dəvət edərək belə buyurur:

**"Məgər onlar öz-özlüklərində Allahın göyləri, yeri və onların arasındakıları ancaq haqq-ədalətlə və müəyyən bir müddət üçün yaratdığını düşünmürlərmi? Həqiqətən, insanların çoxu Rəbbi ilə qarşılaşacağını** (qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracağını) **inkar edir.**

**Məgər onlar yer üzünü gəzib özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmürlərmi? Onlar** (Ad, Səmud tayfaları) **bunlardan daha qüvvətli idilər. Onlar** (əkinçilik məqsədilə) **torpağı qazıb altını üstünə çevirmiş və yer üzünü bunlardan daha çox adab etmişdilər. Peyğəmbərləri onlara açıq-aşkar möcüzələr gətirmişdilər. Allah onlara zülm etmirdi, onlar özləri özlərinə zülm edirdilər."** (ər-Rum, 8-9)

Bir neçə ayə sonra Allah-Təalanın birliyinin, sonsuz qüdrət və əzəmətinin dəlilləri ard-arda nümayiş etdirilərək beləı buyurulur:

"(Allah) **ölüdən diri, diridən də ölü çıxardır, öləndən sonra torpağı dirildir. Siz də** (qiyamət günü dirildilib qəbirlərinizdən) **belə çıxardılacaqsınız.**

**Sizi** (atanız Adəmi) **torpaqdan yaratması, sonra da sizin** (hərənizin) **bir insan olub yer üzünə yayılmağınız Onun qüdrət əlamətlərindəndir.**

**Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda** (dostluq) **sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda** (bu yaradılışda) **düşünən bir qövm üçün ibrətlər vardır!**

**Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki, bunda bilənlər** (ağıl və elm sahibləri) **üçün** (Allahın vəhdaniyyətinə, Onun hər şeyə qadir olmasına dəlalət edən) **nişanələr vardır!**

**Gecə və gündüz yatıb dincəlməyiniz** (gecə istirahət etməyiniz, gündüz əlləşib çalışmağınız)**, nemətindən ruzi** (qismətinizi) **axtarmanız da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən,** (öyüd-nəsihət) **eşidənlər üçün bunda ibrətlər vardır!**

**Sizə həm qorxu, həm də ümid verən** (sizi vurmasından qorxduğunuz, dalınca isə yağış yağmasına ümid bəslədiyiniz) **ildırımı göstərməsi, göydən yağmur endirib öləndən sonra** (onunla) **torpağı diriltməsi də Onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki, bunda ağılla düşünən bir qövm üçün ibrətlər vardır.**

**Göyün və yerin Onun əmrində durması, sonra sizi bircə dəfə** (İsrafilin suru bir dəfə üf-

ürməsi ilə) **çağıran kimi dərhal yerdən** (qəbirlərinizdən dirilib) **çıxmağınız da Onun qüdrət əlamətlərindəndir.**

**Göylərdə və yerdə kim** (nə) **varsa, Onundur.** (Mələklər, cinlər və insanlar Allahın bəndələridir)**. Hamısı Ona boyun əyər!”** (ər-Rum, 19-26)

## ALLAHIN AYƏLƏRİNİ DÜŞÜNMƏYƏNLƏR

Allah-Təala xas bəndələrini vəsf edərkən belə buyurur:

**“O kəslər ki, Rəbbinin ayələri zikr olunduğu vaxt özünü onlara qarşı kar və kor kimi aparmaz** (əksinə, onlara cani-dildən qulaq asar)**.”** (əl-Furqan, 73)

Möminlər Quran oxunduqda və ya ayeyi-kərimələrlə nəsihət edildikdə dərhal diqqətlı qulaq asar, onu canu-dildən dinləyər, üzərində düşünər və itaət edərlər.

Digər bir ayeyi-kərimədə də belə buyurulur:

**“Möminlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə** (Onun heybət və əzəmətindən) **ürəkləri qorxudan titrəyər, Allahın ayələri oxunduğu zaman həmin ayələr onların imanlarını daha da artırar, onlar ancaq öz Rəbbinə təvəkkül edər.”** (əl-Ənfal, 2)

Bunun əksinə Qurani-Kərimin feyz və ruhaniyyətindən nəsib almayan, işarə, sirr və rəmz-

lərini anlamayan, sirlərinə vaqif olmayan, əmr və nəsihətlərini yerinə yetirməyən kimsələr böyük bir xüsran içindədirlər.

Allah-Təala belə buyurur:

**“Yer üzündə haqsız yerə** (layiq olmadıqları halda) **təkəbbürlük edənləri ayələrimi anlamaqdan yayındıracağam** (mane olacağam)**. Onlar nə möcüzə görsələr, ona inanmazlar. Onlar haqq yolu görsələr, onu qəbul etməz, azğınlıq yolunu görsələr, onu özlərinə yol seçərlər. Bunun səbəbi isə onların ayələrimizi yalan hesab etmələri və ondan qafil olmalarıdır.”** (əl-Əraf, 146)

Özlərində varlıq hiss edən və digər insanlara qarşı üstünlük göstərən təkəbbürlü kimsələr ayeyi-kərimələrin mənalarını düşünməz və onlardan ibrət ala bilməzlər. Çünki Allah-Təala zalımların qəlblərinə Quranın hikmətlərini anlama və onun əzəmət təcəllilərinə aşina olma imkanı verməmişdir. Onları bu böyük ilahi ikramdan məhrum etmişdir. Çünki ilahi sirr və hikmətlər xəzinəsi olan Quranın belə zülmət bataqlıqlarında olması məqsədə uyğun deyil. O, ancaq təqva sahibi bəndələrin könüllərinə nüfuz edərək onlara yol göstərici bir nur olur.

Təqvadan nəsibi olmayan qafillərin dəhşətli halı isə Quranı layiqi ilə təfəkkür etməmələri və nəticədə nəfsaniyyətin axmaqlığına düçar olmaları səbəbiylədir. Qurani-Kərim üzərində insafla düşünüb ona tabe olsalar, ilahi təlimatlar qarşısında sərsəm, axmaq və çaşqın qalmazdılar. Əksinə

haqqı qəbul edər, gözəl əxlaq sahibi olar, ilahi sirr və hikmətlərdən nəsib alardılar. Nəticədə özlərinə əbədi səadət və əmin-amanlıq yolu açılardı.

Bura qədər ifadə edilənlərdən belə başa düşülür ki, bir mömin üçün təfəkkürdən uzaq qalıb ömür sərmayəsini hədər etmək düşünülə bilməz. Çünki zamanın qiymətini bilməyib yanlış yerlərdə hədər etməkdən çəkindirmək üçün Allah-Təala:

**"And olsun axşam çağına** (ikindi vaxtına, əsr namazına, zamana və ya Peyğəmbərin əsrinə) **ki, insan** (ömrünü bihudə işlərə sərf etməklə, dünyanı axirətdən üstün tutmaqla) **ziyan içindədir? Yalnız iman gətirib yaxşı əməllər edən, bir-birinə haqqı tövsiyə edən və səbri tövsiyə edən kimsələrdən başqa!** (Belələri Cənnətə nail olub əbədi səadətə qovuşanlardır!)**"** (əl-Əsr, 1-3) - buyurmuşdur.

Ona görə də təqva sahibi olan bir möminin baxışı ibrət, sükutu da təfəkkür olmalıdır. Xüsusilə də Qurani-Kərim ayələri üzərindən ilahi həqiqətləri təfəkkür edərək onlarda dərinləşməli və mərifətullaha çatmağa səy göstərməlidir. Həmçinin mömin Qurani-Kərimi Allah-Təaladan bəndələrinə gələn bir məktub kimi görməli, əbədi səadət mənbəyi olan Qurana iman eşqi və həyəcanı içində sarılmalıdır.

## DAİM MÜRAQƏBƏ HALINDA OLA BİLMƏK

Müraqəbə - daxili aləminə nəzarət etmək, qorumaq, diqqəti müəyyən bir nöqtəyə cəmləmək kimi mənalara gəlir. Təsəvvüfdə “qəlbi ona zərər verən şeylərdən qorumaq, “Allah hər an məni görür, qəlbimə nəzər edir.” şüuru içində olmaq” və ya “feyz gözləmək” şəklində tərif edilmişdir. Yəni müraqibə insanın daxili aləminə yönələrək öz halını daim mühasibə və təfəkkür etməsidir. Beləcə hər an ayıq-sayıq bir qəlb ilə Rəbbə sığınma əhval-ruhiyyəsini qazana bilməkdir.

### *Haqqa Çatdıran Ən Qısa Yol*

Könül aləmi də eynilə zahiri aləmlər kimi ucsuz-bucaqsız bir təfəkkür sahəsidir. **Mövlana** həzrətlərinin aşağıdakı qissəsi müraqəbənin, yəni daxili aləm üzərində təfəkkürün əhəmiyyətini necə də gözəl ifadə edir:

“Bir dərviş fərəhlənib təfəkkürə dalmaq üçün möhtəşəm bir bağçaya gedər. Bağçanın rəngarəng bərbəzəyi qarşısında məst olar. Gözlərini yumaraq müraqəbə və təfəkkürə dalar. Orada olan qafil bir insan dərvişi yatmış zənn edər. Onun bu halına heyrət edər və canı sıxılaraq dərvişə belə deyər:

"- Niyə yatırsan? Gözünü aç üzüm tağlarını, çiçək açmış ağacları, yamyaşıl çəmənlikləri seyr et! Allahın rəhmət əsərlərinə nəzər yetir!"

Dərviş də ona belə cavab verir:

"- Ey qafil! Bunu yaxşı bil ki, ilahi rəhmətin ən böyük əsəri könüldür. Onun xaricindəkilər bu böyük əsərin kölgəsi kimidir. Ağaclar arasından bir çay axıb gedir. Onun dupduru suyunuda iki tərəfin ağaclarının əksini görərsən... Su içinə əks edib görünənlər xəyali bir bağ-bağçadır. Əsl bağ və bağçalar könüldədir. Çünki könül ilahi nəzərgahdır. Onların zərif və lətif əksləri su və palçıqdan ibarət olan dünya aləmindədir. Əgər bu aləmdəkilər könül aləmindəki o fərəh sərvisinin əksi olmasaydı, Allah-Təala bu xəyal aləminə aldanış məkanı deməzdi. Ali-İmran surəsinnin 185 -ci ayeyi-kəriməsində:

**"...** (Bu) **dünya həyatı isə aldadıcı həzzdən** (əyləncədən) **başqa bir şey deyildir."** buyurulur.

Qafil olanlar və dünyanı cənnət zənn edərək "Cənnət budur!" deyənlər bu çayın görüntüsünə aldananlardır. Əsl bağ və bağçalardan, yəni övliya bəndələrdən uzaqda qalanlar isə o xəyala meyil edərək aldanırlar. Bir gün bu qəflət yuxusu başa çatacaqdır. Gözlər açılacaq, həqiqət görüləcəkdir. Lakin son nəfəsdə o mənzərənin nə faydası olcaq? O kimsə necə xoşbəxtdir ki, ölmədən əvvəl ölmüş, onun ruhu bu bağın həqiqətindən qoxu almışdır..."

Müraqəbə - Allaha çatmaq, elm, irfan, sirr və hikmət əldə etmək üçün mühüm bir yoldur. Hətta

təsəvvüfdəki mənəvi tərəqqi yollarının ən qiymətli və feyzli olanlarındandır.

Müraqəbə etmək istəyən mömin ilk növbədə qəlbini buna hazırlayar, namazdaymış kimi oturub başını dizlərinə doğru əyər. Bu vəziyyətdə bütün diqqətini cəmləyərək Haqqa yönələr və ruh halı ilə “Allah daim məni görür, O, hər an mənimlə bərabərdir, mənə məndən daha yaxındır.” inancını təfəkkür edər. Bunun nəticəsində hər şeyi əhatə edən ilahi nur onun könlünə də axmağa başlayar.

**Məhəmməd Xadimi** həzrətləri müraqəbənin rabitə yolu ilə də edilə biləcəyini qeyd edir. Bunun nəticəsində bəzi ilahi hikmətlər təcəlli edər. (Xadimi, Risalə fi Usuli-t-Təriqə, 139)

Müraqəbə, eşq əhli nəzərində insanı Allaha yaxınlaşdıran ən qısa yoldur. Belə ki, qəlbən Allaha yönəlmək digər üzvlərlə yönəlməkdən daha təsirli və daha mühümdür. Çünki qəlb ilə hər kəs hər an Rəbbinə asanlıqla yönələ bilər. Halbuki ixtiyarlıq (qocalıq) və xəstəlik kimi hallarda üzvlərlə əməl çətinləşir.

Hikmət əhli:

“Bir nəfəs alıb-verənə qədər Allah-Təalanın mürabəqəsi ilə olmaq, Süleymanın mülkünə sahib olmaqdan daha uca və daha fəzilətlidir.” demişlər.

**Peyğəmbərimizin** ﷺ xəbər verdiyinə görə heç bir kölgənin olmadığı qiyamət günündə Allah-Təala bəzi bəndələrinə Ərşinin kölgəsində ikram

edəcəkdir. Bu bəxtiyarlardan biri də tək başına qalıb tənha yerlərdə Allah-Təalanı xatırlayan və təsirlənərək göz yaşı tökən mömindir. (Bax: Buxari, Azan, 36; Müslim, Zəkat, 91)

## MURAQƏBƏLƏR

Müraqəbə məşhur "Cibril Hədisi"ndə tərif edilən ehsan şüurunu yaşamaqdır:

*"...Ehsan Allaha Onu görürmüş kimi qulluq etməkdir. Sən Onu görməsən də, O, səni mütləq görür..."* (Müslim, İman, 1, 5; Buxari, İman, 37)

İslam və imanda kamala çatmaq ehsan mərtəbəsinə yüksəlməyə bağlıdır. Ehsan halını yaşaya bilmək üçün isə Allah-Təalanı bizi daim gördüyünün fərqində olub özümüzü hər zaman müraqəbə (mənən nəzarət) etməyimiz və beləcə halımıza çəki-düzən verməyimiz lazımdır.

Bundan başqa, Allahın bizə bizdən daha yaxın olduğu həqiqətinin qəlbimizdə daim idrak halına gəlməyi də vacibdir.

Qəlbdə bu hisslər meydana gəldikdə bəndə imandan ehsana çatmış olur. Artıq o, bütün əməli-salehləri feyz və ruhaniyyətlə dolu bir könüllə ifa edər, Quran, kainat və insan üzərində təfəkkürün mənəvi həzzinə qərq olar.

Təsəvvüf əhli Qurani-Kərimi təfəkkürlə oxuya bilmək üçün ilk növbədə bəzi ayələr üzərində təfəkkür təlimi edərlər. Buna görə insanın könül dün-

yasına ən çox təsir edəcək, Allah ilə bərabərlik duyğusunu və Onun sevgisini qüvvətləndirəcək ayələr seçərlər. Bu ayələr üzərində dərin təfəkkürə dalmağa **“Müraqəbə”** adı verilir.

Müraqəbələrin dörd mərhələsi var:

### *1. Müraqəbeyi-Əhadiyyət*

Bu müraqəbədə “İxlas Surəsi” təfəkkür edilir. Bütün kamal sifətlərlə vəsflənmiş və hər cür nöqsanlıqlardan uzaq olan Allahın birliyi təfəkkür edilir və bu mərtəbədən qəlb lətafinə feyz axdığı düşünülür.

Müraqəbə edilən ayələrin mənaları təşbehə qaçmadan təsəvvür edilir. Sadəcə Allah-Təalanın bu sifətlərlə vəsfləndiyi düşünülür. Bu təsəvvür zəiflədikdə ayeyi-kərimə təkrar oxunur və yenidən təfəkkür edilir. Buna davam etdikcə möminin ehsan duyğusu artar və o, mərifətullahdan nəsib almağa başlayar.

İxlas surəsində bizə konkret olaraq bunlar xatırladılır: Allah-Təala təkdir, tayı-bərabəri və bənzəri yoxdur. Yalnızlıq Ona məxsusdur.

Bu dünyada Allah-Təalanın zatının bir təcəllisi yoxdur. Onun “Muxalifətun lil-havadis” sifəti vardır; sonradan yaradılanlara heç bənzəməz. Kainatda düşünə bildiyimiz nə varsa, Allah-Təalanın zatı ondan ucadır. Rəbbimiz mütəaldır, yəni bizim Onu tanıdığımızdan çox-çox uca və bəşər idrakının qav-

ramaqdan aciz qalacağı bir mükəmməllikdədir. Bir bənzəri və ziddi olmadığı üçün zatını dərk etmək qeyri-mümkündür.

Allah-Təala **"Saməd"**dir. Heç kəsə və heç nəyə möhtac deyildir, hər kəs və hər şey Ona möhtacdır. Kainatdakı bütün qüvvətlər Allah-Təalaya aiddir. İnsan Allah-Təalanın qüdrət və əzəmətini təfəkkür edərək acizliyini başa düşməli və bütün varlığı ilə Ona təslim olmalıdır. Mənlikdən sıyrılıb acizliyini dərk edərək daim "Aman, ya Rəbb!" deməli, Haqqın cəmali sifətlərinin təcəlligahı ola bilməyə çalışmalıdır.

Əhadiyyət, yəni təklik-bölünməyi, saylara və parçalara ayrılmağı və ortaqlığı qəbul etmir. Buna gözə də Uca Rəbbimiz nə doğmuş, nə də doğulmuşdur. Heç bir şey Onun tayı-bərabəri olmamışdır. Yəni Allah-Təala xristianların iddia etdiyi kimi əsla ata, ana və ya oğul deyil. Tövhid əqidəsində ortaqlığa yer yoxdur. Çünki doğan parçalanır, parçalanan yox olur. Doğduğu şey də nəticədə eyni vəziyyətə düşər. Doğmaq şəxsən baqi (əbədi) qala bilməyəcək fanilərə aiddir və nəslin davam etməsi üçün bir ehtiyacdır. Belə bir ehtiyac isə zatında hər kamalı toplayan Əhəd, Saməd və Vacibul-Vücud olan Allah-Təala haqqında bir əskiklik və nöqsan olardı. Ancaq O, hər cür əskiklik və nöqsandan uzaqdır.

Xülasə, təfəkkür və təhəssüs mərkəzi olan qəlb ilahi qüdrət naxışlarını və əzəmət təcəllilərini dərindən hiss etməli və daim həmd halında olmalıdır.

## *2. Müraqəbeyi-Maiyyət*

Bu mərhələdə **"Siz harada olsanız, O sizinlədir."** (əl-Hədid, 4) ayeyi-kəriməsinin mənası dərindən təfəkkür edilir. Bəndə kiminlə bərabər olduğunu idrak etməyə çalışır. Bu hal, qəlbdə şüur halına gəlir.

İnsan heç bir şəkildə Allah-Təalanın elminin və hökmranlığının xaricində qalmaz. Yerin dibində və ya səmaların dərinliklərində, harda olursa olsun, Allahın elminin xaricində qalması qeyri-mümkündür. Ürəklərin döyünməsi, nəfəs alıb vermək, görmək, eşitmək, digər üzvlərin müntəzəm olaraq fəaliyyəti Allah-Təalanın daim bəndələri ilə bərabər olduğunu sübut edir. Belə ki, əcəlləri gəldikdə Allah-Təala bu imkanları onlardan alır və onlar da vəfat edərlər.

Allah-Təala belə buyurur:

**"Məgər görmürsənmi ki, Allah göylərdə və yerdə nə varsa,** (hamısını) **bilir. Aralarında gizli söhbət gedən üç adamın dördüncüsü, beş adamın altıncısı Odur. Onlar bundan az da, çox da olsalar və harada olsalar,** (Allah) **yenə də onların yanındadır. Sonra qiyamət günü** (Allah) **onlara etdikləri əməlləri** (bir-bir) **xəbər verəcəkdir. Allah hər şeyi biləndir!"** (əl-Mücadələ, 7)

İnsanın ən yaxın dostu Allah-Təaladır. İstər elmi ilə, istər qüdrəti ilə, istərsə də şəxsən və ya mələkləri ilə hər xüsusda insana ən yaxın qohumlarından daha yaxındır. Qohumları onun ancaq

zahiri hallarını bilə bilərlər. Hər xüsusda ona faydalı olmadıqları kimi, bir çox dərdini də həll edə bilməzlər. Allah-Təala isə hər halını bilir və istədiyini edər. Əsasəndə ölüm anında... Məhz o zaman insana Allah-Təaladan daha yaxın heç kimsə yoxdur. Ayeyi-kərimədə belə buyurulur:

“(Can) **boğaza yetişdiyi** (ölüm gəlib çatdığı) **zaman siz** (ona) **baxıb durursunuz** (əlinizdən heç bir şey gəlmir)**. Biz ona sizdən daha yaxınıq, amma siz** (bunu) **görmürsünüz!”** (əl-Vaqiə, 83-85) Allah-Təala hər an yanında olduğunu unudan və bu şüura sahib olmayan bəndələrini belə tənbeh edir:

**“Onlar** (xəyanətlərini) **insanlardan gizlətsələr də, Allahdan gizlədə bilməzlər. Onlar** (Allaha) **xoş getməyən sözləri ürəklərində tutduqda belə, yenə O onların yanındadır** (Allah onları bilir)**. Allah onların nələr etdiyini biləndir.”** (ən-Nisa, 108)

Allah-Təalanın daim özü ilə bərabər olduğunu və etdiyi hər işi gördüyünü dərk edən bəndə günahlardan uzaq durar və hərəkətlərinə diqqət edər.

### *3. Müraqəbeyi-Əqrabiyyət*

Bu mərhələdə **“Biz ona** (insana) **şah damarından da yaxınıq!”** (Qaf, 16) ayeyi-kəriməsi təfəkkür edilir. Allah-Təala bizə bizdən daha yaxındır.

Adi hərəkətlərimizdən tutmuş, ürəyimizdən keçən ən gizli hisslər, duyğular belə Allaha məlumdur.

Deyilən hər sözü eynən qeyd etməklə vəzifəli olan mələklərin belə fərqinə varmadığı, gizli şəkildə insanın könlünə gələn düşüncə və qərarların hamısını Allah bilir. Çünki hər şeyi olduğu kimi düşüncələri də yaradan Odur.[60] Yaradan heç bilməzmi?

Bu həqiqəti layiqi ilə düşünən bir insanın titrəməməsi və özünü hesaba çəkməməsi qeyri-mümkündür! Əgər insan yalnız bu ayənin mənasını tam olaraq zehnində və qəlbində canlandıra bilsə, Allah-Təalanın razı olmayacağı tək bir sözü belə danışmağa və hətta qəbul edilməyəcək tək bir düşüncəni belə ürəyindən keçirməyə cəsarət edə bilməz. İnsanın hər an təqva üzrə yaşaması və davamlı hesaba çəkilmə təlaşı ilə ayıq-sayıq olması üçün tək bu bir ayeyi-kərimə belə kifayət edir.

Ənfal surəsində Allah-Təalanın insan ilə qəlbi arasına girdiyi[61], istədiyi təqdirdə onun arzu və dü-

60. Allah-Təala xeyrin də, şərin də meydana gəlməsində "Xaliq" sifəti ilə təcəlli edir. Yəni bəndə şər bir əməli işləməyi murad etdikdə Rəbbimiz istəsə Xaliq sifətini təcəlli etdirib o arzunun həyata keçməyinə izin verər. İstəsə də bəndəsinə mərhəmət edib onun həyata keçməyinə fürsət verməz. Bu hal, xeyir olan əməllərdən də eynilə baş verir. Yəni bəndə hər hansı bir xeyri işləməyi arzu etdikdə Rəbbimiz istəsə Xaliq sifəti ilə təcəlli edib həmin işin meydana gəlməyini lütf edər, istəsə də həmin işin həyata keçməyinə izin verməz. Bu zaman həmin bəndə xeyirli niyyətinə görə yenə də eyni savabı qazanar. Yəni xeyri də, şəri də yaradan Allah-Təaladır. Lakin Onun razılığı daim xeyirdədir.
61. Bax: əl-Ənfal, 24.

şüncələrini istiqamətləndirdiyi bildirilir. Allah-Təala insana qəlbindən, qəlbinə də ondan daha yaxın və hakimdir. Qüdrəti o qədər genişdir ki, yalnız insan ilə başqaları arasına deyil, insanla qəlbi arasına belə girər. İnsanı bir anda könlündəki əməllərindən məhrum edər. Əzm və iradəsini pozar və tərs istiqamətə çevirə bilər. Qənaətlərini, zövqlərini dəyişdirər. Ona görə də Allah-Təala insanla qəlbi arasına pərdə çəkdiyi və ölümə dəvət etdiyi vaxt Onun dəvətini qəbul etməməyə və əmrinə qarşı cıxmağa imkanı olmaz. Dolayısı ilə, insan bir nəfəs sonra başına nə gələcəyini bilməz. (Bax: Almalılı M. Həmdi, IV, 2386-2387, əl-Ənfal, 24)

**Əbu Musa əl-Əşari** ﵁ belə nəql edir:

“Biz bir səfərdə Rəsulullah ﷺ ilə birlikdə idik. Təpələrə çıxdıqda “Allahu Əkbər! La ilahə illəllah!” deyərək yüksək səslə təkbir və təhlil gətirdik. Bunun müqabilində Allah Rəsulu ﷺ:

*“- Ey müsəlmanlar! Özünüzə əziyyət verməyin. Çünki siz kara və ya burada olmayan birinə xitab etmirsiniz ki?! Allah daim sizinlə bərabərdir, eşidir və sizə sizdən daha yaxındır.”* - buyurdu.” (Buxari, Cihad, 131; Müslim, Zikr, 44)

Buna oxşar bir çox ayeyi-kərimə və hədisi-şərifdən də başa düşülür ki, Allah-Təala bəndəsinə yaxın olduğu kimi, bəndəsinin də Ona yaxınlaşmağını istəyir. Elə buna görə də **“Səcdə et və yaxınlaş!”**[62] buyurmuşdur.

62. əl-Ələq, 19.

Əqrabiyyət müraqəbəsi ilə qəlbindən keçən hisslərin belə Allah-Təala tərəfindən bilindiyini dərk edən insan təkcə yanlış işlərdən deyil, pis duyğu və düşüncələrdən də uzaq durmağa çalışar. Niyyətini dürüst və istiqamət üzrə tutmağa səy göstərər.

Bu təfəkkürlər nəticəsində bəndədə Allah-Təalaya qarşı dərin bir ünsiyyət və **məhəbbət** meydana gələr.

### *4. Müraqəbeyi-Məhəbbət*

Bu müraqəbədə **"...Allah onları, onlar da Allahı sevərlər..."** (əl-Maidə, 54) ayeyi-kəriməsi təfəkkür edilir. Bu təfəkkürün nəticəsində insanın könlündə Allah-Təalaya məhəbbət artar. Artıq bəndə Allah-Təalanın bütün məxluqatına Yaradandan ötrü məhəbbətlə baxmağa başlayar. Qapıdakı pişiyə, itə və bağçadakı yaşıl bir budağa belə məhəbbətlə baxar. Bir çiçək gördükdə "Aman, ya Rəbb, necə də gözəl lütf edirsən! Bu çiçəyi də Sən ikram etdin." - deyər. Daim həmd və şükür halında olar. Heç kimi incitməz. Şəxsini incidən hər kəsi bağışlayar. Çünki özünün də Allah-Təalaya qarşı saysız xətalarının olduğunu bilər. Özünə qarşı edilən bir günahı bağışlamasa, Aləmlərin Rəbbinə qarşı etdiyi günahlara görə hansı üzlə əfv diləyəcəyini düşünər.

Bağışlaya bağışlaya Allahın əfvinə layiq hala gələ bilmək, kamil möminlər üçün vaz keçilməz bir iman üfüqüdür.

İnsanın şəxsinə qarşı zülm edənləri könlündə ən kiçik bir qəzəb hiss etmədən bağışlaya bilməsi həqiqi zəfərdir.

Digər tərəfdən Allah üçün bağışlamaq məhəbbətullahın ən böyük təzahürlərindəndir. Bu növ təzahürlər nümayiş olunmasa, məhəbbətullah iddiaları yalnız sözdə qalar.

Müraqəbə əsnasında hər mömin öz idrakı, qabiliyyəti və səmimiyyəti ölçüsündə bu ayeyi-kərimələr üzərində təfəkkür edib feyz alar. Beləliklə də bir müddət sonra Qurani-Kərimi təfəkkürlə oxuya biləcək səviyyəyə yüksələ bilmək üçün səy göstərər.

Müraqəbələr nəticəsində bəndə daxili aləmini Allah-Təalaya yönəldər, könlünü Allahdan başqası ilə məşğul etməz. Allahın əmrini hər şeydən üstün tutar. Dilini Allahın zikri ilə məşğul edər.

Sadiq bir bəndə oyuncağına düşkün uşağa oxşayar. Uşaq yatarkən oyuncağının sevgisi ilə yatar, qalxarkən onu axtararaq qalxar. Məhz bir insanın ölməsi və qəbirdən qalxaraq məhşər meydanına getməsi də eynilə belə olacaqdır. Ona görə də insan axşam nəyin dərdi ilə yatdığına diqqət etməlidir. Əgər bir möminin həyatda bütün düşüncəsi Allah olarsa, ölümü də, yenidən dirilməsi də Allah ilə və Onun rizası istiqamətində olar.

Hədisi-şəriflərdə buyurulur:

*“İnsanlar qiyamət günündə öldükləri hal üzrə dirildiləcəklər.”* (Müslim, Cənnət, 83)

*"Necə yaşayarsanız elə ölərsiniz, necə ölərsəniz elə dirildilərsiniz!.."* (Münavi, Feyzul-Qadir, V, 663)

İnsanın bütün çalışması və arzusu Allahdan başqa bir şeydirsə, ölümü də, yenidən dirilməsi də o yolda olar. Qiyamət günü ona kömək edən heç kimsə tapılmaz.

Müraqəbə halını tam olaraq əldə edə bilmək üçün zikr və təfəkkürlə bu vərdişi qazanmaq lazımdır. Belə ki, Rəsulullah ﷺ:

اِحْفَظِ اللّٰهَ تَجِدْهُ تِجَاهَكَ

*"Allaha önəm ver ki, Onu qarşında görəsən!"* (Əhməd, I, 293)

Müraqəbə, təfəkkür və zikrdən tam mənada istifadə edə bilmək üçün ədəblərinə və şərtlərinə riayət etmək lazımdır. Aclıq, qəzəb və yuxu kimi narahatlıq verən hallar səbəbi ilə qəlbin məşğul olduğu zamanları deyil, əksinə qəlbin rahat olduğu anları seçmək bu ədəblərdəndir.



## TƏFƏKKÜR ƏDƏBİ

Bütün varlıqlar insanın idrak və şüuruna qüdrət əli ilə tutulmuş ilahi təcəllilər güzgüsüdür. Bu güzgüdəki sirr və hikmətləri sezə bilmək isə könül güzgüsünün paklığına bağlıdır.

İlahi eşqin ən yüksək cərəyan xətti qəlbin iman tellərindən keçər. İnsan sanki bu cahanın bir bədənnüma güzgüsü, ilahi təcəllilərin həqiqət mərkəzidir. Təfəkkürlə kamala çatanlar üçün İslam dini əbədi bir bahar fəslidir.

## TƏFƏKKÜR ƏDƏBİ

## HAQQ DOSTLARININ TƏFƏKKÜRÜ

**Həzrət Əbu Bəkr** ﷠ bir gün qiyaməti, mizanı, cənnəti, cəhənnəmi, mələklərin səf-səf düzülüşünü, göylərin və günəşin sarınıb büküləcəyini, ulduzların dağılıb səpələnəcəyini və dağların yerindən qoparılacağını xatırlayaraq bunların üzərində dərin bir təfəkkürə daldı. Sonra da Allah qorxusu ilə:

"- Bu yaşıllıqlar kimi bir yaşıllıq olmağı və bir heyvanın gəlib məni yeyərək yox etməyini nə qədər arzu edirəm!" - dedi. Bunun müqabilində Peyğəmbərimizə ﷺ aşağıdakı ayeyi-kərimə nazil oldu:

**"Şübhəsiz ki, Rəbbinin məqamından** (hüzurunda haqq-hesab üçün durmaqdan) **qorxanları iki cənnət** (Ədn nə Nəim cənnətləri) **gözləyir!"** (ər-Rəhman, 46) (Suyuti, Lübabun-Nuqul, II, 146; Alusi, XXVII, 117)

Yenə bir gün **Əbu Bəkr** ﷠ açıq və sakit bir havada çölə çıxmışdı. Səmaya baxıb Allah-Təalanın bəndələri üçün min bir gözəllikdə yaratdığı təbiəti seyr edirdi. Bu əsnada ağacın budağına

qonmuş, gözəl səsi ilə şirin-şirin nəğmə oxuyan bir quş gördü. Birdən hüznləndi və içini çəkdi. Quşa qibtə ilə baxaraq belə dedi:

"- Necə də bəxtəvərsən, ey quş! Vallah, mən də sənin kimi olmaq istəyərdim. Ağacın üzərinə qonur, meyvələrindən yeyir, sonra da uçub gedirsən. Nə hesabın var, nə də əzabın! Vallah, Rəbbimin hüzurunda hesaba çəkiləcək bir insan olmaqdansa, yolun kənarında bir ağac olmağı, bir dəvənin gəlib məni ağzı ilə əzməsini və yeyib udmasını nə qədər istəyərdim." (İbn Əbi Şeybə, Musənnəf, VIII, 144)

**Həzrət Əli** ﷺ belə buyurur:

"Fiqhsiz, incə anlayışdan məhrum olaraq edilən ibadətdə, vəra olmayan fiqhdə, təfəkkür edilmədən oxunan qiraətdə xeyir yoxdur." (Əbu Nuaym, Xilyə, I, 177)

Bu ifadələr də Həzrət Əlinin ﷺ hikmətli sözlərindəndir:

1. Xüşu ilə qılınmayan namazda,

2. Boş söz və davranışlardan uzaq durulmayan orucda,

3. **Təfəkkürsüz qiraətdə,**

4. Vəra duyğusu olmayan elmdə,

5. Səxavət olmayan var-dövlətdə,

6. Mühafizə edilməyən qardaşlıqda,

7. Baqi (əbədi) olmayan nemətdə,

8. İxlassız duada - xeyir yoxdur. (İbn Həcər, Münəbbihat, s. 31)

Həmçinin Həzrət Əli ﷺ hər şeyə ibrət nəzəri ilə baxar, uzun-uzun təfəkkür edərdi. Allah qorxusundan yetim bir uşaq kimi ağlayar, xəstə insan kimi tir-tir əsərdi. İbadəti çox sevər, riyazətə davam edərdi. Az yeməyi, çox xeyirxahlıq etməyi sevərdi. Dini hər şeydən əziz tutardı. Belə buyururdu:

“Xeyirin hamısı bu dörd şeydədir: **Danışmaq, susmaq, nəzər** və **hərəkət.** Allahı zikr etməkdən başqa hər danışıq boşdur. **Təfəkkürdən uzaq bir susma halı xətadır.** İbrətlə olmayan nəzər qəflətdir. Allaha qulluğa sövq etməyən hərəkət boşdur və axmaqlıqdır. Danışığı zikr və xeyir, susması təfəkkür, nəzəri ibrət, hərəkəti qulluq olan şəxsə Allah mərhəmət etsin! İnsanlar belə kimsələrin əlindən və dilindən əmin olurlar.”[63]

Səhabədən **İbn Məsud** ﷺ Quran əhlini tərif edərək belə deyir:

“... İnsanlar bir-birləri ilə danışarkən Quranı əzbərləmiş olan hafiz sükut etməsi ilə tanınmalıdır. Quranı əzbərləmiş bir şəxsin göz yaşları, xüsusi bir gözəllikdədir. Hafiz olan insanın vüqarlı olması, təfəkkür və sükut halında yüksək bir şəxsiyyət və xarakter nümayiş etdirməsi lazımdır...” (Əbu Nuaym, Xilyə, I, 130)

Ümmu-d-Dərdadan (r.anhə):

63. Əbu Nasr Sərrac Tusi, əl-Luma / İslam Təsəvvüfü, tərc. H. Kamil Yılmaz, İstanbul 1996, s. 137-140.

"-**Əbu-d-Dərda** həzrətlərinin ən çox əhəmiyyət verdiyi ibadət hansı idi?" - deyə soruşduqda, o, belə cavab vermişdir:

"- Təfəkkür və onun nəticəsində ibrət almaq idi!" (Vəqi bin Cərrah, Zöhd, s. 474)

Tabəiinin məşhurlarından **Amir bin Abdiqays belə demişdir:**

"Peyğəmbərimizin əshabından bir deyil, iki deyil, üç deyil, bir çox insandan eşitdim, belə deyirdilər:

**"İmanın parlaması və ya iman nurunun artması təfəkkür sayəsində mümkündür."** (İbn Kəsir, I, 448, Suyuti, əd-Dürrül-Mənsur, II, 409, (Ali-İmran, 190))"

**Rəbi bin Heysəm** həzrətlərindən:

"- Səndən daha xeyirli bir insanı bizə tərif edə bilərsənmi?" - deyə soruşduqda, o, belə demişdir:

"- Bəli, kimin ki, danışığı zikr, sükutu təfəkkür və nəzəri ibrətdirsə, məhz o şəxs məndən daha xeyirlidir." (İbn Hənbəl, Zöhd, s. 334; Əbu Nuaym, xilyə, II, 106)

**Əbu Süleyman Darani** belə deyir:

"Gözlərinizi ağlamağa, qəlblərinizi də təfəkkürə öyrəşdirin!"

"Dünyaya ram olmaq insanla axirət arasında bir pərdə olduğu kimi, vəlayət əhli üçün də acı bir itkidir. Axirət üzərində düşünmək isə insanda hikmət nurlarının yaranmasına səbəb olar və qəlbləri ehya edər." (İmam Qəzali, Ehya, VI, 45)

**Yusif Həmədani** həzrətləri də belə buyurur

"İnsanda imani bir təfəkkür yarandıqda əməlisalehlər də onun ardınca gələr. Bu ikisini, yəni əməl və təfəkkürü bir yerə gətirmək hansı şəkildə mümkündürsə, bunları eləcə birləşdirmək lazımdır."[64]

**Fudayl bin İyaz** -rəhmətullahi əleyh- belə deyir:

"Təfəkkür ilahi əzəmət və hökmranlığın güzgüsü kimidir. Sənə xeyir və şərləri göstərər." (İmam Qəzali, Ehya, VI, 44)

**Məhəmməd bin Abdullah** da belə demişdir:

"Təfəkkür beş növdür:

Allahın ayələrini təfəkkür et ki, ondan mərifət meydana gəlir.

Allahın nemətlərini təfəkkür et ki, ondan məhəbbət meydana gəlir.

Allahın vədini və savabını təfəkkür et ki, ondan rəğbət meydana gəlir.

Allahın xəbərdarlığını və cəzasını təfəkkür et ki, ondan qorxu meydana gəlir.

Allahın ehsanı qarşısında nəfslərin cəfasını təfəkkür et ki, ondan həya və peşmanlıq meydana gəlir."

Hikmət əhli də belə buyurmuşdur:

64. Yusif Həmədani, Rutbətul-Həyat, trəc. Necdet Tosun, İstanbul, 2002, s. 60.

“Bütün xeyir və yaxşılıqları bir yerə cəm edən şey uzun-uzun təfəkkür etməkdir. Sükut səlamətdir, batil olan şeylərə meyil etmək isə kədər və acı peşmanlıqdır. Kim axirətdən qafil qalıb nəfsani arzularına ram olarsa, qiyamət günü öz-özünə: “Ar olsun sənə!” deyəcək və yox olmağı ürəkdən arzu edəcəkdir.” (Beyhəqi, Şuab, VII, 417/10812; IV, 272/5070)

## TƏFƏKKÜR BULAĞINI BƏRƏKƏTLİ TORPAQLARA AXITMAQ LAZIMDIR

Allah-Təala hər bəndəsinə təfəkkür qabiliyyəti vermişdir. Hər insanın daxilində şır-şır axan bir təfəkkür balağı mövcuddur. Bu bulaq heç zaman qurumaz, daim axar. Ancaq düzgün istiqamətləndirilməyib öz başına buraxılarsa, hara axacağı bilinməz. Doğru-yanlış hər yerdən axıb gedər. Bəzən quru səhralarda yox olar. Başqa bir ifadə ilə, selə məruz qalmış kötüklər kimi bilinməz bir aqibətə doğru sürüklənər.

Əsl məharət isə təfəkkür bulağını münbit torpaqlara doğru istiqamətləndirib bərəkətli məhsullar yetişdirməkdir.

Allah-Təala təfəkkür və təhəssüs nemətlərini ilahi riza istiqamətində istifadə etməyən insanları belə tənbeh edir:

**“Allah yanında** (yer üzündə) **gəzən canlıların ən pisi** (haqqı) **dərk etməyən karlar və lallardır.”** (əl-Ənfal, 22)

**"Biz cinlərdən və insanlardan bir çoxunu cəhənnəm üçün yaratdıq. Onların qəlbləri vardır, lakin onunla** (Allahın birliyini sübut edən dəlilləri, özlərinin dini borc və vəzifələrini) **anlamazlar. Onların gözləri vardır, lakin onunla** (Allahın möcüzələrini) **görməzlər. Onların qulaqları vardır, lakin onunla** (öyüd-nəsihət) **eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də,** (ondan) **daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!"** (əl-Əraf, 179)

Qəlb bir güzgü kimidir, qəflət və inkarla qaralıb paslanır. Onun cilası ilk növbədə Allahı təsdiq, sonra isə Ona məhəbbətlə yönəlməkdir. İnsan ən sadə misalla: "Niyə dünyaya gəldik, kimin mülkündə yaşayırıq, ruzimizi verən kimdir, hara gedirik?.." kimi sualların cavabını düşünməlidir. Bu həqiqətlərdən uzaq şəkildə nəfsani bir yaşayışa dalıb qəlbini Haqqı bilmək və Onun varlığının dəlillərini düşünməklə məşğul etməyən şəxs həzin bir aqibətin yolçusu olmuşdur.

Belə insanlar həqiqəti açıq bir dil ilə ortaya qoyan nemətləri görməzlər, onların üzərində düşünməzlər. Buna görə də qəflət və zəlalətdə nümunə olan "heyvanlar"a bənzədilmişdilər. Çünki onların da bütün arzuları yemək, içmək və nəfsani istəklərini yerinə yetirməkdir.

Allah-Təala belə buyurur:

**"**(Ya Rəsulum!) **Nəfsini özünə tanrı edəni gördünmü? Onun vəkili** (zamini) **sənmi olacaqsan?**

**Yoxsa elə güman edirsən ki, onların əksəriyyəti** (sən deyən sözü) **eşidəcək və ya** (ağıllı-başlı) **fikirləşəcək? Onlar heyvan kimidirlər, bəlkə, ondan daha çox zəlalət yolundadırlar.** (Heyvan heyvanlığı ilə öz mənfəətini bilib ona zərər gətirən bir işi görməz. Bunlar isə nə xeyirlərini, nə də zərərlərini anlayarlar)**.”** (əl-Furqan, 43-44)

Bir Haqq dostu belə deyir:

“Bu aləm aqillər (düşünüb ibrət alan ağıl sahibləri) üçün ilahi sənətin ibrətli tamaşası, axmaqlar üçün isə yemək və şəhvətdən ibarətdir.”

Digər tərəfdən, təfəkkür (əvvəlcə də qeyd etdiyimiz kimi) iki tərəfi də kəsən bıçaq kimidir. Xeyirə də xidmət edə bilər, şərə də. Nəfsin bayağı əməllərinin əmrinə də tabe olar, ruhani ülviliklərin əmrinə də... Allah-Təala təfəkkür qabiliyyətini pis yollarda istifadə edən bəndələrini belə tənbeh edir:

**“Heç kəs Allahın izni olmadan iman gətirə bilməz. Allah** (Özünün öyüd-nəsihətlərini, hökmlərini) **anlamayanları əzaba** (kəsafətə) **düçar edər.”** (Yunus, 100)

İnsana bulaşan ən böyük pislik inkar xəstəliyidir. Zehnini və könlünü Allahın kövni və kəlami ayələri ilə məşğul etməyən, onlar üzərində düşünməyən, təfəkkür etməyən şəxs bu pislikdən xilas ola bilməz.

İman nuru ilə bəslənib vəhyin rəhbərliyi altında istifadə edilən ağıllar tövhidə və Allahı tanıma-

ğa yol taparkən, bundan məhrum olan ağıllar haqqa və xeyirə nail olmazlar. Vəhyi əsas götürmədən sırf ağılları ilə həqiqəti tapa biləcəklərini zənn edən filosofların ən böyük səhvi də budur. Çünki onlar imandan uzaq olan ağıllarının da haqqa və xeyirə yol tapa biləcəyini güman edirlər.

Digər tərəfdən, təfəkkür nemətini doğru şəkildə istifadə edə bilmək üçün ağlı və könlü boş və faydasız şeylərlə məşğul etməmək lazımdır. Belə ki, ayeyi-kərimələrdə buyurulur:

**"O kəslər ki** (nicat tapan möminlər)**, lağlağıdan** (lüzumsuz şeylərdən) **üz döndərərlər."** (əl-Muminun, 3)

**"O kəslər ki** (Rəhmanın xas bəndələri)**, yalan yerə şahidlik etməz, faydasız bir şeylə rastlaşdıqları** (lağlağı bir söhbət eşitdikləri) **zaman onlardan üz çevirib vüqarla keçərlər** (özünü ləyaqətlə aparıb onlara əhəmiyyət verməzlər)**."** (əl-Furqan, 72)

Hədisi-şərifdə də:

*"Lüzumsuz şeyləri tərk etmək insanın yaxşı bir müsəlman olmağından irəli gəlir."* -buyurulmuşdur. (Tirmizi, Zöhd, 11; İbn Macə, Fitən, 12)

Nəfsani xəstəliklərin ən təsirli əlacı insanın təfəkkürünü faydalı şeylər üzərində cəmləyib özünə aid olmayan şeylərlə məşğul olmaqdan uzaq durmaqdır. Boş və faydasız şeylər üzərində təfəkkür, bütün şər, məğlubiyyət və zillətin qapısıdır.

Belə şeylər üzərində düşünənlər faydalı olandan məhrum qalır, özlərinə lazım olan şeyləri əldən çıxarırlar.

**İbnul-Cövzi** deyir ki:

“Qəlbin mübahları düşünə-düşünə durması onda zülmət meydana gətirir. Haramları düşünüb planlamağın necə bir nəticə hasil edəcəyini sən özün düşün! Müşk belə, suyun vəsfini dəyişdirib onunla dəstəmaz almağa əngəl olursa, itin yaladığı suyun halını sən özün düşün! Bax, buna görə də dahilərdən bir belə deyir: *“Mübahları etməyi adət halına gətirən insan vüslətin ləzzətindən məhrum qalar.”*” (Bursəvi, Ruhul-Bəyan, (əl-Muminun, 51))

İnsan təfəkkür, təhəssüs, təxəyyül və təsəvvür gücünü xeyirə yönəltməzsə, şeytan onun düşüncəsini şərə yönəldər. Dolayısı ilə, həmin insan Rəhmani bir təfəkkür nemətinə sahib ola bilməz. Allah-Təalanın nemət olaraq lütf etdiyi əqli və qəlbi qabiliyyətlərdən istifadə etməkdənsə, hədər edər.

Ona görə də hər bir mömin Qurani-Kərim və Sünneyi-Səniyyənin göstərdiyi istiqamətdə ağlını, fikrini daim haqqa və xeyirə sərf etməlidir.

## TƏFƏKKÜR ZİKRLƏ BİRLİKDƏ OLMALIDIR

**Yusif Həmədani** -qüddisə sirruh- belə deyir:

“Qəlb və zikr ağac ilə su kimidir. Qəlb və təfəkkür isə ağac ilə meyvə kimidir. Ağaca su ver-

mədən yaşıllaşmasını; yarpaq və çiçək açmasını gözləmədən də meyvə verməsini gözləmək doğru deyil. İstəsən belə, əsla meyvə verməz. Çünki həmin vaxt meyvə vermək zamanı deyil, ağacı bəsləmə və qulluq etmə zamanıdır. Ona su vermək, sarmaşıqlardan və yad ünsürlərdən təmizləmək, sonra da günəşin şüalarını gözləmək lazımdır. Bunlar meydana gəldikdə isə ağac təzə və canlı olur, yaşıl yarpaqlarla bəzənir. Ağac bu xüsusiyyətə büründükdən sonra onun budağından meyvə tələb etmək doğru olar. Çünki artıq bu vaxt meyvə vermək zamanıdır." (Rutbətu-l-Həyat, s. 71)

**Həsən Bəsri** həzrətləri də belə deyir:

"Ağıllı insanlar özlərini zikrlə təfəkkürə, təfəkkürlə də zikrə öyrədərlər. Nəticədə qəlblərini danışdırarlar. Bundan sonra artıq onların qəlbi daim hikmətlə danışmağa başlayar." (İmam Qəzali, Ehya, VI, 46)

Xülasə, zikr ilə təfəkkür bir-birindən ayrılmamalıdır. Zikrdə ən mühüm xüsus onu şüurla və mənasını təfəkkür edərək etməkdir. Böyük vəlilərdən **Məhəmməd Parsa** həzrətlərinin ifadəsinə görə kəlmeyi-tövhid zikrində "Lə iləhə" (başqa ilah yoxdur) deyərkən bütün məxluqatın fani olduğunu düşünüb hamısını yox qəbul etmək və Allahdan qeyri hər şeyi zehndən çıxarıb düşüncələri təmizləmək lazımdır. Qəlb Allah-Təaladan başqa heç bir şeyin qulu olmamaq şüur və idrakı ilə dolmalıdır. "İlləllah" (təkcə Allah vardır) deyərkən də Allahın uca varlığının əbədi olduğunu düşünmək lazımdır.

Bu şəkildə Allah-Təalanın cəmali sifətləri o qəlbdə təcəlli edər.

**Bəhəuddin Nəqşibənd** -qüddisə sirruh- da:

“Zikrdən məqsəd yalnız “Allah” və “Lə iləhə illəllah” demək deyil. Bəlkə də səbəbdən səbəbkara (Allaha) getmək və nemətin səbəbkardan gəldiyini görməkdir.” - deyir.

Yəni zikrin həqiqəti qəflət meydanından müşahidə üfqünə yüksəlməkdir.

**Mövlana** -qüddisə sirruh- belə buyurur:

*“... Tək olan, tayı-bərabəri olmayan Rəbbimiz;* «اُذْكُرُوا اللّٰهَ: *Allahı zikr edin!*» *deyə bizə izin verdi. Bizi od içində gördü və nur ehsan etdi... Hiss etmədən, təfəkkür etmədən təkcə ağız və dil ilə edilən zikr nöqsandır. Canu-könüldən, heyranlıq duyularaq edilən zikr sözlərdən, kəlmələrdən təmizlənmişdir.”* (Məsnəvi, c. 2, beyt: 1709, 1712)

Allahın isim və sifətlərini təfəkkürlə zikr edən şəxsdə bir müddət sonra Allaha məhəbbət artar. Çünki Allahı zikr etmək “Allah” ləfzini təkcə kəlmə olaraq təkrarlamaq deyil, Onun məhəbbətini idrak mərkəzi olan qəlbə yerləşdirməkdir.

Zikr və təfəkkür sayəsində insan ilk növbədə məhəbbətullaha nail olar, sonra bu məhəbbət sayəsində mərifətullaha, yəni Allah-Təalanın isim və sifətlərini daha yaxşı tanımağa balayar. Bunun nəticəsində Allah-Təala da onu sevər və Özünə dost

edər. Belə ki, bir qüdsi hədisdə Haqq-Təala belə buyurur:

*“Bəndələrimdən vəlilərim və yaratdıqlarımdan sevdiklərim Məni zikr edənlərdir ki, zikrlərinin əvəzində Mən də onları anaram!”* (Əhməd, III, 430)

Zikr dil ilə, bədənlə və qəlblə olmaqla üç qisimdə mütaliə edilmişdir. Dilin zikri Allah-Təalanı gözəl isim və sifətləri ilə yad etmək, həmd etmək, təsbih edib ucaltmaq, kitabını oxumaq və Ona dua etməkdir. Bədənin zikri də hər bir üzvü əmr olunduğu şəkildə məşğul etmək və qadağanlardan uzaq tutmaqdır. Qəlbin zikrini isə **Almalılı Həmdi Əfəndi** belə izah edir:

“Qəlbi zikr Allahı könüldən anmaqdır ki, bu, əsas üç qrupdur:

1. Allahın zatına və sifətlərinə dəlalət edən dəlilləri düşünmək və Onun mülkü haqqında qəlbə gələn şübhələrə cavab axtarmaqdır.

2. Rəbbimizin üzərimizdəki haqlarını və qulluq vəzifələrimizi təfəkkür etməkdir. Yəni Allahın əmr və qadağalarını, bunların dəlil və hikmətlərini düşünməkdir. (Çünki insan təkliflərin mahiyyətini və ilahi əmrlərə itaətin nəticələrini bildikdə əməlisalehlərə daha çox rəğbət edər.)

3. Daxili aləmdəki və xaricdəki məxluqatı və bunlardakı yaradılış sirlərini təfəkkür edərək hər zərrənin ilahi aləmə bir güzgü olduğunu idrak etməkdir. Bu güzgüyə lazimi şəkildə baxanların gö-

zünə o cəmal və cəlal aləminin nurları əks edər və bundan bir şüur anı içində alınacaq olan zövqün parıltısı belə dünyalara dəyər.

Zikrin bu mərtəbəsinin sonu yoxdur. Bu nöqtədə insan özündən və aləmdən keçər. Bütün şüuru Haqda yox olar. Hətta zikr və zakirdən (zikr edəndən) heç bir ad və nişan qalmaz. Yalnız məzkur (zikr edilən Haqq) hiss edilər. Düzdür, bu məqamdan danışanlar çoxdur, ancaq bu məqama çatanların danışmaqla heç bir əlaqəsi yoxdur." (Haqq Dini, Quran Dili, (əl-Bəqərə, 152))

Xülasə, bütün varlıqlar insanın idrak və şüuruna qüdrət əli ilə tutulmuş ilahi təcəllilər güzgüsüdür. Bu güzgüdəki sirr və hikmətləri sezə bilmək isə könül güzgüsünün paklığına bağlıdır.

### *Zikr və Təfəkkürün Ən Bərəkətli Vaxtı Sübh Çağıdır*

Sevən sevdiyini çox zikr edər. Bir şeyi çox zikr edən şəxs bir müddət sonra onu daha artıq sevməyə balayar. Sevginin böyüklüyü isə, sevilən uğrunda edilən fədakarlıq ölçüsündədir. Məhz sübh çağında şirin yuxusunu tərk edib Allah-Təalaya sığınmaq da həqiqi bir məhəbbətin ən gözəl təzahürlərindən biridir.

Düşünmək lazımdır ki, sübh çağında ilahi rəhmət və ilahi əfv sanki coşub daşır. Bu ilahi bərəkətdən ilham alan bülbüllər ən şirin nəğmələri ilə

cəh-cəh vurur, açılan rəngbərəng güllər ən gözəl rayihələrini həmin vaxtda comərdliklə ikram edir. İnsanın bu ilahi rəhmət süfrəsindən məhrum qalması necə də həzindir!

Günün ən qiymətli qismi gecənin üçdə ikisindən sonraya təsadüf edən sübh çağlarıdır. Sübh çağı zehnin məşğuliyyətlərdən uzaq olduğu, qəlbin durulub paklaşdığı, səssizliyin ətrafı bürüdüyü, fani əlaqələrin zəyiflədiyi bir andır. Bu vaxt ilahi rəhmətin endiyi və Aləmlərin Rəbbinin bəndəsinə ən yaxın olduğu bir zamandır. Məşğuliyyətlərdən uzaq olması və könlün tam mənası ilə Allaha yönələ bilməsi səbəbilə sübh çağı düşünənlər üçün ibrət almağa ən əlverişli zamanlardır. Təfəkkür üçün ən münbit vaxtdır.

Allah-Təala belə buyurur:

**“Ey** (libasına) **örtünüb bürünən** (Peyğəmbər)**! Gecəni - az bir hissəsi istisna olmaqla - qalxıb namaz qıl!** (Gecənin) **yarısına qədər, yaxud bir qədər ondan az və ya bir qədər ondan çox!** (Sənin gecəni oyaq qalıb namaz qılmağın onun üçdə bir hissəsindən az, üçdə ikisindən çox olmasın!) **Həm də** (gecə ibadət etdiyin zaman) **aramla** (ağır-ağır) **Quran oxu! Həqiqətən, Biz sənə** (məsuliyyəti) **ağır bir kəlam** (Quran) **vəhy edəcəyik. Şübhəsiz ki, gecə** (namaz qılmaq üçün) **qalxmaq** (çox çətin olsa da) **daha əlverişli və** (o zaman) **söz demək** (Quran oxumaq, dua etmək) **daha münasibdir! Çünki gündüz** (ya Peyğəmbər!) **sənin uzun-**

**uzadı davam edən** (dünyəvi) **işlərin vardır.”** (əl-Müzzəmmil, 1-7)

Sübh çağının sükunətinə qarşılıq olaraq gündüzlər diqqətlərin dağldığı, səs və gurultunun artdığı zamanlardır. Gecənin təsirli vaxtlarından istifadə edə bilməyən bir şəxs göndüzün məşğuliyyətləri arasında Allah-Təalaya yönəlmə və ibadət etməyin feyz və ruhaniyyətinə sübh çağındakı qədər nail oluna bilməz.

Xülasə, sübh çağı ibadət üçün ayrılmış müstəsna bir an, gündüz isə xidmət etmək və ruzi qazanmaq üçün bəxş edilmiş gözəl bir nemətdir. Yəni mömin sübh çağında yalnız Haqq ilə, gündüzlər isə xalq arasında Haqq ilə bərabər olmalıdır.

**Rəsulullah** ﷺ gecənin ən bərəkətli və feyzli vaxtı olan sübh çağında namaz qılmağı, Quran oxumağı, dua və təfəkkür etməyi heç tərk etməmişdir. Belə ki, xəstələndiyi və ayağa qalxa bilməyəcək qədər taqətsiz qaldığı zamanlarda belə, sübh çağlarını oturaraq dəyərləndirmişdir.[65]

Allah Rəsulu ﷺ təfəkkür üçün xüsusən gecələrdən istifadə edərdi. Göz yaşları içində ayaqları şişənə qədər qiyamda qalar, saatlarla rüku və səcdə halında durardı.

**İmam Həsən bin Ruşeyk** belə deyir:

“Təfəkkür dəryasının kilidlərini və Haqq qapısını aça bilmək üçün sübh çağında yuxudan

65. Bax: Əbu Davud, Tatavvu, 18.

qalxıb mənəvi yüksəlişə səbəb olacaq səylər içində olmaqdan daha yaxşı bir açar yoxdur. Çünki insan o vaxt xarici əlaqələrdən, dünya təlaş və ehtirasından uzaqdır. Rəbbi ilə bərabərlik zamanına girmişdir. Bədəni istirahət etmiş, özünə gəlmiş, gümrahlaşmış və canlılıq qazanmışdır. Xülasə, havanın ən gözəl, mehin ən şirin olduğu vaxt və gecə ilə gündüz arasındakı ən əlverişli zaman sübh çağıdır. **Çünki sübh çağında aydınlıq qaranlığın üzərini örtməkdədir.** Axşam vaxtı isə vəziyyət bunun əksinədir, qaranlıq aydınlığın üzərinə çökür." (Bax: Əbu Guddə, Zamanın Qiyməti, s. 86)

Ayeyi-kərimədə buyurulur:

**"Onlar** (təqva sahibi olan möminlər) **ibadət üçün yataqlarından qalxar** (gecələr az yatar)**, qorxu və ümid içində** (Allahın əzabından qorxaraq, mərhəmətinə ümid bəsləyərək) **Rəbbinə dua edər və onlara verdiyimiz ruzilərdən** (ehtiyacı olanlara) **sərf edərlər."** (əs-Səcdə, 16)

Bir möminin sübh çağında günahlarının bağışlanmasını istəməsi, ilahi əzabı düşünüb duyğulanması, ölümü xatırlaması, həyatının geri qalan qismini necə dəyərləndirəcəyini planlaşdırması və Qurani-Kərim üzərində təfəkkür etməsi Allah-Təalanın sevib razı olduğu əməlisalehlərdəndir.

Allah-Təala bu şəkildə sübh çağını əhya edən və infaq ömrü yaşayan bəndələrinə bu müstəsna müjdəni verir:

**“Etdikləri əməllərin mükafatı olaraq** (Allah dərgahında) **onlar** (möminlər) **üçün göz oxşayan** (onları sevindirəcək) **nə cür nemətlər gizlənib saxlandığını heç kəs bilməz!”** (əs-Səcdə, 17)

**Allah Rəsulu** ﷺ də bu ayeyi-kərimənı belə təfsir etmişdir:

*“Allah-Təala: “Mən saleh bəndələrim üçün heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi, heç bir insanın xətir və xəyalına gəlməyəcək nemətlər hazırladım!” buyurdu.”* (Buxari, Bədul-Xalq, 8; Təfsir, 32/1; Tövhid, 35; Müslim, Cənnət, 2-5)

Buradan da başa düşülür ki, bizə bildirilməyən cənnət nemətləri, bildirilənlərə nisbətlə çox azdır. Bəzi rəvayətlərdə bu nemətləri mələklərin və peyğəmbərlərin belə bilmədiyi xəbər verilir.

# NƏTİCƏ

## Təfəkkür Həqiqətin və Nicatın Açarıdır

Həqiqətə çatmaq, ancaq təfəkkürlə və düşünməklə mümkündür. Dəlilləri, yəni ilahi qüdrət naxışlarını və əzəmət təcəllilərini eşidib görmək xüsusunda kar və kor kimi davranan kimsə necə olar ki, doğrunu tapa bilər? Ona görə də “Biliklər hissləri oyandırmırsa, elm də olmaz.” - deyilmişdir.

Allah-Təala həqiqəti tapa bilməyən kafirlərin vəziyyətini ayeyi-kərimədə belə ifadə edir:

**“Şübhəsiz ki, sən nə ölülərə** (haqqı) **başa sala bilər, nə də dönüb gedən karlara** (haqqa) **çağırışı eşitdirə bilərsən!”** (ən-Nəml, 80)

İnsan vəhm, xəyal və nəfs kimi bəlalardan azad olmasını təmin edən, vəhylə tərbiyə edilmiş bir ağıl ilə Peyğəmbərimizin könül iqlimindən pay almağa çalışarsa, haqqa və xeyirə çatar. Onun möcüzələri bir tərəfə, ağlını və siyərini belə, layiqincə şəkildə təfəkkür etsə, şübhəsiz ki, sadiq bir peyğəmbər olduğunu və dəvət etdiyi şeylərin hamısının haqq olduğunu idrak edər. Bu təfəkkür nə-

ticəsində (Allahın izni ilə) nəfsani arzularından və ağılın çıxılmaz yollarından xilas olar.

Allah-Təala cəhənnəmliklərin halını və peşmanlıqlarını belə xəbər verir:

**"Onlar orada fəryad edib deyəcəklər: "Ey Rəbbimiz! Bizi buradan çıxart ki, saleh əməllər edək. O əməlləri yox ki** (dünyada) **edirik!"**

(Onlara belə deyəcəyik: )

**"Məgər orada sizə öyüd-nəsihət qəbul edəcək kimsənin öyüd-nəsihət qəbul edə biləcəyi** (düşünəcək kimsənin düşünəcəyi) **qədər ömür vermədikmi?! Hələ sizə** (siz kafirləri Allahın əzabı ilə) **qorxudan peyğəmbər də gəlmişdi. Dadın** (cəhənnəm əzabını)**! Zalımların imdadına çatan olmaz!"** (Fatir, 37)

Deməli, insan həqiqətə və əbədi nicata iki yolla çata bilər:

1. Ya saleh möminləri tapıb onlara təslim olacaq və onların feyz və ruhaniyyət dairəsi içində Haqqa itaət edəcək,

2. Və ya təfəkkür və təhəssüs qabiliyyətlərini Quran və Sünneyi-Səniyyə istiqamətində istifadə edərək doğrunu tapıb nəfsini ona boyun əydirəcəkdir. Həm həqiqət əhlinə itaət etməz, həm də insafla düşünüb ağlın göstərdiyi yoldan getməzsə, aqibətinin dəhşətli bir əzab olacağı şübhəsizdir.

## Əsl Təfəkkür Vacibul-Vücudun İsbatıdır

Əvvəlcə də ifadə etdiyimiz kimi insanın Allah-Təalanın Zatını idrak etməsi qeyri-mümkündür. Çünki bəşəri elmin yolu havassı-xəmsə (beş duyğu), ağıl və qəlbdir. Bütün bu idrak qabiliyyətlərinin qüdrəti isə məhduddur. Qüdrət və səlahiyyəti məhdud olan bir vasitə ilə Baqi, Mütləq, Əzəli və Əbədi olan bir varlıq dərk edilə bilməz. Məhdud olan vasitə ilə edilən idrak, ancaq məhdud olaraq real olar bilər.

Dolayısı ilə, Allahın Zatı üzərində düşünmək, qədərin sirrini və hikmətini bütünlükdə çözməyə çalışmaq kimi bəşər taqətinin üstündə olan işlərlə zehni məşğul etmək Quran və Sünnə tərəfindən qadağan edilmişdir. Necə ki, ilahi həqiqətləri təfəkkür etməmək bir fəlakət səbəbidirsə, insanın həddini bilməyib imkan və qüdrətini aşan işlərlə məşğul olması da onu böyük bir xüsrana düçar edər.

Elə buna görədir ki, **Rəsulullah** ﷺ:

*“Allah-Təalanın yaratdıqları və nemətləri üzərində təfəkkür edin, lakin Zatı haqda düşünməyin! Çünki siz, Onun qədrini (layiq olduğu şəkildə) əsla təqdir edə bilməzsiniz.”* - buyurmuşdur. (Bax: Deyləmi, II, 56; Heysəmi, I, 81; Beyhəqi, Şuab, I, 136)

**İbn Ərəbi** həzrətləri də:

كُلُّ مَا خَطَرَ بِبَالِكَ وَ اللّٰهُ غَيْرُ ذٰلِكَ

“Allah-Təala ilə əlaqəli olaraq ağlına hansı düşüncə gəlirsə gəlsin, bil ki, Uca Allah ondan başqadır.” - buyurmuşdur. Çünki İslamın təlqin

etdiyi bir həqiqət olraq Allahın zati sifətlərindən biri "muxalifətun lil-havadis", yəni yaradılmış olan heç bir şeyə bənzəməməkdir. Buna görə də bizim bir insanı, məsələn alim, abid kimi Allaha aid bəzi sifətlərlə təsvir etməyimiz də, ancaq Allahın muxalifətun lil-havadis sifətinə olan imanımız sayəsində şirk (şərik qoşmaq) olmaz.

Allah-Təalanı zat həqiqəti etibarı ilə qavramaq qeyri-mümkün olmaqla yanaşı, Onun kainat və hadisələr üzərindəki sifət təcəllilərinə baxaraq varlığına və birliyinə ağıl ilə və qəlbən vaqif olmaq mümkündür. Hər məxluq kimi imkan və iqtidarı məhdud olan insan üçün mümkün olan da ancaq budur. Bu isə Allah dərgahında mömin qəbul olunmaq üçün kifayətdir. Elə buna görə də İslam alimləri "Elmin zirvəsi və ən fəzilətlisi mərifətullah, yəni Allahı bilməkdir." - demişlər.

Həqiqətən insan, ancaq sifətdən sifətin sahibinə, əsərdən əsərin sahibinə doğru gedən bir idraka sahibdir. İnsan bu yolla, yəni hər biri bir sənət xariqəsi olan məxluqatına və lütf etdiyi nemətlərinə baxaraq Allah-Təalanın əzəmətini, qüdrətini və rəhmətini öz istedad və iqtidarı ölçüsündə dərk edə bilər. Yəni hər kəs mərifətullah okeanından ancaq qabının həcmi qədər su götürə bilər.

**Həzrət Mövlana** belə buyurur:

*"Bir gecə Allah-Təalanın nurunu insanlarda görüm deyə məndə bir arzu oyandı. Sanki dənizi damlada, Günəşi zərrədə görmək istəyirdim..."*

Əgər insan sağlam bir idrak və səmimi bir təfəkkür və təhəssüslə Allah-Təalanın sifətlərinə, feillərinə və əsərlərinə nəzər edərsə, onun inkar etməsi əsla düşünülə bilməz. Çünki inkar zehni və fikri fəaliyyət ilə qəlbi həssasiyyətin pozulduğu zaman başlayar. Yəni zehn və qəlbi fitrət üzrə sağlam olan bir şəxsin küfrə düşməsi əsla mümkün deyil. Əgər bir kimsə küfr aləmində gözünü açmışdırsa, onun da küfrdən xilas olma ehtimalı çox yüksəkdir. Buna misal olaraq **Həzrət İbrahim**in müşrik bir cəmiyyətdə doğulub böyüməsinə baxmayaraq, sırf əqli və qəlbi qabiliyyətləri ilə Allah-Təalanın varlıq və birliyini tapması Qurani-Kərimdə geniş bir şəkildə bəyan edilmişdir.

Buna görə də inkar etmək, sağlam düşüncəli bir şəxs üçün qeyri-mümkündür. Çünki bir şeyə "yox" deməklə işin içindən çıxmaq olmaz. Fikrini əsaslandırmaq üçün doğru dəlil və isbat lazımdır. Həyat, kainat və ölümdən sonrakı müəmmanı çözə bilməyənlər yalnız "yox" deməklə nəyi dəlil göstərirlər və nəyi isbat edirlər? Bu hal, mədəsi ac olduğuna görə sağlamlığını itirən, ancaq bunun fərqində olmayan kimsələrin halına oxşayar. Onların ac olduqları halda "ac deyilik" demələri, ancaq xəstəliklərinin isbat və dəlilidir. Bütün sinir sistemi iflic olmuş və ya narkoz verilmiş bir şəxs vücuduna batan iynənin, üzvlərini bir parça kimi kəsib doğrayan bıçağın fərqində olmaz. Eynilə bunun kimi uca həqiqətlərə qarşı ruhunu xəstə edib bunun fərqində olmayan kimsələr haqqında Allah-Təala:

**"Korlar, karlar və dilsizlər..."** ifadəsini işlədir.

Çünki Allah-Təala hər insanın fitrətinə inanma və həqiqəti axtarma ehtiyacını və iqtidarını yerləşdirmişdir. Buna görə də iman və həqiqətdən xəbərsizlik və ya qopuqluq, ancaq ruhi bir korluq və karlıq səbəbiylədir. Yoxsa ki, inanmayan kimsənin ruhu da Allahı idrak etməyə hazırdır və ya idrak halındadır. Ancaq bu xüsusiyyəti mənəvi korluq və karlığı səbəbiylə şüur üstünə çıxara bilməmişdir. Eynilə görüldüyü halda xatırlanmayan yuxular kimi...

Digər bir ifadə ilə, insan ruhunun imana olan meyli fitridir və bu bir ehtiyac olaraq uşaqlıqdan etibarən mənəvi doyum tapması vacib olan bir aclıq kimi qarşımıza çıxar. Məsələn, atasını namaz qılarkən görən bir uşaq, namazın keyfiyyətinə dair suallar soruşmaz. Allahın böyüklüyünü mücərrəd olaraq idrak edə bilmədiyi üçün mücərrəd olaraq ifadə etməyə çalışar. Allahın nə boyda olduğunu soruşar, ölən insanın hara getdiyini öyrənmək istəyər, cənnət və cəhənnəmin necə bir yer olduğunu bilmək istəyər. Daim bir axtarış içindədir. Çünki insan fitrətində mənəviyyat gizlidir. Gizli olan bu istedad şüur üstünə çıxdığı zaman insan mömin olur. Şüur altında həbs edildiyi zaman isə kafir olur. Eynilə qəfəsə qoyulmuş bir quş kimi. Uzun bir qəfəs həyatından sonra quşu qəfəsdən buraxsanız, uça bilməz. Çünki qanadları kirəclənmişdir. Eynilə bunun kimi iman hissi də şüur üstünə çıxmadığı zaman insanın inanma qabiliyyəti sönür.

Bu mənada, bizi yoxdan var edən Allahı imkan və iqtidarımız ölçüsündə bilməyimiz lazımdır. İrfana və mərifətullaha çataraq vasili-iləllah ola bilmək üçün Onun sifət və fellərini doğru şəkildə idrak etməliyik.

Hər işində hikmət sahibi olan Allah-Təala müşrik bir topluma Peyğəmbərimizi təbliğ üçün göndərdikdə ilk olaraq "Tayı-bərabəri və ortağı olmayan Rəbbinin adı ilə oxu..." buyursaydı, bu, birbaşa etiraza səbəb olar və şirk üzərində qurulmuş idrakların imanla şərəflənmə ehtimalları azalardı. Ancaq Allah-Təala sözə onların etiraz edə bilməyəcəyi "yaratma" sifəti ilə başlamışdır. Bunu qəbul etdikdən sonra isə sözü "yaratma" feilinin sahibinə gətirib: **"Yaradan Rəbbinin adı ilə oxu!"** (əl-Ələq, 1) buyurmuşdur. Bütlərin heç bir şey yaratmadığını bilən müşriklər həqiqi ilahın Allah olduğunu, həqiqi tərif və həmd edilməyə yalnız Onun layiq olduğunu öz-özlərinə başa düşmüşdülər.

**Müfəssir Beyzavi** deyir ki:

"Uca Allah Ələq surəsində insanı ən aşağı mərtəbədən ən yüksək mərtəbəyə nəql etdiyini xatırladır. Beləliklə də əvvəlcə Allahı tanımağa ağıl yolu ilə dəlalət edən yaradılışa işarə edir. Sonra isə eşitmə yolu ilə dəlalət edən oxuyub yazmağa diqqəti yönəldir. Yəni əqli və nəqli elmləri birləşdirir."

Xülasə, Allah-Təala yaratdıqları üzərində təfəkkür etməyi inkar edənlərin iman ilə şərəflənmələrinə bir səbəb etmişdir. Möminlərin bu xü-

susdakı təfəkkürləri də imanlarının qüvvətlənməsinə, yəqinlərinin artmasına vəsilədir.

## Hər Şey Hərəkət və Dəyişim Halındadır

Bir anlıq düşünsək görərəik ki, gördüyümüz aləmdə hər şey dəyişir. Bir surətdən digər surətə keçir. Məsələn, nütfə aləqaya, aləqa mudğaya, mudğa ət və sümüyə çevrilir. Bu cür dəyişim ulduzlarda, planetlərdə, mədənlərdə, bitkilərdə, bir sözlə hər şeydə baş verir.

Atomun içində möhtəşəm hərəkət var. Elektronlar çox incə bir hesabla və ağla-xəyala sığmayacaq bir sürətlə hərəkət edirlər. Nüvə elementləri olan proton və neytronlar isə çox kiçik bir həcmə sıxışdıqları üçün sürətləri də elektronlara nisbətlə fövqəladə dərəcədə yüksəkdir. Belə ki, saniyədə təxminən 60000 km sürətlə hərəkət edərlər. Bu yüksək sürət onları ağlasığmaz bir şəkildə "qaynayan və daşan bir mayenin damlaları" halında görünmələrinə səbəb olar.

Şair əsərdən əsərin sahibinə keçməkdə bir zərrənin belə kifayət etdiyini necə də gözəl ifadə edir:

*Varlığın bilmə nə hacət küreyi-aləm ilə,*
*Yetər isbatına xəlq etdiyi bir zərrə belə.*

(Şinasi)

Bir mm2 qəbul etdiyimiz bir iynənin ucunda təxminən 100 trilyon atom olduğunu düşünsək,

kainatdakı hərəkətlərin necə bir qüdrətin əsəri olduğunu daha yaxşı dərk edərik.

Məhz bütün bu hərəkət və dəyişimin meydana gəlməsi üçün həqiqi bir müəssirə ehtiyac vardır. O da Xallaqi-Mütəal olan Allah-Təaladır. Çünki ağlı heyrətə salan bu xariqüladə halların hər hansı bir müəssir olmadan meydana gəlməsi və ya şüursuz bir faildən yaranması əsla mümkün deyil.

## Hər Şey Bir Məqsəd Üçün Yaradılıb

Bu aləmdə hər şeyin bir hikmət və fayda üçün yaradıldığı açıq-aşkar görülür. Əvvəlcə də ifadə etdiyimiz kimi:

- Günəş və Ayın işığı ilə dünya üzərindəki məxluqat aydınlanıb həyat tapır. Yer və Ayın Günəş ətrafında dönməsi ilə vaxtlar meydana gəlir. Yerin dönməsi ilə mövsümlər, illər, gün və gecələr; Ayın dönməsi ilə aylar meydana gəlir.

- Davamlı tənəffüs etdiyimiz hava ağciyərə gedərək qanı təmizləyir. Vücudumuzun hər şeydən çox ona ehtiyacı olduğu üçün son dərəcə asan və çox tapılır.

- Küləklər buludları sövq edərək ehtiyac olan yerə yağış aparır. Həmçinin küləklər bitkiləri və ağacları aşılayır, istiliyi tənzimləyir, havanı təmizləyir...

- Eyni şəkildə dənizlərin faydaları da saymaqla qurtarmaz...

Bütün bunların və burada saymaqla qurtara bilməyəcəyimiz neçə-neçə xüsusların insan həyatındakı əhəmiyyəti məlumdur. Dolayısı ilə, bunları ibrət nəzəri ilə seyr edib təfəkkür edən bir insan bu nəticəyə gəlir ki, bütün əşyanın yaradılışında böyük bir hikmət və məqsəd var. Bunu təsadüfün nəticəsi olaraq adlandırmaq ağıl, düşüncə və insafı tərk etməkdir. Bunlar elm, hikmət, qüdrət və əzəmət sahibi bir Zatın əsəridir. O da **Allah-Təala**dır.

## Eyni Maddədən Fərqli Əsərlər Meydana Gəlir

Ətrafımızda gördüyümüz fərqli varlıqların əsli eynidir. Hamısı maddədən meydana gəlmişdir. Fərqli ünsürlər eyni mahiyyətin parçalarıdır. Məsələn, səma cisimləri də eyni maddədən meydana gəlir. Ancaq hər birinin özünəxas bir forması, vəziyyəti, miqdarı və ömrü var. Bir qismi soyuq, bir qismi son dərəcə istidir...

Azot, karbon, oksigen, hidrogen kimi elementlərdən bitkilər və heyvanlar meydana gəlir. Halbuki bu maddələrlə həyat arasında və hələ elm, iradə, qüdrət, eşitmə, görmə kimi sifətlər arasında əsla bir münasibət yoxdur.

Məhz bütün bunlar ilahi sənət xariqələridir. Kainatda gördüyümüz bu qədər fərqli və mükəmməl varlıq uca qüdrət sahibi bir sənətkarın əsəridir. Bu qədər sənət xariqəsini meydana gətirən bir varlığın

sonradan olanlara bənzəməsi qeyri-mümkündür. O, Vacibul-Vücud olan, yəni varlığı zəruri, özündən və əzəli olan Allah-Təaladır.

Xülasə, düşünən bir insanın Rəbbini tanıması və Ona heyran olması heç də çətin deyil. Təfəkkür sayəsində insan kafirdirsə, imana qovuşar; mömindirsə, imanına səviyyə qazandırar; mərifət və məhəbbət mərhələlərində məsafə qət etməyə başlayar.

## Mərifətin Yolu

Kəlam alimləri “İnsana əmr edilən ilk fərz, mərifətullah, yəni Allahı tanımaq və Ona aparacaq təfəkkürə yönəlməkdir.” - demişlər.

Qurani-Kərimin ümumi və əsas məqsədi də ağılları və qəlbləri Allahdan qeyri şeylərin işğal etməsindən xilas edib mərifətullaha sövq etməkdir.

Allah-Təala insanı Rəbbini tanıması və Ona qulluq etməsi üçün yaratmışdır. İnsan bu məqsədə ən gözəl şəkildə zikr və fikir yolu ilə çata bilər. İbadət insanın həyatının əsasını təşkil edir. Zikr isə Allaha ibadət etməyin ən gözəl şəkillərindən biridir. Zikr ilə təfəkkür də bir-birindən ayrılmayan iki qardaş kimidir.

Şübhəsiz insanlar üçün ən mühüm şey əbədi səadət və xoşbəxtliyə nail olmaqdır. Başqa arzular buna nisbətlə əhəmiyyətsiz qalır. Əbədi səadət və

xoşbəxtliyə nail olmaq üçün isə ən mühüm vəsilə "mərifət"dir.

Elmi bilik, bir hadisəni səbəb və nəticə münasibəti ilə qavramaqdır. Mərifət isə buna əlavə olaraq bir də onda ilahi iradənin təcəllisini idrakla gerçəkləşir. Elə buna görədir ki, Allahın bilinməsinə dair biliklərə mərifətullah adı verilmişdir. Yəni bu, Allahın varlığını mərifət ölçüsündə qavramaq deməkdir.

Ona görə də Muminun surəsinin 84-87-ci ayələrində təzəkkür (düşünmə) təqvadan əvvəl zikr edilmişdir. Çünki insanlar təfəkkür və təhəssüs ilə mərifətə çatırlar. Allah-Təalanı layiqi ilə tanıdıqdan sonra isə Ona muxalifət etməkdən çəkinib təqva sahibi olmalarının vacibliyini bilirlər. Çünki mərifətullah olmadan, yəni Allahı layiqi ilə tanımadan heç bir əməl bir dəyər ifadə etməz.

Xülasə, ən üstün elmin mərifətullah olduğu şübhəsizdir. **Cüneyd Bağdadi** -qüddisə sirruh- belə buyurmuşdur:

"Əgər göy qübbənin altında mərifət əhlinin ardınca getdiyi elmdən daha üstün bir elmin olduğunu bilsəydim, başqa heç bir şeylə məşğul olmaz, durmadan onu əldə etmək üçün səy göstərərdim."

**İbn Qeyyim əl-Cövziyyə** də belə deyir:

"Allah-Təala Qurani-Kərimdə bəndələrini iki yolla mərifətullaha çatmağa dəvət edir:

1. Allah-Təalanın yaratdığı şeylərə nəzər edərək onların üzərində düşünmək,

2. Qurani-Kərimdəki ayeyi-kərimələr üzərində təfəkkür və tədəbbür etmək.

Birinci qrup Allahın müşahidə edilən ayələri, ikincisi də eşidilən və ağılla idrak edilən ayələrdir." (İbn Qeyyim, Fəvaid, s. 31-32)

Bunlar üzərində təfəkkür və təhəssüs insanı təhqiqi imana çatdıraraq yaradılış məqsədinə istiqamətləndirir.

Şair necə də gözəl deyir:

*Bir kitabullahi-əzəmdir sərasər kainat,*
*Hansı hərfi yoxlasan mənası daim Allah çıxar.*

*"Kainat başdan-başa Allahın ən böyük kitabıdır. Bu böyük kitabın hansı hərfini oxusan, mənasının daim Allah olduğunu görərsən. Kainatın hansı zərrəsi üzərində təfəkkür etsən, səni Allaha çatdırar."*

## Təfəkkür Əmələ Çevrilməlidir

Təfəkkür zikr və müraqəbə ilə həqiqətə çata bilmək üçün əldə edilən biliklərin tətbiqi lazımdır. İlahi həqiqətlər və Quran ayələri üzərində düşünən bir insan onlardan irəli gələnlərlə əməl etmədiyi təqdirdə təfəkkürünü məqbul səviyyədə həyata keçirməmiş olar. Çünki əməl, batini olan təfəkkür və təhəssüsün zahirə əksi deməkdir.

Bu xüsusda **İmam Qəzali** belə deyir:

“Təfəkkürün meyvəsi elm; hal qazanmaq və əməlisalehlərə yönəlmək üçündür. Qəlbdə elm hasil olduqda qəlbin halı dəyişir. Qəlbin halı dəyişdikdə üzvlərin əməlləri də dəyişir. Bu baxımdan əməl hala tabedir, hal elmə, elm də təfəkkürə. Elə isə təfəkkür həm başlanğıc, həm də bütün xeyirlərin açarıdır.

Həqiqi təfəkkür insanı çirkinliklərdən gözəlliklərə, tamahkarlıqdan zahidlik və qənaətə sövq edən təfəkkürdür. Bu elə bir təfəkkürdür ki, insana müşahidə və təqva halı qazandırır.” (İmam Qəzali, Ehya, VI, 47)

Əmələ çevrilən təfəkkür və təhəssüs sayəsində insan kainatdakı xariqələri adi görmə xəstəliyindən də xilas olur.

Həqiqətən sadə bir insan, bir rəssamın təbiəti təqlid edərək çəkdiyi peyzajları təqdirlə tamaşa edərkən kainat və onun Xaliqi qarşısında eyni təqdir hissini duya bilməz. Bütün xariqələri sadə işlər olaraq görər.

Pak bir qəlbə sahib olan Haqq dostları isə rəssamın sırf ad üçün çəkdiyi bu peyzajların əvəzinə, əsl sənətkar və Onun əsərləri qarşısında heyrət və həyəcan duyarlar. İlahi qüdrətin təbiətdə vücuda gətirdiyi sonsuz xariqələrdəki ilahi sənətin zövqünə nail olarlar. Sərmayəsi eyni torpaq olan bitkilərin rəngbərəng yarpaq və çiçəklərinə, bunlardakı gözəlliklərə, ağacların rəng, qoxu, ləzzət

və şəkildə sonsuz fərqlilik ərz eədn meyvələrinə, ancaq bir-iki həftəlik ömrü olduğu halda kəpənəyin qanadlarındakı xariqə naxışlara, insanın yaradılışındakı xariqüladəliklərə nəzər edərlər. Gözün görməsi, beynin idrak etməsi kimi sonsuz ilahi xariqələr və bunların “hal dili” deyilən sirli bəyanlarına qulaq verərlər.

Beləlləri üçün bütün kainat artıq oxunmağa hazır kitab kimidir. Bunlar sətirlərdəki elmləri keçib, sinələrdəki elmə çatmışlar. Eynilə bir vaxtlar Səlcuqlu Mədrəsəsində kitablarına vurğun, öz halında bir müəllim ikən, könlü eşqlə dolu olan **Şəms** adlı məczub bir dərvişin irşad nəzəri ilə qığılcım alıb eşq odu ilə yanmağa başlayan **Mövlana** kimi... O Mövlana ki, bu mənada eşq iqlimində yenidən doğulduqdan sonra, zahiri elmə aid kitabların dəyəri gözündə layiq olduğu həddə enmiş, artıq kainatın sirr və naxışlarını oxumağa başlamışdır. Ancaq bundan sonra insan, kainat və Qurandakı sirr və hikmətləri aşkara çıxardan bir fəryadnamə olan *Məsnəvi* adlı şahəsəri görə bilmişdir.

Bu dünya həyatını vəhylə tərbiyə edilmiş sağlam əqlin və iman nuru ilə aydınlanmış rəqiq bir qəlbin əsəri olan təfəkkür və təhəssüs iqlimində yaşayıb mərifətullaha çata bilən xas bəndələr necə də xoşbəxtdirlər!..

## SON SÖZ

Zəmanəmizdə öz tarixinə və mədəniyyətinə yadlaşmış bəzi insanlar Qərb mənşəli şəxsiyyət və xarakter inkişafı proqramlarında və ya Uzaq Şərq mənşəli yoqa-meditasyon kurslarında rahatlıq axtarırlar. Halbuki insanın axtardığı həqiqi rahatlıq ilahi hikmət və həqiqətlərin açarı olan İslamın tövsiyə etdiyi **zikr, təfəkkür** və **təhəssüs**lə meydana gələn **müraqəbə**dir.

Qəlbi təhəssüslə kamilləşən bir təfəkkür ruhun inşirah (genişlənmə), qəlbin təmkinlik qaynağıdır. Çünki belə bir təfəkkür insanı hikmətə çatdırır. Hikmətin başı isə Allah qorxusudur; təqva və xaşyət duyğusudur. Xülasə, təfəkkür mömini Allahın rizasına və məhəbbətinə qərq edər.

Kainat və hadisələr üzərində layiqi ilə təfəkkür edə bilən bir insan "Bu cahan nədir? Nə üçün yaradıldım? Fani günlərin həqiqəti və mahiyyəti nədir? Səadət yolu hansıdır? Mən kiməm? Necə yaşamalıyam? Haradan gəldim və hara gedirəm?" kimi sualların cavabını axtarar. Bu düşüncə onu dünyanın müvəqqəti həvəslərindən xilas edib doğru yola və əbədi səadətə çatdırar.

Biz də bu kiçik həcmli əsərimizdə kainat, insan və Qurandakı sirr, hikmət və həqiqətlərdən, dövrümüzün elmi nailiyyətlərindən də istifadə edərək az da olsa bəhs etməyə çalışdıq. Kim bilir, gələcəkdə hələ neçə-neçə sirr və hikmətlər meydana çıxacaq və ilahi qüdrət və əzəmətin sonsuzluğuna işıq salacaqdır.

Bundan başqa, burada toxunduğumuz xüsuslar, ancaq kitabımızın kiçik həcmi ölçüsündə bir neçə misaldan ibarətdir. Hörmətli oxucularımız -inşallah- bu misallar işığında dilə gətirməyə çalışdığımız təfəkkür üfüqünü öz könül aləmlərində bütün varlıqları və hadisələri əhatə edəcək bir genişliyə çatdırarlar. Beləliklə də mərifətullah dəryasından neçə-neçə sirr və hikmət inciləri alarlar.

**Allah-Təala hər birimizə yüksək təfəkkür üfqü lütf etsin! Quran, insan və kainatın sirr və hikmətlərini ibrət nəzəri ilə oxuyaraq qəlbən dirilməyi bizə nəsib etsin! Bizi, müraqəbə halında yaşayaraq mərifətullaha vasil olan bəxtiyar bəndələrindən etsin!**

**Amin!**

## İÇİNDƏKİLƏR

**ÖN SÖZ** ........................................................ 5

*Kainat, İnsan və Quranda*

**TƏFƏKKÜR** ............................................. 13

Ağlın Hüdudu............................................ 13

Qəlbin Vəzifəsi ......................................... 15

Təfəkkürün Əhəmiyyəti .............................. 19

Rəsulullah ﷺ Daim Təfəkkür Halında İdi ... 20

**KAİNATDA TƏFƏKKÜR** ............................ 27

GÖYLƏRİ TƏFƏKKÜR .............................. 29

*Qalaktikalar* ............................................... *30*

*Günəş Sistemi* ........................................... *32*

*Göylər Daim Genişlənir* .............................. *34*

*Yeddi Qat Səma* ......................................... *35*

*Təfəkkürü Tərk Etmək Böyük Günahdır* .... 38

ATMOSFER................................................ 43

*Atmosfer Təzyiqi* ...................................... *47*

*İsti-Soyuq Ahəngi* ........................................ *48*
*Küləklər* ...................................................... *48*
*Havanın Digər Faydaları* ............................ *50*
*İlahi Təmizləyici Qurğu* ............................... *51*
*Qorunmuş Tavan* ......................................... *52*
*Radio Dalğaları* ............................................ *53*
*Buludlar, Yağış və Qar* ................................ *55*
YERİ TƏFƏKKÜR ........................................ 57
*Nəbatat (Bitkilər)* ......................................... *59*
*Əngin Dənizlər* ............................................. *63*
*Su* ................................................................. *64*
HEYVANLARDAKI HİKMƏTLƏR .............. 65
*Bal Arısı* ....................................................... 67
*Sövqi-Təbii Xariqəsi* .................................. *69*
*Cüt Yaradılış* ................................................ *72*
ALLAHIN NEMƏTLƏRİNİ TƏFƏKKÜR..... 73
*Hər Vasitə ilə Təfəkkür* ............................... *75*
*Hər Zərrə Allahı Anladır* .............................. *76*
*Haqq-Təala Bu Kainatı Nə Üçün Yaratdı?*. *79*
**İNSANDA TƏFƏKKÜR** ............................. 83
YARADILIŞDAKI XARİQULADƏ ............... 83

İNCƏLİKLƏR ............................................ 83
*Sümüklər ................................................. 86*
*Üzvlər ...................................................... 88*
*Allah-Təalanın Şəfqət və Mərhəməti ......... 90*
*İnsanın Üzü və Barmaq Ucları .................. 92*
*Gen Xariqəsi............................................. 94*
*Vücud Fabrikini İşlədən Kimdir? ................ 95*
İNSAN NƏ ÜÇÜN YARADILMIŞDIR? ....... 97
ÖLÜM MÜƏMMASINI AÇA BİLMƏK ......... 98
*Ölümü Təfəkkür: Təfəkküri-Mövt ............. 101*
*Əshabi-Kiramın Təfəkküri-Mövtü............. 103*
*Təfəkküri-Mövtün Faydaları..................... 105*
*Ölümün Dəhşətinə Hazırlana Bilmək ...... 107*
**QURANDA TƏFƏKKÜR** ...........................115
*Quranı Allah Öyrətdi ..................................116*
*Bütün Kitablar Tək Bir KİTAB Üçündür.....117*
QURANİ-KƏRİM TƏFƏKKÜRLƏ OXUNMALIDIR ........................................118
*Allah Rəsulu ﷺ Qurani-Kərimi Necə Oxuyurdu? ............................................... 120*
*Əshabi-Kiramın Quran Tilavəti.................124*
*Haqq Dostlarının Quran Tilavəti .............. 126*

**QURANİ-KƏRİMDƏN TƏFƏKKÜR MİSALLARI** ........................................ 128

*Allahın Elmini Təfəkkür* ............................ *128*

VAQİƏ SURƏSİ ........................................ 133

*İnsanın Yaradılışı* .................................... *134*

*Ölüm və Yenidən Dirilmə* .......................... *134*

*Toxumlar və Bitkilər* ................................. *135*

*Şirin Su* ................................................... *136*

*Od* ............................................................ *136*

*Ulduzlar və ya Vəhylər* ............................. *138*

*Qurani-Kərim* ........................................... *139*

*Ölüm* ........................................................ *139*

*Ölən İnsan Üç Haldan Biri Üzrədir* .......... *140*

*Allah-Təalaya Sığınma* ............................. *141*

NƏML SURƏSİ ........................................ 141

RUM SURƏSİ ........................................... 144

ALLAHIN AYƏLƏRİNİ DÜŞÜNMƏYƏNLƏR ................................ 146

DAİM MÜRAQƏBƏ HALINDA OLA BİLMƏK ........................................... 149

*Haqqa Çatdıran Ən Qısa Yol* .................... *149*

MURAQƏBƏLƏR ...................................... 152

*1. Müraqəbeyi-Əhadiyyət ........................ 153*

*2. Müraqəbeyi-Maiyyət ............................ 155*

*3. Müraqəbeyi-Əqrabiyyət ....................... 156*

*4. Müraqəbeyi-Məhəbbət ......................... 159*

**TƏFƏKKÜR ƏDƏBİ** ................................ 165

HAQQ DOSTLARININ TƏFƏKKÜRÜ ..... 165

TƏFƏKKÜR BULAĞINI BƏRƏKƏTLİ TORPAQLARA AXITMAQ LAZIMDIR...... 170

TƏFƏKKÜR ZİKRLƏ

BİRLİKDƏ OLMALIDIR .......................... 175

*Zikr və Təfəkkürün Ən Bərəkətli Vaxtı Sübh Çağıdır.................................................... 179*

**NƏTİCƏ** ................................................. 183

Təfəkkür Həqiqətin və Nicatın Açarıdır.... 183

Əsl Təfəkkür Vacibul-Vücudun İsbatıdır .. 185

Hər Şey Hərəkət və Dəyişim Halındadır.. 190

Hər Şey Bir Məqsəd Üçün Yaradılıb........ 191

Eyni Maddədən Fərqli Əsərlər

Meydana Gəlir ......................................... 192

Mərifətin Yolu.......................................... 193

Təfəkkür Əmələ Çevrilməlidir .................. 195

**SON SÖZ** ............................................... 199

................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................
................................................................................................................